www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet 20-21 dekabr 2014-cü il Şənbə   № 310 (6019) Qiymәti 40 qəpik

**Xəbər**

## Bakıda 8-ci sinif şagirdi niyə intihar etdi?

yazısı səh.14-də

**Gündəm**

### Qərbdən İsrailə gözlənilməz zərbə



Avropa Parlamenti Fələstinin müstəqilliyini tanıyan qətnamə qəbul etdi; yəhudi dövləti Avropanın və ABŞ-ın diplomatik həmləsi ilə üz-üzə qalıb

yazısı səh.8-də

### Qərb müxalifətin yeni koalisiyasını yaratmaq istəyir?

**Zəfər Quliyev:** "Zəifləmiş müxalifətin başqa çıxış yolu da yoxdur"

yazısı səh.13-də

### Müsavatın növbəti mitinqi nə vaxt olacaq?

yazısı səh.6-da

### İsmayıl Ömərova şok ittihamlar

İTV-nin sabiq sədri və yaxınları şəriklərinə böyük pullar "atıb"

yazısı səh.12-də

### İlqar Məmmədovla bağlı xoş xəbər gözlənilir, bəs Tofiq Yaqublu?

yazısı səh.3-də

### "Prokuror" Dilqəm Əsgərova ömürlük, Şahbaz Quliyevə isə 22 il iş istədi

yazısı səh.11-də

### Türkiyə qaynayır - AKP-Camaat davası pik nöqtədə

yazısı səh.10-da

### "Rusiyanın sanksiyalardan qurtuluşu Ukrayna siyasətində yumşalmadan asılıdır"

Rasim Musabəyov Putinin verdiyi son mesajları şərh etdi

yazısı səh.13-də

### Qızıl bazarında "qızıl dövr" başlayır

yazısı səh.15-də

### "Quesnet" şirkətinin əməkdaşı həbs olundu

yazısı səh.2-də

## "Azərbaycan"dan Amerikaya qarşı sensasion ittihamlar

# İQTİDAR ABŞ-I BAKIDA DÖVLƏT ÇEVRİLİŞİ CƏHDİNDƏ SUÇLADI

Rəsmi dövlət qəzeti: "Rəsul Quliyevin və "hakimiyyətdaxili müxalifət" olan keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyevin hakimiyyətə gətirilməsi planı da məhz ABŞ-a məxsus idi"



Rəsul Quliyev



Fərhad Əliyev

yazısı səh.4-də

## Brüssel ilə rəsmi Bakının "qaz müharibəsi" qızışdı

Avropa Birliyi inadından dönmür; Avropa Komissiyası SOCAR-ın Yunanıstandakı yarım milyardlıq sövdələşməsinin təsdiqini yenə təxirə saldı; Azərbaycan hakimiyyətinə "insan haqları" ilə təzyiq olunur

yazısı səh.9-da



### Ziya Məmmədov Göyçayda özünə vertolyot meydançası tikdirir

yazısı səh.15-də



### Məhəmməd Hatəmidən "Yeni Müsavat"a ilginc açıqlamalar

yazısı səh.5-də



### Arif Hacılının barış müraciətinə cəbhəçilərdən aqressiv cavab

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014



**Müsavat Partiyasının Başqanı Arif Hacılı Başxanım Abbasovanı yubileyi münasibəti ilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Başxanım müəllimə!**

**Sizi, yubileyiniz münasibəti ilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram.**

**Siz, Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal nümayəndələrindən biri olmusunuz. 1992-ci ildən Müsavat Partiyasının üzvü, hal-hazırda Səbail rayon təşkilatının şura üzvüsünüz. Uzun illərdir rayon təşkilatının fəaliyyətində, müsavatçılıq ideyalarının təbliğində və yayılmasında yorulmadan fəaliyyət göstərən, eləcə də Sizi tanıyan insanlar və əqidə yoldaşlarınızın arasında böyük hörmətə malik şəxslərdən birisiniz. Eyni zamanda Müsavatçı Qadınlar Birliyinin fəaliyyətinin gücləndirilməsində Sizin də danılmaz xidmətləriniz var. Müsavat Partiyasının indiyə qədər keçirdiyi bütün tədbirlərins fəal iştirakçılarından birisiniz. Təqib və təzyiqlərlə üzləşsəniz də, heç zaman öz əqidənizdən dönməmisiniz.**

**Siz həm də mehriban, qayğıkeş bir ailə başçısı və anasınız. Siz övladlarınızla fəxr etdiyiniz kimi, onlar da hər zaman Sizinlə qürur hissi keçirərək, Sizin kimi bir insanın - müsavatçının övladı olmağı ilə fəxr edəcəklər.**

**Hörmətli Başxanım müəllimə!**

**Bir daha Sizi yubileyiniz münasibəti ilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram".**



## Qarabağ Ağsaqqallar Şurası Pakistan xalqına başsağlığı verib

**Qarabağ Ağsaqqallar Şurası Pişəvərdə Taliban terrorçularının uşaqlara qarşı törətdiyi terror aktı ilə əlaqədar Pakistanın Azərbaycandakı səfirinin iqamətgahında səfirlə görüşüb. Görüşdə iştirak edən Qarabağ Ağsaqqallar Şurasının sədri, BMT yanında Ümumdünya Sülh Federasiyasının Sülh səfiri Asif Məmmədli və yazıçı , tarixi araşdırmaçı, Pakistan-Azərbaycan əlaqələri Cəmiyyətinin sədri Xaqani İsmayıl Pişəvəridə uşaqların terror aktına məruz qalması ilə əlaqədar Pakistan səfiri Xalid Usman Qaysərə baş sağlığı veriblər.**

Ziyalılar səfirliyin xatirə kitabına qeydlərində Pakistan xalqına və terror qurbanlarının ailələrinə baş sağlığı veriblər. Taliban terroristlərinin Pişəvəridə törətdiyi terror aktı ilə ermənilərin Xocalıda və Qarabağda həyata keçirdiyi soyqırım aktını eyniləşdirdiyini deyən Şura sədri bu cür terror hadisələrinin pisləndiyini bildirib. Asif Məmmədli qeyd edib ki, Pakistan ilk dəfə Xocalı soyqırımını tanıyan dövlət olub və bu dövlətin acılarına şərik olmaq bizim də borcumuzdur.

❑ Nərgiz LİFTİYEVA

## Məşhur saatsazın oğluna vəzifə verildi

**Məşhur saatsazın oğluna yeni vəzifə verilib. APA-nın məlumatına görə, polis kapitanı Ceyhun Fətəliyev Suraxanı Rayon Polis İdarəsinin kadrlar şöbəsinə rəis təyin olunub. O, bundan əvvəl Bakı Şəhər Dövlət Yol Polisi İdarəsində çalışıb.**

Qeyd edək ki, F. Fətəliyevin Bakının məşhur saatsazı Hacı Fətəliyevin oğludur.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# İlham Əliyev alimləri təbrik etdi

**"Sivilizasiyaların qovuşuğunda yerləşən qədim mədəniyyət mərkəzi Azərbaycanda elmin çoxəsrlik tarixi və ənənələri var. Xalqımızın dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi mütəfəkkir alimlər antik dövrün elmi nailiyyətlərinin Avropaya çatdırılmasında özünəməxsus rol oynayıb, mədəniyyətlərarası dialoqun qurulması, bəşər və dövr arasında mədəni-elmi varislik ənənələrinin qoruyub saxlanması işinə misilsiz töhfələr veriblər".**



APA-nın xəbərinə görə, bu fikirlər prezident İlham Əliyev ttp://az.apa.az/tag/%C4%B0lham+%C6%8Fliyevin Azərbaycan alimlərinin I Qurultayına ünvanladığı təbrik məktubundandır.

Məktubda qeyd olunur ki, alimlərimizin yüz illər boyu dəyərini itirməyən əsərləri bəşəriyyətin intellektual inkişafına xidmətin parlaq nümunəsidir: "Elmimiz 20-ci əsrdə taleyüklü hadisələrlə zəngin olub. Milli Elmlər Akademiyasının, universitetlərin və digər elmi qurumların təşkili Azərbaycan elminin dünya elm məkanına inteqrasiyasına əlverişli zəmin yaradıb. Müasir cəmiyyət qurucuğunu təmin edən əsas amil kimi elm bu gün də müstəqil Azərbaycanın dövlət siyasətinin prioritet sahələrindəndir.

Qurultayınız ölkəmizdə sosial-iqtisadi, mədəni-mənəvi tərəqqi istiqamətində quruculuq işlərinin müvəffəqiyyətlə aparıldığı dövrə təsadüf edir. İnanıram ki, bu ilk məclisiniz qloballaşma dövrünün yeni-yeni çağırışlarına cavablar axtaracaq və milli-elmi potensialımızın ölkənin dinamik yüksəlişi naminə yeni innovativ prinsiplər əsasında sərhədlər qurulması naminə mühüm addım təşkil edəcək.

İqtisadiyyatımızın davamlı inkişafı, biliklərə əsaslanan cəmiyyətin formalaşdırılması və insan kapitalına investisiyaların qoyuluşu yaxın perspektiv üçün başlıca strateji məsələlərdəndir. Bütün bunlar yüksək ixtisaslı insan resursları, yeni elmi yanaşmalar və çevik innovasiya fəallığı tələb edərək, Azərbaycan elmi qarşısında tamamilə yeni vəzifələr irəli sürür. Əminəm ki, ilk qurultayınızda bununla əlaqədar səmərəli fikir mübadiləsi və müzakirələr aparılacaq, respublikamızın gələcəyi baxımından böyük əhəmiyyətə malik fəaliyyət proqramı qəbul olunacaq".

## "Quesnet" şirkətinin əməkdaşı həbs olundu

**Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən "Quesnet" şirkətinin əməkdaşları Furqan Babayev, Rasim Muradzadə, Nəsir Hüseynov, Əhliman Camalov və Oruc Rüstəmovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib**

Prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Məhkəmədə zamində olan təqsirləndirilən şəxs Oruc Rüstəmovun həbs olunması barədə qərar qəbul edilib və o, məhkəmə zalında həbs edilib.

Prosesin baxış iclası isə dekabrın 29-na təyin edilib.

Qeyd edək ki, digər təqsirləndirilən şəxslərin barəsində istintaq zamanı həbs qətimkan tədbiri seçilsə də , O. Rüstəmov barəsində bu qərar olmayıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, 2012 və 2013-cü illər ərzində paytaxtın Nizami rayonu ərazisində yerləşən "Quesnet" şirkətinin Nəsir Hüseynov, Əhliman Camalov, Rasim Muradzadə və Nəsir Hüseynov adlı işçiləri dələduzluq yolu ilə Bakı şəhər sakinləri Nəsib Qəhrəmanovadan 1850 manat, Qılman Nəsibovdan 1331 manat, İbrahim Məmmədovdan 2300 dollar, Rasim Qəhrəmanovdan 1500 manat, Fərhad Abdulovdan 1500 manat, İdris Şahbazovdan 1150 manat, Şamil Seyidzadədən 1650 manat, Pəhləvan Xudiyevdən 1220 manat, Rahim Cəfərovdan 1500 manat, Şəms Cabbarovadan 1455 manat, Ramilə Cəfərovadan 1425 manat, Sumqayıt şəhər sakini Hüriyyə Məmmədəliyevdən 3950 manat, Göyçay rayon sakinləri Samir İsrafilovdan 1175 manat, Elşən Əliyevdən 1500 manat, Füzuli rayon sakini Afət Alıyevdən 1650 manat və Beyləqan rayon sakini Müşfiq Şixəliyevdən 1850 manat almaları barədə Nizami Rayon Polis İdarəsinə bu il aprelin 22-də ərizə ilə müraciət olunub. (apa)



## Rəsul Cəfərov həbsdə qaldı

**Dekabrın 19-da hüquq müdafiəçisi Rəsul Cəfərovun Nəsimi Rayon Məhkəməsinin qərarından verdiyi apellyasiya şikayətinə baxılıb. Nəsimi Rayon Məhkəməsi dekabrın 10-da Rəsul Cəfərovun vəsatətinə baxmış, onu ev dustaqlığına buraxmamışdı. Bakı Apellyasiya Məhkəməsi bu gün həmin qərarı qüvvədə saxlayıb.**

Hüquq müdafiəçisinin vəkili Fariz Namazlı Azadlıq Radiosuna müsahibəsində deyib ki, müvəkkilinin ev dustaqlığına buraxılmasına mane olan bütün məsələlər artıq aradan qalxıb: "İş üzrə istintaq artıq yekunlaşıb. Rəsul Cəfərov həbs olunarkən istintaq orqanının gətirdiyi ehtimallar - onun istintaqdan qaçıb gizlənməsi, sübutları saxtalaşdırması, proses iştirakçılarına təsir etməsi ehtimalları tamamilə aradan qalxıb. Artıq işlə tanışlıq mərhələsidir. Rəsul Cəfərovun daimi yaşayış yeri var və bundan əvvəl də istintaqdan yayınmayıb. Buna görə də onun həbsdə saxlanmasına bir əsas qalmayıb".

İnsan Hüquqları Klubunun rəhbəri olan Rəsul Cəfərov avqustun 2-də həbs edilib. İstintaqı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi aparır. Əvvəl Rəsul Cəfərova qanunsuz sahibkarlıq, vergidən yayınma və vəzifə səlahiyyətlərini aşma ittihamları irəli sürülüb. Dekabrın 12-də vəkil Fariz Namazlı "Media forum" saytına deyib ki, hüquq müdafiəçisi yenidən dindirilib, onun işinə mənimsəmə və israf etmə və vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) ittihamları da əlavə olunub.

## Avropa oyunlarında 1 saylı Kliniki Tibbi Mərkəz baza xəstəxanası kimi təyin olunub

**"2015-ci il Avropa oyunları zamanı 1 saylı Kliniki Tibbi Mərkəz oyunların baza xəstəxanası kimi təyin olunub. Mərkəzdə xüsusi şöbələr yaradılacaq ki, idmançılar, turistlər səhhətlərində problem yaranarsa, gəlib burada müayinədən keçsinlər".**

APA -nın məlumatına görə, bunu 1 saylı Kliniki Tibbi Mərkəzin baş həkimi Sultan Əliyev bu gün Səhiyyə Nazirliyi tərəfindən jurnalistlər üçün təşkil olunan "Media tur" zamanı deyib.

Mərkəzin baş həkimi xəstəxana haqqında ümumi məlumat da verib. O bildirib ki, Mərkəz Almaniya istehsalı olan ən müasir avadanlıq və tibbi ləvazimatlarla tam təmin olunub: "Belə tədbirlərin keçirilməsi şəffaflığın artırılmasına xidmət edir. Bu tibb müəssisəsi 760-800 çarpayılıqdı. Burada ümumi 2000 nəfərə yaxın işçi var. Onlardan 500 nəfəri həkim, 800 nəfəri orta tibb işçisi, 700 nəfəri isə kiçik tibb işçiləridir".

S. Əliyev qeyd edib ki, Mərkəzdə tibbin bütün sahələri üzrə kompleks müayinə və müalicələrin aparılması üçün hər cür şərait var: "Dünyada elə bir ölkə yoxdur ki, orada səhiyyənin vəziyyəti ilə hamı tam razı olsun. Hətta Skandinaviya ölkələri bu sahədə xidmətlərinə görə keyfiyyətli sayılsa da, orada da müəyyən problemlər var. Mərkəzimizə il ərzində 30 000 nəfərdən çox xəstə gəlir və bu xəstələrin 10 000 nəfərə yaxını əməliyyat olunur. Əməliyyatların da 80 faizi təcili əməliyyatlardır, burada deməkolar ki, planlı əməliyyat çox azlıq təşkil edir".

Sonda jurnalistlər Mərkəzin müxtəlif şöbələrinin fəaliyyəti ilə tanış olublar.

## "Azərbaycanın inkişafına təkan verən Amerika Birləşmiş Ştatları"...

### Bakıdakı ABŞ səfirliyi təkzib edir

**ABŞ-ın Azərbaycandakı səfirliyi "Yeni Müsavat" qəzetinin 19 dekabr tarixli manşet yazısına reaksiya verib. Səfirlikdən musavat.com-a göndərilən açıqlamada "ABŞ Bakıdakı taktikasını dəyişir" sərlövhəli yazıya münasibətdə aşağıdakılar bildirirlir.**

"ABŞ Səfirliyindən məqalədəki iddialara dair məlumatın şərh olunması xahiş olunmayıb və biz sözügedən məlumatları təkzib edirik. Müvəqqəti İşlər Vəkili Derek Hoqan həqiqətən siyasi partiyaların baxışlarını daha yaxşı anlaması məqsədilə bir sıra partiyalarla görüşlər keçirib. Müstəqil, suveren və demokratik dövlət kimi Azərbaycanın inkişafına təkan verən Amerika Birləşmiş Ştatları heç bir seçki prosesinə öncədən qiymət vermək və ya təsir göstərmək niyyətində deyil. Biz Azərbaycan hökuməti və xalqı ilə müxtəlif səpkidə əməkdaşlıq etmək ümidindəyik".

❑ Musavat.com


Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33



**Müsavat Partiyasının Başqanı Arif Hacılı Başxanım Abbasovanı yubileyi münasibəti ilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Başxanım müəllimə!**

**Sizi, yubileyiniz münasibəti ilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram.**

**Siz, Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal nümayəndələrindən biri olmusunuz. 1992-ci ildən Müsavat Partiyasının üzvü, hal-hazırda Səbail rayon təşkilatının şura üzvüsünüz. Uzun illərdir rayon təşkilatının fəaliyyətində, müsavatçılıq ideyalarının təbliğində və yayılmasında yorulmadan fəaliyyət göstərən, eləcə də Sizi tanıyan insanlar və əqidə yoldaşlarınızın arasında böyük hörmətə malik şəxslərdən birisiniz. Eyni zamanda Müsavatçı Qadınlar Birliyinin fəaliyyətinin gücləndirilməsində Sizin də danılmaz xidmətləriniz var. Müsavat Partiyasının indiyə qədər keçirdiyi bütün tədbirlərins fəal iştirakçılarından birisiniz. Təqib və təzyiqlərlə üzləşsəniz də, heç zaman öz əqidənizdən dönməmisiniz.**

**Siz həm də mehriban, qayğıkeş bir ailə başçısı və anasınız. Siz övladlarınızla fəxr etdiyiniz kimi, onlar da hər zaman Sizinlə qürur hissi keçirərək, Sizin kimi bir insanın - müsavatçının övladı olmağı ilə fəxr edəcəklər.**

**Hörmətli Başxanım müəllimə!**

**Bir daha Sizi yubileyiniz münasibəti ilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram".**

# İlham Əliyev alimləri təbrik etdi

**"Sivilizasiyaların qovuşuğunda yerləşən qədim mədəniyyət mərkəzi Azərbaycanda elmin çoxəsrlik tarixi və ənənələri var. Xalqımızın dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi mütəfəkkir alimlər antik dövrün elmi nailiyyətlərinin Avropaya çatdırılmasında özünəməxsus rol oynayıb, mədəniyyətlərarası dialoqun qurulması, bəşər və dövr arasında mədəni-elmi varislik ənənələrinin qoruyub saxlaması işinə misilsiz töhfələr veriblər".**



APA-nın xəbərinə görə, bu fikirlər prezident İlham Əliyevin Azərbaycan alimlərinin I Qurultayına ünvanladığı təbrik məktubundandır.

Məktubda qeyd olunur ki, alimlərimizin yüz illər boyu dəyərini itirməyən əsərləri bəşəriyyətin intellektual inkişafına xidmətin parlaq nümunəsidir: "Elmimiz 20-ci əsrdə taleyüklü hadisələrlə zəngin olub. Milli Elmlər Akademiyasının, universitetlərin və digər elmi qurumların təşkili Azərbaycan elminin dünya elm məkanına inteqrasiyasına əlverişli zəmin yaradıb. Müasir cəmiyyət quruculuğunu təmin edən əsas amil kimi elm bu gün də müstəqil Azərbaycanın dövlət siyasətinin prioritet sahələrindəndir.

Qurultayınız ölkəmizdə sosial-iqtisadi, mədəni-mənəvi tərəqqi istiqamətində quruculuq işlərinin müvəffəqiyyətlə aparıldığı dövrə təsadüf edir. İnanıram ki, bu ilk məclisiniz qloballaşma dövrünün yeni-yeni çağırışlarına cavablar axtaracaq və milli-elmi potensialımızın ölkənin dinamik yüksəlişi naminə yeni innovativ prinsiplər əsasında sərhədlər qurulması naminə mühüm addım təşkil edəcək.

İqtisadiyyatımızın davamlı inkişafı, biliklərə əsaslanan cəmiyyətin formalaşdırılması və insan kapitalına investisiyaların qoyuluşu yaxın perspektiv üçün başlıca strateji məsələlərdəndir. Bütün bunlar yüksək ixtisaslı insan resursları, yeni elmi yanaşmalar və çevik innovasiya fəallığı tələb edərək, Azərbaycan elmi qarşısında tamamilə yeni vəzifələr irəli sürür. Əminəm ki, ilk qurultayınızda bununla əlaqədar səmərəli fikir mübadiləsi və müzakirələr aparılacaq, respublikamızın gələcəyi baxımından böyük əhəmiyyətə malik fəaliyyət proqramı qəbul olunacaq".



# Qarabağ Ağsaqqallar Şurası Pakistan xalqına başsağlığı verib

**Qarabağ Ağsaqqallar Şurası Pişəvəridə Taliban terrorçularının uşaqlara qarşı törətdiyi terror aktı ilə əlaqədar Pakistanın Azərbaycandakı səfirinin iqamətgahında səfirlə görüşüb. Görüşdə iştirak edən Qarabağ Ağsaqqallar Şurasının sədri, BMT yanında Ümumdünya Sülh Federasiyasının Sülh səfiri Asif Məmmədli və yazıçı , tarixi araşdırmaçı, Pakistan-Azərbaycan əlaqələri Cəmiyyətinin sədri Xaqani İsmayıl Pişəvəridə uşaqların terror aktına məruz qalması ilə əlaqədar Pakistan səfiri Xalid Usman Qaysərə baş sağlığı veriblər.**

Ziyalılar səfirliyin xatirə kitabına qeydlərində Pakistan xalqına və terror qurbanlarının ailələrinə başsağlığı veriblər. Taliban terroristlərinin Pişəvəridə törətdiyi terror aktı ilə ermənilərin Xocalıda və Qarabağda həyata keçirdiyi soyqırım aktını eyniləşdirdiyini deyən Şura sədri bu cür terror hadisələrinin pislədiyini bildirib. Asif Məmmədli qeyd edib ki, Pakistan ilk dəfə Xocalı soyqırımını tanıyan dövlət olub və bu dövlətin acılarına şərik olmaq bizim də borcumuzdur.

❑ Nərgiz LİFTİYEVA

# Məşhur saatsazın oğluna vəzifə verildi

**Məşhur saatsazın oğluna yeni vəzifə verilib. APA-nın məlumatına görə, polis kapitanı Ceyhun Fətəliyev Suraxanı Rayon Polis İdarəsinin kadrlar şöbəsinə rəis təyin olunub. O, bundan əvvəl Bakı Şəhər Dövlət Yol Polisi İdarəsində çalışıb.**

Qeyd edək ki, F. Fətəliyevin Bakının məşhur saatsazı Hacı Fətəliyevin oğludur.

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "Quesnet" şirkətinin əməkdaşı həbs olundu

**Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən "Quesnet" şirkətinin əməkdaşları Furqan Babayev, Rasim Muradzadə, Nəsir Hüseynov, Əhliman Camalov və Oruc Rüstəmovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib**

Prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Məhkəmədə zamində olan təqsirləndirilən şəxs Oruc Rüstəmovun həbs olunması barədə qərar qəbul edilib və o, məhkəmə zalında həbs edilib.

Prosesin baxış iclası isə dekabrın 29-na təyin edilib.

Qeyd edək ki, digər təqsirləndirilən şəxslərin barəsində istintaq zamanı həbs qətimkan tədbiri seçilsə də O.Rüstəmov barəsində bu qərar olmayıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, 2012 və 2013-cü illər ərzində paytaxtın Nizami rayonu ərazisində yerləşən "Quesnet" şirkətinin Nəsir Hüseynov, Əhliman Camalov, Rasim Muradzadə və Nəsir Hüseynov adlı işçiləri dələduzluq yolu ilə Bakı şəhər sakinləri Nəsib Qəhrəmanovadan 1850 manat, Qılman Nəsibovdan 1331 manat, İbrahim Məmmədovdan 2300 dollar, Rasim Qəhrəmanovdan 1500 manat, Fərhad Abdulovdan 1500 manat, İdris Şahbazovdan 1150 manat, Şamil Seyidzadədən 1650 manat, Pəhləvan Xudiyevdən 1220 manat, Rahim Cəfərovdan 1500 manat, Şəms Cabbarovadan 1455 manat, Ramilə Cəfərovadan 1425 manat, Sumqayıt şəhər sakini Hüriyyə Məmmədəliyevdən 3950 manat, Göyçay rayon sakinləri Samir İsrafilovdan 1175 manat, Elşən Əliyevdən 1500 manat, Füzuli rayon sakini Afət Alıyevdən 1650 manat və Beyləqan rayon sakini Müşfiq Şixəliyevdən 1850 manat almaları barədə Nizami Rayon Polis İdarəsinə bu il aprelin 22-də ərizə ilə müraciət olunub. (apa)



# Rəsul Cəfərov həbsdə qaldı

**Dekabrın 19-da hüquq müdafiəçisi Rəsul Cəfərovun Nəsimi Rayon Məhkəməsinin qərarından verdiyi apellyasiya şikayətinə baxılıb. Nəsimi Rayon Məhkəməsi dekabrın 10-da Rəsul Cəfərovun vəsatətinə baxmış, onu ev dustaqlığına buraxmamışdı. Bakı Apellyasiya Məhkəməsi bu gün həmin qərarı qüvvədə saxlayıb.**

Hüquq müdafiəçisinin vəkili Fariz Namazlı Azadlıq Radiosuna müsahibəsində deyib ki, müvəkkilinin ev dustaqlığına buraxılmasına mane olan bütün məsələlər artıq aradan qalxıb: "İş üzrə istintaq artıq yekunlaşıb. Rəsul Cəfərov həbs olunarkən istintaq orqanının gətirdiyi ehtimallar - onun istintaqdan qaçıb gizlənməsi, sübutları saxtalaşdırması, proses iştirakçılarına təsir etməsi ehtimalları tamamilə aradan qalxıb. Artıq işlə tanışlıq mərhələsidir. Rəsul Cəfərovun daimi yaşayış yeri var və bundan əvvəl də istintaqdan yayınmayıb. Buna görə də onun həbsdə saxlanmasına bir əsas qalmayıb".

İnsan Hüquqları Klubunun rəhbəri olan Rəsul Cəfərov avqustun 2-də həbs edilib. İstintaqı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi aparır. Əvvəl Rəsul Cəfərova qanunsuz sahibkarlıq, vergidən yayınma və vəzifə səlahiyyətlərini aşma ittihamları irəli sürülüb. Dekabrın 12-də vəkil Fariz Namazlı "Media forum" saytına deyib ki, hüquq müdafiəçisi yenidən dindirilib, onun işinə mənimsəmə və israf etmə və vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) ittihamları da əlavə olunub.

# Avropa oyunlarında 1 saylı Kliniki Tibbi Mərkəz baza xəstəxanası kimi təyin olunub

**"2015-ci il Avropa oyunları zamanı 1 saylı Kliniki Tibbi Mərkəz oyunların baza xəstəxanası kimi təyin olunub. Mərkəzdə xüsusi şöbələr yaradılacaq ki, idmançılar, turistlər səhhətlərində problem yaranarsa, gəlib burada müayinədən keçsinlər".**

APA -nın məlumatına görə, bunu 1 saylı Kliniki Tibbi Mərkəzin baş həkimi Sultan Əliyev bu gün Səhiyyə Nazirliyi tərəfindən jurnalistlər üçün təşkil olunan "Media tur" zamanı deyib.

Mərkəzin baş həkimi xəstəxana haqqında ümumi məlumat da verib. O bildirib ki, Mərkəz Almaniya istehsalı olan ən müasir avadanlıq və tibbi ləvazimatlarla tam təmin olunub: "Belə tədbirlərin keçirilməsi şəffaflığın artırılmasına xidmət edir. Bu tibb müəssisəsi 760-800 çarpayılıqdı. Burada ümumi 2000 nəfərə yaxın işçi var. Onlardan 500 nəfəri həkim, 800 nəfəri orta tibb işçisi, 700 nəfəri isə kiçik tibb işçiləridir".

S.Əliyev qeyd edib ki, Mərkəzdə tibbin bütün sahələri üzrə kompleks müayinə və müalicələrin aparılması üçün hər cür şərait var: "Dünyada elə bir ölkə yoxdur ki, orada səhiyyənin vəziyyəti ilə hamı tam razı olsun. Hətta Skandinaviya ölkələri bu sahədə xidmətlərinə görə keyfiyyətli sayılsa da, orada da müəyyən problemlər var. Mərkəzimizə il ərzində 30 000 nəfərdən çox xəstə gəlir və bu xəstələrin 10 000 nəfərə yaxını əməliyyat olunur. Əməliyyatların da 80 faizi təcili əməliyyatlardır, burada demək olar ki, planlı əməliyyat çox azlıq təşkil edir".

Sonda jurnalistlər Mərkəzin müxtəlif şöbələrinin fəaliyyəti ilə tanış olublar.

# "Azərbaycanın inkişafına təkan verən Amerika Birləşmiş Ştatları"...

## Bakıdakı ABŞ səfirliyi təkzib edir

**ABŞ-ın Azərbaycandakı səfirliyi "Yeni Müsavat" qəzetinin 19 dekabr tarixli manşet yazısına reaksiya verib. Səfirlikdən musavat.com-a göndərilən açıqlamada "ABŞ Bakıdakı taktikasını dəyişir" sərlövhəli yazıya münasibətdə aşağıdakılar bildirirlir.**

"ABŞ Səfirliyindən məqalədəki iddialara dair məlumatın şərh olunması xahiş olunmayıb və biz sözügedən məlumatları təkzib edirik. Müvəqqəti İşlər Vəkili Derek Hoqan həqiqətən siyasi partiyaların baxışlarını daha yaxşı anlaması məqsədilə bir sıra partiyalarla görüşlər keçirib. Müstəqil, suveren və demokratik dövlət kimi Azərbaycanın inkişafına təkan verən Amerika Birləşmiş Ştatları heç bir seçki prosesinə öncədən qiymət vermək və ya təsir göstərmək niyyətində deyil. Biz Azərbaycan hökuməti və xalqı ilə müxtəlif səpkidə əməkdaşlıq etmək ümidindəyik".

❑ Musavat.com

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Həbsdəki müsavatçı qardaşlara məxsus kompüter geri qaytarılıb

## Netbooka əlavə məlumatlar yerləşdirilib; Fərəc və Sirac Kərimli qardaşlarının ailəsi buna etiraz edir

**Hazırda həbsdə olan Müsavat başqanın müavini Fərəc Kərimli və qardaşı Sirac Kərimli tutularkən onlara məxsus müsadirə olunan kompüter geri qaytarılıb. Lakin geri qaytarılan netbooka qardaşlara qarşı irəli sürülən ittihamlara aid əlavə məlumatlar yerləşdirilib.**

Bu barədə musavat.com-a Fərəc və Sirac Kərimli qardaşlarının atası Raqif Kərimli məlumat verib. O, bildirib ki, yerləşdirilən məlumatlar övladları həbs edildiyi zamandan 4 ay əvvəlki tarixi göstərir: “Sirac həbs edilərkən mənə məxsus olan netbooku Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları aparmışdılar. Akt tərtib edərək götürmüşdülər. İndiyə qədər heç bir əsas gətirmədən qaytarmırdılar. Bununla bağlı bir çox yerlərə müraciət etmişdim. Fərəc tutulduğu zaman isə həyat yoldaşıma aid sənədlər əl çantası ilə birlikdə aparılmışdı. Bu günlərdə kompüteri geri almaq üçün yenidən müraciət etdim. Çünki müəllim olduğuma görə mənə çox lazımdır. Bildirdilər ki, 1-ci gün verəcəyik. Lakin həmin gün yenə alınmadı. Nəhayət dekabrın 19-da məni dəvət etdilər. Siracın müstəntiqi ilə görüşdüm. İzahat verdiyim zaman mənə dedilər ki, kompüterdən dərman məlumatları aşkarlanıb. Buna etiraz etdim. Çünki bunun olması mümkün deyil. Dedilər ki, film var. Məni heyrət bürüdü. Çünki bu ola bilməzdi. İzahatımda bunları qeyd etdim. Evə gəldikdən sonra kompüterə baxdım. Dedikləri dərman məlumatlarının yerləşdirildiyini gördüm. Tarix də mart ayına təsadüf edir. Ümumiyyətlə martın 4-7-nə 8 dərman adı yazılıb. Bu məlumatları özləri yerləşdiriblər. Biz belə şey yazmamışıq. Bundan əlavə şəkillər də qoyublar. Hakimiyyətin siyasətini bəyənmirik. Müxalifətdə olmağımız ayrı bir məsələdir. Dərmanlarla bağlı məlumatları uşaqlara verilən ittihamları öz aləmlərində əsaslandırmaq üçün yerləşdiriblər. Şəkilləri yerləşdirmədə məqsəd isə hakimiyyətə göstərmək istəyirlər ki, övladlarım onlara qarşıdır. Bu şəkillər də bizim tərəfimizdən qoyulmayıb. Tarix may ayını göstərir. Şəkillərin birində bığsız adam var. Vəhhabiyə oxşayır. Gözündə eynək var. Eynəyin bir gözünə Heydər Əliyevin, bir gözünə də İlham Əliyevin şəklini qoyublar. Bir də Hafiz Hacıyevin şəkli var. Komediya şəklində düzəldiblər. Eybəcər hala salıblar. İlham Əliyevin də əlavə şəkli var. Guya bunu da biz etmişik. Qalan şeylər də var. Bütün bunlar bizim tərəfimizdən edilməyib. Tam saxtalaşdırıblar. Əsassız şeylərdir. Yalan ittihamlarını əsaslandırmaq, üzlərini ağartmaq üçün atılan addımlardır. Saxtakarlıqdan ibarət formal bir şeydir”.



Fərəc Kərimli



Sirac Kərimli

Qeyd edək ki, Fərəc Kərimli iyulun 23-də həbs edilib. Onun həbsindən bir həftə əvvəl qardaşı Sirac Kərimli həbs olunub. Hər iki qardaşa qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə (kütləvi şəkildə narkotik maddələr əldə etmə, saxlama və satma) cinayət işi açılıb.

**Oktyabrda qardaşların həbs müddəti daha 3 ay uzadılıb. Onlara qarşı irəli sürülən maddə üzrə qardaşları 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir. Son olaraq dekabrın 13-də Sirac Kərimlinin həbs müddəti fevralın 17-nə qədər uzadılıb.**

❑ **Cavanşir ABBASLI**

# Məhbus ailələri Yeni il ərəfəsində nikbindirlər

## Onlar yaxınlarının əfv sərəncamı ilə azadlığa buraxılacaqlarına ümid edirlər

**Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı gəlir. Bu bayramla əlaqədar əfv sərəncamı veriləcəyi gözlənilir. Siyasi motivlərə görə həbsxana həyatı yaşayan bəzi məhbuslarımızın azadlığa çıxacaqlarına ümidlər var. Bəs, məhbus ailələri Yeni ildə həbsdəkilərlə görüşəcəklərmi? Doğmaları ilə bağlı nəyə ümid edirlər?**



**Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı Nigar Yaqublu** bayram günləri görüş verilib-verilməməsindən xəbərsiz olduğunu söylədi: “14 gündən bir qanunla görüş vaxtıdır. Adətən bazar günləri atamla görüşürük. Dekabrın 21-də növbəti görüş günüdür. Bundan sonra yanvarın 4-nə qədər qanunla icazəmiz yoxdur. Müəssisə rəhbərliyinin bayram günlərində məhbusların yaxınları ilə görüşünə icazə verib-verməməsindən məlumatsızam. Dekabrın 21-dəki görüşümdə dəqiqləşdirəcəm”.

Tofiq Yaqublu ilə eyni motivlərə görə həbs olunmuş **REAL Hərəkatının sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova** bayramqabağı qızı ilə birlikdə cəzaçəkmə müəssisəsinə gedəcəyini bildirdi: “Növbəti görüş dekabrın 27-dir. Qızımla birlikdə görüşə gedəcəyik. Aysel atasını təbrik edəcək. Avropa Şurası Nazirlər Komitəsi qərar verib ki, İlqar Məmmədov azad olunmalıdır. Ümidlərimiz çoxdur. İnşallah əfvə düşər. Əfvə düşməsə də, bəlkə Ali Məhkəmədə məsələ həll olunar. Allah qoysa, azadlığa buraxılıb ailəsinin yanına qayıdar”.

Həbsdəki **NİDA-çı gənclərdən Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova** Yeni il qabağı görüş planlaşdırdıqlarını qeyd etdi: “Bayram günləri görüş verilmir. Bu baxımdan dekabrın 27-də görüşəcəyik. Bu il üçün son görüşümüz olacaq”.

**NİDA-çı gənc Zaur Qurbanlının atası Araz Qurbanlı** bayramı övladı ilə evdə keçirmək istədiyini bildirdi: “Heç bir problem olmadan hər həftə görüşürük. Açıq görüş olur. Çox ümidliyəm ki, bayramı evdə Zaurla birlikdə keçirəcəyik. Allah bütün dustaqların qapısını açsın”.

**Nemət Pənahlının həyat yoldaşı Həcər Pənahlı** görüşmək imkanlarının məhdudluğundan danışdı: “Nemətə heç bir güzəşt olunmur. 6 aydan bir uzunmüddətli görüşdür. Bu vaxt yanvarın 26-na düşür. İndiyə qədər bayram vaxtlarında heç zaman görüş imkanı olmayıb. Hər bayramda gözləyirik ki, bəlkə insafa gəlib azadlığa buraxarlar. Ümidimiz həmişə olub. Allah bu bayramda ona azadlıq yazıbsa, azadlığa buraxılacaq. İnşallah, heç olmasa bu dəfə normal bayram keçirərik”.

**VHP üzvü Ömər Məmmədovun atası Əlyar Məmmədov** ən böyük arzusunun Yeni ili oğlu ilə birlikdə keçirmək olduğunu söylədi: “Ömərlə bir yerdə bu bayramı keçirmək istəyirəm. Arzum yalnız budur. İntizarla gözləyirik. Hamı ilə bir yerdə Ömərin ailəsinin yanında olmağını istəyirəm. Hər həftə problemsiz görüşürük. Təcridxananın rəhbərliyindən razıyam. Ömərin Yeni ildə evdə olmamasını təsəvvür belə etmək istəmirəm. Hamı bilir ki, övladım nəyə görə tutulub. Son həbslərdən sonra oğlumun azad olunacağına inamım azalıb. Deyirlər ki, ümidlər sonda ölür. Bu baxımdan hələ də inamım var”.

❑ **Cavanşir ABBASLI**




İlqar Məmmədov

# İlqar Məmmədovla bağlı xoş xəbər gözlənilir, bəs Tofiq Yaqublu?

## “Yeni Müsavat”ın yazarının işi hələ Avropa Məhkəməsində icraata götürülməyib

**Avropa Şurasının Nazirlər Komitəsi Azərbaycan hökumətindən müxalif REAL Hərəkatının lideri İlqar Məmmədovu dərhal həbsdən buraxmağı tələb edir. "Beynəlxalq təşkilatdır. Belə çağırışlar ola bilər. Onların mövqe bildirmək hüquqları var".**

Bunu isə Azadlıq Radiosuna Ədliyyə Nazirliyinin insan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Faiq Qurbanov söyləyib. Mən bu qərarı şərh etmək istəmirəm. Məsələyə hüquqi müstəvidə, qanun və qaydalara əsasən baxılmalıdır. Avropa İnsan Haqları Məhkəməsinin qərarına Ali Məhkəmənin plenumunda baxılmalıdır. Avropa İnsan Haqları Məhkəməsinin qərarı əsasında da lazımi prosedurlar yerinə yetirilir».

Dekabrın 4-də AŞ Nazirlər Komitəsində Avropa İnsan Hüquqları Məhkəməsinin İlqar Məmmədov barədə qərarının icrası məsələsinə baxılıb.

İ.Məmmədov 2013-cü ildə İsmayıllı rayonunda etirazların təşkilində təqsirli bilinib, 7 illik həbs cəzası alıb. Müsavat başqanının müavini, “Yeni Müsavat”ın köşə yazarı Tofiq Yaqublu da eyni ittihamla 5 il həbsə məhkum edilib. Onlardan başqa daha bir neçə nəfər həmin hadisələrə görə həbs olunub.

Yerli və beynəlxalq hüquq müdafiə təşkilatları bu həbsləri siyasi sifariş sayır. Avropa Məhkəməsi oktyabrın 13-də İ.Məmmədovun dərhal azadlığa buraxılması ilə bağlı qəti qərar çıxarıb. Qərarda ona təzminat ödənilməsi də tələb olunur. Həmin qərar üç ay ərzində icra edilməlidir.

Oktyabrın 14-də isə Avropa Şurasının baş katibi Tornbörn Yaqland Azərbaycan hakimiyyətini Avropa Məhkəməsinin qərarını yerinə yetirməyə və REAL hərəkatının lideri İlqar Məmmədovu həbsdən azad etməyə çağırıb.

İ.Məmmədovla bağlı qərarın qüvvəyə minməsi ilə bağlı məlumat artıq AİHM-nin səhifəsində yerləşdirilib. Avropa Məhkəməsi bu ilin mayında REAL sədrinin azadlıq hüququnun və təqsirsizlik prezumpsiyasının pozulduğunu tanıyıb. Məhkəmənin qərarına əsasən, İlqar Məmmədov azad olunmalı, Azərbaycan dövləti dəymiş mənəvi ziyana görə ona 22 min avro təzminat ödəməlidir.

Ancaq avqustun 8-də Azərbaycan hökuməti Avropa Məhkəməsinin qərarından Böyük Palataya müraciət edib. Oktyabrın 13-də kollegiya müraciətə baxıb və onu Böyük Palatanın baxışına verməkdən imtina edib. Bununla da Məhkəmənin mayda çıxardığı qərar qəti qüvvəyə minib və qərar dərhal icra olunmalıdır. Bu o deməkdir ki, həmin qərarda göstərilən pozuntular aradan qaldırılmalıdır. Onun həbsi ilə bağlı qəbul olunan bütün qərarlar qanunsuz, əsassız, qeyri-hüquqidir. Bu halda Ali Məhkəmənin plenumu həmin qərarlara yenidən baxaraq onları ləğv etməlidir. Prosedurlara əsasən, qərar qətiləşdiyindən 3 ay ərzində yerinə yetirilməlidir.

Təbii ki, bu məqamda diqqət çəkən nüans İ.Məmmədovla eyni vaxtda, eyni iddia ilə həbs edilən jurnalist Tofiq Yaqublunun məsələsidir. Nə üçün həmkarımızla bağlı da eyni addım atılmır?

**Əldə etdiyimiz məlumata görə, T.Yaqublunun işindən də Avropa Məhkəməsinə şikayət göndərilib. Amma hazırda iş kommunikasiya mərhələsindədir. Sənədlərin araşdırılması, sübutların dəqiqləşdirilməsi mərhələsindən sonra iş icraata götürüləcək.**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014

## "Azərbaycan"dan Amerikaya qarşı sensasion ittihamlar

**Rəsmi dövlət qəzeti olan "Azərbaycan"da "ABŞ-Azərbaycan münasibətlərinə kiçik ekskurs və gələcək haqqında düşüncələr" adlı sensasion iddiaların yer aldığı yazı dərc olunub. Yazıda ABŞ-a yönəlik xeyli ittihamlar var. Şübhəsiz ki, hakimiyyət rəhbərliyinin razılığı olmadan rəsmi dövlət qəzetində belə bir yazı dərc edilə bilməzdi. Bu isə onun göstəricisidir ki, ABŞ-Azərbaycan münasibətləri ən kritik həddə gəlib çatıb.**


Fərhad Əliyev


Rəsul Quliyev

# İqtidar ABŞ-ı Bakıda dövlət çevrilişi cəhdində suçladı

**Rəsmi dövlət qəzeti Amerikanı suşladı:** "Rəsul Quliyevin və "hakimiyyətdaxili müxalifət" olan keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyevin hakimiyyətə gətirilməsi planı da məhz ABŞ-a məxsus idi"

Məqalədə Amerikanın bölgədə yalnız öz geosiyasi maraqlarını güddüyü, Azərbaycana qarşı müntəzəm olaraq ikili standartlarla yanaşdığı xüsusi vurğulanır. "ABŞ-da bəziləri düşünürlər ki, Azərbaycanın öz dövlətçilik, milli maraqları ya ümumiyyətlə olmamalı, ya da Vaşinqtonun cızdığı çərçivədən kənara çıxmamalıdır. Yəni rəsmi Bakı yalnız tapşırıqlar yerinə yetirməlidir" - deyə, qeyd edilir: "...Bu, tamamilə yanlış düşüncə tərzidir..."

Yazıda həmçinin bir sıra QHT-lərə və bəzi şəxslərə ümumilikdə milyonlarla manat qrant ayırdığı qeyd olunur. Bu vəsaitlər hesabına işlər görənlər isə "Amerika agenti" kimi təqdim edilir.

Məqalədə Azərbaycanın daim ABŞ-la əməkdaşlıqda maraqlı olduğu, İraqda, Əfqanıstandakı əməliyyatlar zamanı koalisiya qüvvələrinə dəstək verdiyi xatırladılır: "...Azərbaycan ABŞ və Qərb dövlətləri ilə münasibətlərində həmişə səmimi olub, müxtəlif istiqamətlərdən yönəlmiş təzyiq və təhdidlərə baxmayaraq, əməkdaşlıq əlaqələrini inkişaf etdirib və ümumi işə öz töhfəsini verib. Bəs, bunun qarşılığında nə alıb? Qərb də Azərbaycanla münasibətlərində səmimi olmağı bacarıbmı? Cavab birmənalıdır: YOX!"...

Yazıda bir məqam diqqəti xüsusi cəlb edir: "...1990-cı illərin ikinci yarısından etibarən ABŞ-ın müəyyən dairələri Azərbaycanla bağlı müxtəlif bədbin ssenarilər hazırlamağa və həyata keçirməyə başladılar. İnsan haqları məsələsinin süni şəkildə qabardılması, seçki prosesinin gözdən salınması, korrupsiya haqqında miflərin yaradılması və digər bu kimi əsassız ittihamların başlıca məqsədi böyük iradə və əzmkarlıq göstərərək uğurla inkişaf edən, qısa zamanda beynəlxalq aləmdə nüfuz sahibinə çevrilən, zəngin enerji potensialını öz xalqının rifahına yönəltməyə çalışan bir müsəlman ölkəsini sarsıtmaq, onu milli dövlət quruculuğundan, ümummilli problemlərinin həllindən yayındırmaq, dünya ictimaiyyəti qarşısında imicini korlamaq idi. Artıq ümummilli lider Heydər Əliyevin vəfat etdiyi 2003-cü ildə bu ssenarinin ilk konturları özünü açıq şəkildə büruzə verməyə başladı. Qeyd edək ki, həmin illərdə əvvəlcə Serbiyada, sonra isə Ukrayna, Gürcüstan və Qırğızıstanda rəngli inqilablar vasitəsilə hakimiyyət çevrilişləri həyata keçirildi. 2005-ci ildə də ABŞ-ın səfiri Rino Harnişin rəhbərliyi ilə bu bədniyyətli ssenarinin Azərbaycanda reallaşdırılması istiqamətində addımlar atıldı. Mövcud müxalifətin heç bir işə qadir olmadığını özü üçün aydınlaşdıran ABŞ strateqləri hakim komandanın daxilində müxalifət formalaşdırmaqla onun radikal qruplarla əlaqəli şəkildə fəaliyyətini təmin etməyə çalışdılar. Radikal müxalifət başçılarının, konkret cinayət əməllərinə görə Azərbaycanda məsuliyyətə cəlb olunmuş və beynəlxalq axtarışa verilmiş, uzun illərdir ABŞ-da yaşayan Rəsul Quliyevin və "hakimiyyətdaxili müxalifət" olan keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyevin hakimiyyətə gətirilməsi planı da məhz ABŞ-a məxsus idi. Yalnız Azərbaycan dövlətinin qətiyyətli mövqeyi nəticəsində bu məkrli çevriliş ssenarisinin qarşısı alındı. Azərbaycan qazanan, ABŞ və onun ölkəni tələm-tələsik tərk edən səfiri Rino Harniş isə məğlub tərəf oldu. Aradan bir neçə il keçdikdən sonra hakimiyyət çevrilişləri və inqilabların yeni ssenarisi ərəb dünyasını titrətdi. Bu dəfə proses "ərəb baharı" adını aldı... Həmin dövrdə baş vermiş bəzi hadisələr "ərəb baharı"nın mexaniki şəkildə Azərbaycana köçürülməsi məqsədini güdüb. 2012-ci ilin martında Quba və 2013-cü ilin yanvarında İsmayıllıda təşkil edilmiş iğtişaşlar dünyaya "xalq üsyanları" adı altında sırındı, radikal müxalifət və "5-ci kolon" təşəbbüsü ələ almağa və prosesləri idarə etməyə çalışdılar.... Ekspertlər hesab edirlər ki, 2013-cü ilin yanvarında radikal müxalifət partiyalarının fəalları olan bir qrup başıpozuq gəncin "əsgər ölümünə etiraz" aksiyaları və "molotov kokteyli inqilabı" da Ukraynadan əvvəl Azərbaycanda sınanmış və iflasa uğramış ssenari olub.... Bu aksiyaların əsas təşkilatçısı olan ABŞ Milli Demokratiya İnstitutunun Bakı ofisinin rəhbəri Aleks Qriqorevs isə hesabından çıxardığı 2 milyon dolların hansı məqsədlərə xərcələndiyinə dair heç bir izahat verə bilməyərək, biabırçı şəkildə Azərbaycanı tərk etmək məcburiyyətində qaldı. Hesab etmək olar ki, bundan bir az sonra səfir Riçard Morninqstarın "Azadlıq" radiosuna müsahibəsində Azərbaycana "od püskürməsi" və ölkəni "inqilabla" hədələməsi məşhur bir film qəhrəmanının "nevinovataya ya" hayqıraraq öz rəhbərliyi qarşısında məsuliyyəti üzərindən atmaq cəhdi idi. Hər halda, Morninqstarı təlimatlandıranlar gərək ahıl yaşlı diplomata R.Harnişin aqibətini rəva görməyəydilər və ona şərəflə missiyasını başa çatdırıb öz ölkəsinə qayıtmasına şərait yaradaydılar. Yeri gəlmişkən, deyilənə görə, bu şəxslər indiyə kimi də işsizdirlər... Ümid edirik ki, ABŞ-ın Azərbaycana yeni təyin olunmuş səfiri Robert Sekura bu həqiqətdən və sələflərinin aqibətindən düzgün nəticə çıxaracaq...".

Görünür, bu qeyd həm də yeni səfirə "gözü çıxmış qardaşdan dərs götür" mesajıdır...

Yazıda ABŞ-ın Türkiyə-Ermənistan sərhədlərinin açılması üçün dəridən-qabıqdan çıxmaqda, bunun üçün külli miqdarda vəsait ayırmaqda da suçlanır.

**Nəhayət, məqalənin sonunda yazılır: "ABŞ Azərbaycanla münasibətləri pisləşdirmək üçün özü çoxdan bəlli prinsipləri pozub və "qırmızı xətt"ə" çox yaxınlaşıb. Bu isə ritorik bir sual üçün ciddi əsas yaradır: ABŞ-Azərbaycan münasibətlərinin gələcəyi varmı? Bu haqda düşünməyə dəyər".**

❑ **Hazırladı: T.ƏHMƏDLİ**

# Deputatın tutdurduğu komendantın istintaqı yekunlaşdı

## Həbs olunan Rövşən Hacızadənin bacısı Əsabil Qasımovun böyük vergi cinayətlərini və ondan mənzil alanları necə aldatmasına aydınlıq gətirib

**"Karat" Holdinqin faktiki sahibi, Milli Məclisin deputatı Əsabil Qasımovun tutdurduğu Rövşən Hacızadənin işi üzrə istintaq tamamlanıb. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edən, döyüşlərin birində ağır yaralanan, göstərdiyi şücaətlərə görə müxtəlif orden və medallarla təltif edilən R.Hacızadə 2003-cü ildə Ə.Qasımovun holdinqinə daxil olan "Karat MTK"-da işə düzəlib. 2013-cü ildə MTK-nın inşa etdiyi binalarda bir neçə mənzilin rəsmi sənədlər saxtalaşdırılmaqla bir neçə şəxsə satıldığı üzə çıxıb. Bu cinayətin üstü açılanda məlum olub ki, işin içində deputatın xalası oğlu Qərib Allahverdiyev, yaxın qohumları Umud Umudov, Taleh Qasımov və digərləri var.**



Amma tutulan R.Hacızadə olub. Rövşən Hacızadənin bacısı Güllü Hacızadə bir müddət əvvəl mətbuat konfransı keçirərək bildirib ki, həmin mənzillərin pulunu deputatın yaxını Qərib Allahverdiyev qumarda uduzub. Bu fakt istintaq zamanı da təsdiqini tapıb. Ə.Qasımov qohumlarının törətdikləri bu cinayətin üstünü ört-basdır etmək məqsədi ilə günahsız bir şəxsi, Rövşən Hacızadəni həbs etdirib, cinayətin onun üzərində qalmasına çalışıb.

**R.Hacızadənin bacısı Güllü Hacıyeva** istintaqın düzgün aparılmadığını deyir: "Qardaşım şirkətdə heç bir mühüm vəzifə daşımayıb. O, yalnız texniki işlərin görülməsi üçün işə qəbul edilib. Əsabil Qasımovun yaxın ətrafı qardaşımın xəstəliyindən və hüquqi savadsızlığından istifadə edilərək onu aldadıblar və saxta sənədlərdə adını yalandan "icraçı direktor", "tikintinin nümayəndəsi" kimi göstərərək imza atmağa məcbur ediblər. Törədilən bu cinayət əvvəlcədən qurulmuş plan əsasında həyata keçirilib və bu məqsədlər üçün də məhz qardaşım Rövşəndən istifadə edilib. Bu sənədlərə qardaşım tərəfindən imza atılmış olsa belə "Karat" MTK-nın sədri Umud Umudov bu halı aşkar edərək möhürlə təsdiq etməməli və onu məsuliyyətə cəlb etdirməkdən ötrü aidiyyəti orqanlara şikayət etməli idi. Lakin faktiki cinayəti özləri törətdiklərindən susublar. Qardaşım da bu oyundan xəbər tutub və işin üstünü açmağa çalışdığı zaman özünü həbs etdiblər. Əgər həqiqətən də qardaşım qeyd olunan mənzillərin satılması ilə bağlı sənədlərə səlahiyyəti olmadan imza edərək saxtalaşdırıbsa, onda "Karat MTK"-ya məxsus digər mənzillərin, Əsabil Qasımovun oğlu Taleh Qasımov, onun digər qohum və yaxın ətrafına məxsus mənzillərin sənədləşdirilməsi zamanı da məhz qardaşım imzalayıb"

**G.Hacızadə bildirib ki, deputat və ailə üzvləri qiyməti 10 milyonlarla manat olan daşınmaz əmlakları adına rəsmiləşdirilməsi və sərəncam vermək bilməsi üçün qardaşına notarial qaydada etibarnamə veriblər:** "Həmin etibarnamə bu gün də qüvvədədir. Əgər qardaşımın dələduzluq etmək məqsədi olsaydı, sadəcə həmin mənzilləri deyil, etibarnamə ilə verilmiş dəyəri 10 milyonlarla olan daşınmaz əmlakları da satardı".

**G.Hacızadə "Karat" MTK-nın fəaliyyətində külli miqdarda vergidən yayınma cinayətinin mövcud olmasını da açıqlayıb:** "Belə ki, "Karat" MTK-nın Bakı şəhərinin mərkəzində tikilən binalardakı mənzillərinin satış qiyməti 1 kvadrat metrə görə 2000-2500 manat təşkil etdiyi halda vergidən yayınmaq məqsədi ilə rəsmi sənədlərdə 150-170 manat göstərilib. Müştərilərin hər biri aldığı mənzildə 10-15 kvadrat metr aldadılır. Necə ola bilər ki, digər MTK-ların vergidən yayınma hərəkətinə operativ yanaşıb əməlləri ictimailəşdirilməklə məsuliyyətə cəlb olunduğu halda deputatın "Karat" MTK-sı məsuliyyətə cəlb edilmir? Bəs qanunun aliliyi və tərəflərin bərabərliyi prinsipi hara getdi?!"

**R.Hacızadənin vəkili Ceyhun Yusifov istintaqın yekunlaşması ilə bağlı bildirib ki, müdafiə etdiyi şəxsin bu cinayətlə ümumiyyətlə heç bir əlaqəsi olmayıb. Aparılan istintaq qərəzli xarakter daşıyıb, cinayətin açılmasına, əsl cinayətkarın müəyyən edilməsinə, cinayət işinin obyektiv və hərtərəfli araşdırılmasına deyil, əsl cinayətkarları gizlətmək məqsədi daşıyıb. Məhz günahsız bir insanın təqsirləndirilməsi istiqamətinə yönəldib:** "Lakin inanırıq ki, məhkəmə araşdırması obyektiv, ədalətli və hərtərəfli aparılacaq. Müdafiə etdiyim şəxsin təqsirsizliyi sübut olunaraq haqq-ədalət bərpa olunacaq. Təqsirli şəxslərin ədalət mühakiməsi qarşısına çıxarılması gec də olsa təmin ediləcək".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014

# Məhəmməd Hatəmidən "Yeni Müsavat"a ilginc açıqlamalar

# "Nemət Pənahlı öz səhvlərinin qurbanı oldu"

## "Rübabə Muradova ilə bir yerdə bu taya keçdik"

**"Bura çox jurnalist gəlir, ancaq mən qəbul etmirəm, intervü də vermirəm. Elə bir müddət bundan əvvəl biri gəlmişdi, təkidlə müsahibə istəyirdi ki, "tanınarsan". Dedim əşi, mənim haqqımda yarım ton yazı yazılıb, ehtiyac yoxdur. Amma daha sən başqasan da..."**



Bunu deyib gülür həmsöhbətim. Baş yazarımız Rauf Arifoğlunun təklifindən sonra **milli-azadlıq hərəkatının liderlərindən biri Məhəmməd Hatəmi Tantəkini** ziyarət etdim. Sonuncu dəfə Sabunçudakı xəstəxanada, Pənah Hüseynlə birgə onun ziyarətində olmuş, şəfa diləmişdik. Bu dəfə sadə, kasıb odasında onunla görüşdüm tariximizin böyük bir parçasını özündə, sözündə, yaddaşında, baxışlarında yaşadan bu canlı əfsanə ilə. Hal-əhvaldan sonra gülərək dedi ki, onu ilk dəfə bu ilin yayında, 79 yaşının tamamında professor Nəsib Nəsibli GünAzTV-yə dəvət edib, geniş proqrama çəkilib. Elə proqramın videoyazısına da bir az baxdıq. Nəsib bəyin bir təqdimatından xüsusilə xoşu gəlib. Sonra özü də təkrarlayır: "Milli hərəkatı mininin adına çıxırlar, ancaq milli-azadlıq hərəkatının rəhbəri Məhəmməd Hatəmi idi".

Və köksündə təbrizli, ərdəbilli, pişəvərili günlərin acılı-şirinli xatirələrini daşıyan bu nəhəng sima ilə söhbətimiz davam edir. Xatirələrini bölüşür:

"Ulu nənəm Tükəz buranın Biləsuvarından Güney Astarasının Kala kəndinə gəlin aparılıb. Onun 11 qızı olub. O qızlardan biri mənim anamın anasıdır. Yəni kökümün biri bu taydandır. O zaman talış xanlarından biri nənəmin qızlarından birini istəyib, ancaq o, verməyib. Xanın adamları nənəmi elə atın üstündə güllə ilə vurub öldürüb. Həmin talış xanının güllələnməsi prosesində mənim atam iştirak edib".

***

Yaşı 80-ni haqlayan Məhəmməd bəyin bu yaxınlarda 69 illiyi tamamlanan Azərbaycan Demokratik Firqəsi ilə bağlı baş verənlərdən dünən olubmuş kimi danışması da adamda heyrət doğurur: "21 Azərdə (12 dekabr 1945) hökumətin qurulması mənim yadımdadır. Heç Pişəvəri hökumətə rəhbər olmaq istəmirdi, onu məcbur etdilər. O da 20-ci illərdə milli hərəkata görə bir dəfə tutulmuşdu. Atam Fərzulla kişi də hərəkatın iştirakçısı idi. Əmim də hökumətdə işləyirdi, atama da onun təsiri böyük olmuşdu. Atam Azərbaycan Demokratik Firqəsi hökumətində qoşun başçısı idi. Baş leytenant rütbəsindəydi. Atam bir nəfəri namus üstündə vurub öldürmüşdü, Ərdəbildə 6 ay yatandan sonra azad edildi. Qayıdandan sonra onu fədai başçısı kimi cəbhəyə göndərdilər, qoşun ona tabe idi. Allah rəhmət eləsin, Şeyxi vardı, ərdəbilliydi, onu qoşun başından çıxarıb atamı qoydular. Pişəvəri hərəkatının süqutundan sonra onu Ərdəbildə qətlə yetirdilər. Atam savadsız olsa da, çox zirək adam idi. 1946-cı ildə Pişəvəri hökuməti süquta yetiriləndən sonra İran qoşunu gəlib Astaranı tutmamışdan qabaq atam anamı, bacımı, məni, Huşəng adlı qardaşım vardı-sonra Şamaxıda öldü-onu götürüb bu taya keçdi. Hətta anamı bura gətirmək istəmirdi. Qərar beləydi ki, kişilər getsin, qadınlar qalsın. Gecə anam özünü boğub öldürmək istəmişdi ki, məni qoyub hara gedirsən? Sonra atam fikrini dəyişdi. Ata-anam elə burda dünyasını dəyişdi, qəbirləri yaxındadır". (Ardınca durub rəfdən yazdığı kitabı gətirib səhifələyir və ata-anasının fotolarını göstərir-E.P.)

**M.Hatəmi bu gün Güney Azərbaycanda milli hərəkatın çox güclü olduğunu düşünür:** "Özü də orda milli ruh güclüdür. İntəhası xaricdən kömək yoxdur. Nə Amerika, nə Avropa, nə Türkiyədən kömək var. Bizdən də heç kömək yoxdur. Çünki Güneydə azərbaycanlıların sayı çoxdur. Güneyi burdakı "yuxarıdakılar" özləri üçün xəta kimi görür. Ancaq Cənubi Azərbaycana xaricdən kömək olsa, vəziyyət dəyişər".



## "174 manat pensiya alıram, bununla ancaq acından ölməmək olar"

***

**Sovet Azərbaycanından Təbrizə gedən qoşunu gördüyünü də xatırlayır:** "Burdan artistlər, rəqqaslar da gəlmişdilər. Rübabə (Muradova-E.P.) ilə bir yerdə bu taya keçdik. Onda Rübabə arıq, cavan bir qız idi, Xəlil adlı bir oğlanın nişanlısıydı. Biz sovet Astarasında məktəbin siniflərində qalırdıq".

***

2015-ci ilin 22 iyulunda 80 yaşının tamam olacağını xatırladıb yubileyini necə keçirtmək istədiyi barədə soruşuram. Gülür:

"Vallah necə ki, Azərbaycanın bütün görkəmli adamlarının yubileyini keçirirlər, rayonlarda, Bakıda, hətta xaricdə qeyd edirlər...Ancaq bunu mənim üçün etməzlər bəy. Hakimiyyətin mənə münasibəti yaxşı olsaydı sözümü də deyərdim, məsləhətimi də verərdim. Görürsünüz, Türkiyəni quran Atatürkün nə qədər düşməni var, amma yenə onu sıradan çıxara bilmirlər, yenə Atatürk olaraq qalır. İndi mənim haqqımda nə edirlər-etsinlər, xeyri yoxdur. Kim deyə bilər ki, Hatəmi "Çənlibel"i yaratmayıb? Kim deyə bilər ki, 1987-88-ci ildə milli hərəkatı Hatəmi yox, başqası başladıb? Bəxtiyar Tuncay kimdir ki? Siz onu qəzetdə hərəkatın lideri kimi təqdim edibsiniz. Bəxtiyar mənim uşaqlarımdam biriydi. O, "Çənlibel"dən niyə danışır ki? Mən Bəxtiyar Tuncayı "Çənlibel"dən çıxartmışam.

Onlar Vurğun Əyyubu sədrlikdən uzaqlaşdırmaq istəyirdilər. Mən ona da, onun jurnalist dostuna da mane oldum, hər ikisi çıxıb getdi, ayrıca "Oğuz" Cəmiyyətini yaratdılar. Sonra Vurğunu da çıxartdım, çünki ondan şübhələnmişdim. Mən onun yerinə bir artist vardı, onu sədr qoyan kimi "KQB" onu Sumqayıta göndərdi, iş verdilər".

"Siz özünüzdən başqa hamını ittiham edir, "KQB"-yə bağlayırsınız Məhəmməd bəy " replikamıza isə belə cavab verdi: "Bəy, bir nəfər göstər ki, milli-azadlıq hərəkatının bayrağını daşıyıb. (Ardınca konkret şəxslərin "KQB"yə "bağlı olduğu" barədə əminliklə danışır-E.P.) Nə qədər ki, milli hərəkata, xalqa bağlı bir insan ortaya çıxmayıb, heç nə olmayacaq. Mən Milli Qurtuluş Partiyasını da ləğv elədim, verdim cavanlara, onlardan da səs-səmir çıxmadı".

Sonra keçdik konkret sual-cavaba.

***– Bu gün sizi yad edən, ziyarətinizə gələn varmı, yoxsa unudulubsunuz?***

- Var. Məni elə onlar saxlayır. 174 manat pensiya alıram, bununla ancaq acından ölməmək olar. Amma mənə dəstək olanlar var.

***– Çox qəribədir ki, bu gün həm Rusiyanın çöküşündən danışılır, həm də yeni SSRİ-nin yaranacağından. Siz nə gözləyirsiniz?***

- Heç vaxt yaranmayacaq. Bir şərtlə ki, bizim yuxarıda oturanlarımız Moskvaya satılmasa... Rusiyada vəziyyət çox pisdir. Ukrayna hadisələri Kremlə yeni bir zərbə oldu. Rusiyanı hələ illər öncə dağıda bilərdilər. O zaman buna imkan da var idi. Ancaq dağıtmadılar. Buna da Avropa peşman olub. Bu gün rus rublu bərbad haldadır. Valyutası yoxdur ki, nəsə alsın. Qaz verir, Türkiyədən nəsə alır.

***– Vəfa Quluzadə daim Rusiyanın dağılacağını deyirdi, bunu gülüşlə qarşılayırdılar...***

- Mən Vəfa Quluzadəyə inanıram. Artıq neçənci dəfədir ki, düz proqnozlar verir. Şəxsi tanışlığım yoxdur, amma Şərqşünaslıq İnstitutunda birgə işləmişik.

****

"Dünya Azərbaycanlılarının Həmrəylik Günü ideyası Heydər Əliyevə məxsus idi. 31 dekabr gününü seçməklə həm azərbaycanlıların bayram etməsini istədi, həm də 1 yanvarda rus Yeni ili qeyd etdiyi üçün əks-reaksiyanın olmayacağını düşünmüşdü. Ancaq daha yaxşı olardı ki, dünya azərbaycanlıların həmrəyliyi günü Pişəvəri hökumətinin qurulduğu və süqut etdiyi 12 dekabr - 21 Azər günü olaydı".

Bu zaman Məhəmməd bəyin qız nəvəsi otağa daxil olur, şirin dillə babası haqda danışır. Sonra sözümü yerə salmayıb fotolarımızı çəkir. Ardınca "bir dəfə də babamı çəkim" deyir. Məhəmməd bəy də balacanı bağrına basıb "mənim qəşəng nəvəmdir" deyir.

****

Məqam düşmüşkən, milli azadlıq hərəkatı və sərhəd hərəkatının aparıcı simalarından biri olan Nemət Pənahlıdan, onun həbsindən soruşuram. Məni təəccübləndirən cavab eşidirəm: "Mən onun həbsinə acımıram. Məni sıradan çıxarıb Neməti yerimə keçirtdilər. Sonra Əbülfəzi, Etibarı ortaya çıxartdılar. Neməti ilə mənim yanımda milis işçiləri qəhrəman elədilər, elə tribunada. Nemət Pənahlı öz səhvlərinin qurbanı oldu".

***

ABŞ-Azərbaycan münasibətlərində gərginliyin olduğu barədə fikirləri isə bölüşmür. Hesab edir ki, bütün bunlar məsələnin görünən tərəfidir: "Amerika ilə gərginliyə getmək olar? Rusiya, Çin, İran, Türkiyə ABŞ-la baş-başa gələ bilmir, o ki qaldı Azərbaycan. Gör ərəb ölkələri nə günə qaldı..."

M.Hatəmi ölkədə iqtidar-müxalifət münasibətlərinin normallaşmasını gözləmir. "Münasibətlərdə normallaşma o zaman olar ki, iqtidara satılasan"-deyir.

## "İstərdim ki, mənim xalqım heç vaxt ruhdan düşməsin, həmişə nikbin, mübariz ruhda olsun"

***

**Söhbət 1990-cı ilin qanlı yanvar hadisələrinin 25 illiyindən düşür. Lefortovalı günlərini xatırlayır:** "Çox istərdim ki, Qorbaçovun cəzalandırılmasını görüm. Bizdən nə qədər adam qırdılar... Yaxşı ki, camaatımız şəhidləri unutmur. Çoxdandır xiyabana gedə bilmirəm. Amma həmin günü qəhrəmanlıq günü kimi qeyd etmək, şəhidləri yaşatmaq lazımdır. Xalq imperiyaya qarşı mübarizədə ölümə gedib. Bir çoxları çalışır ki, həmin günü yas kimi qələmə versin. Elə şey yoxdur, nə yas? Həmin gün qəhrəmanlıq günü kimi tariximizə salınmalıdır. Mən onda Lefortova zindanında 9 ay yatdım. Mən idim, Xəlil Rza, bir də başqa birisi vardı. Etibarla Rəhim Qazıyevin də işlərini Moskvada mənə qoşmaq istəyirdilər, etiraz etdim. Çünki mən onlara inanmırdım. Sonra da Şuşa, Laçın məsələsi oldu...Qarabağda qələbə qazanmaq üçün öncə Rusiyaya qalib gəlmək lazımdır. Bir vaxtlar Avropa, Amerika, Rusiyanın Azərbaycan neftinə ehtiyacı var idi. Onda niyə demədilər ki, erməninin ipini çəkin, biz də sizə neftimizi sataq? Onda nefti elə-belə satdılar. Əvvəl Rusiyaya satırdılar, sonra bütün dünyaya".

Dünya görmüş ağsaqqalın sonda "Yeni Müsavat" vasitəsilə xalqa ünvanlı arzu-istəyini bilmək istədim. "İstərdim ki, mənim xalqım heç vaxt ruhdan düşməsin, həmişə nikbin, mübariz ruhda olsun. Güney Azərbaycanın ayaqda olması üçün var gücümüzlə çalışmalıyıq ki, Pişəvəri dövründəki kimi milli dövlətimiz yaransın. Sonra da ki, imkan olsa, Azərbaycanın quzeyi ilə birləşməsi məsələsini gündəmə gətirmək olar".

Beləcə, Bütöv Azərbaycan arzusu ürəyində yaşayan canlı əfsanə ilə söhbətimizi tamamlayıram. Gəlməyə duranda rahatsız olmasına razı olmasam da, qapıya qədər özü ötürür. Sağollaşanda isə "Rauf Şenola salam de" söyləməyi də unutmur...

**Düşünürəm, amma nə gözəl olar Məhəmməd Hatəminin 80 illik yubileyi dövlət səviyyəsində qeyd olunsa...**

❑ Elşad PAŞASOY
FOTO: "YM"

YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014



# AXCP-nin "Gənc qvardiya"sının psixoloji terroru

Xalid KAZIMLI

**Bunun adı psixoloji terrordur. 10-15 il öncə onlar bunu sərəncamlarında olan qəzetlərdə edirdilər. İndi sosial şəbəkələrə keçiblər. Artıq o qəzetlər yoxdur, hamısı bağlanıb, yalnız biri qalıb. 15 il əvvəl isə çox idilər. Hamısı da demək olar ki, eyni şeyi yazırdılar.**

Tez-tez olurdu ki, o qəzetlər yuxarıdan komanda alır, hakimiyyətin və öz mürşidlərinin rəqiblərinin üzərinə hücuma keçir, onları nələrdəsə "ifşa" edirdilər.

Onların, o qəzetlərin heç birinin tirajı çox deyildi. Hətta eləsi vardı ki, müstəqil olduğu vaxt yığdığı 30 minlik tirajını sırf AXCP-yə siyasi dəstək verəndən sonra sürətlə itirmişdi.

Amma çox idilər və rəqiblərə hücum zamanı "urra-urra" xoru yarada bilirdilər. "Afərin, Əli Kərimli" manşeti ilə çıxanları vardı. Mərhum Elçibəyi ömrünün son aylarında, son günlərində, hətta son saatlarında belə təhqir edənlər də oldu.

O zaman bu qara-qışqırıqdan çəkinənlər, özlərini onların hədəfinə çıxarmaq istəməyənlər çox idi. Mediada, ictimaiyyət arasında "yurdçular" adı altında tanınan qrupun əsdirdiyi psixoloji terror bir müddət beləcə davam etdi.

2003-cü ildən sonra isə bu güruhun media - holdinqi iflasa uğradı. İqtidardan gələn pullar kəsildi, başını öz hesabına saxlamaq istəyən qəzetlər zəiflədi, beləliklə, AXCP-nin inhisarında olan qəzetlər bir-birinin ardınca bağlandı, sıradan çıxdı.

O vaxtkı "terrorçu"ların tam əksəriyyəti ora-bura dağıldılar, iqtidar düşərgəsinə keçərək, özlərinə karyera quranlar, QHT sektoruna adlayaraq siyasətdən, AXCP-dən uzaqlaşanlar, mühacirətə gedənlər, aktiv siyasətdən tamamilə çəkilənlər oldu.

Bir sözlə, siyasi arenada psixoloji terror tətbiq edənlərin köhnə qvardiyası tamamilə dağılıb getdi.

İndi ortada yeni qvardiya var - gənc qvardiya. Bunların əlində qəzet yoxdur. İndi qəzet işlətmək bahalı işdir, ən uzağı birini saxlamaq, işlətmək olar. Əvəzində sosial şəbəkə deyilən bir şey var. Burada hər adam bir qəzetdir.

Hazırda ölkənin siyasi arenasında psixoloji terrordan istifadə edənlərin yeni kontingenti var. Onlar mütəşəkkildirlər, şəbəkədirlər, bir mərkəzdən idarə olunurlar və yenə də rəqib hesab etdikləri şəxslərin üzərinə kütləvi hücuma keçirlər.

Kim onlara qarşıdır, kim onların liderini tənqid edir, kim onlara rəqibdir - anındaca düşmən elan olunur və hücum başlayır.

Bu cür kütləvi hücuma məruz qalmamaq üçün bir çoxları susur, çalışır ki, özünü "gənc qvardiya"nın hədəfinə çıxarmasın. Abrına qısılaraq susan, bəzi məqamlarda geri çəkilən şəxslərin sırasında siyasətçilər, ictimai xadimlər, ziyalılar da var.

Hamı yazıçı Əli Əkbər deyil ki, söyülməkdən, təhqir olunmaqdan çəkinməyə və sözünü həmişə qızıl-qırmızı deyə və yeri gələndə daha sərt cavablar verə. Çox adam abrına qısılmağı üstün tutur.

İndilikdə AXCP-nin gənc üzvlərinin yeritdiyi bu taktika indilikdə işə yarayır. Ancaq olur ki, daş qayaya rast gəlir.

Bu cür, psioxoloji terrorla üstünlük qazanmaq istəyənlərin, hamını susduraraq öz böyüklüklərini göstərməyə çalışanların ən güclü tərəfləri xor təşkil edə bilmələridirsə, zəif tərəfləri də "iqnor"a məruz qalmalarıdır.

Sosial şəbəkə istifadəçilərinə hamıdan çox "dostluq" təklifləri göndərən bu sekta hamıdan çox da "dostluq"dan qovulanlardır. Onlarla mübarizənin ən effektiv üsulu sosial şəbəkəni sırf partiya təbliğatı tribunasına çevirənləri "dostluğa" qəbul etməmək və ya onları "dostluq"dan çıxarmaqdır.

Belə olanda yalnız bir-birini yazdıqlarını oxuyacaq, özləri deyib, özləri eşidəcəklər. Zatən, proses ona doğru gedir. Artıq hər mövzunu mütləq siyasiləşdirən, öz liderlərini tərifləyib göyə qaldıran, onun rəqiblərini yerin dibinə soxan, sosial şəbəkədə psixoloji terror mühiti yaradan adamların yazdıqları çoxlarına xoş deyil.

**Yazının əvvəlində "terrorçular"ın köhnə qvardiyasından bəhs etdik, indi onlar yoxdurlar, amma psixoloji terror mühiti və "gənc qvardiya"çılar var. Belədirsə, bu "siyasət"in haradan, kimdən qaynaqlandığını təxmin etmək çətin deyil.**

**Sosial şəbəkədə "Yeni Müsavat" qəzetinin baş redaktoruna qarşı həyata keçirilən mənəvi terror və tərbiyəsizlik cəmiyyət tərəfindən pislənilir. Bir sıra tanınmış ictimai-siyasi xadimlər eyni zamanda AXCP sədri Əli Kərimliyə və "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğluya müraciət edərək münaqişəni durdurmağa çağırıblar.**

# Arif Hacılının barış müraciətinə cəbhəçilərdən aqressiya

## Müsavat başqanı basqılara baxmayaraq, bu istiqamətdə fəaliyyətini davam etdirəcəyini bəyan elədi

Bu sırada Müsavat Partiyasının başqanı Arif Hacılının dekabrın 18-də yaydığı müraciət xüsusi diqqət çəkir. Ə.Kərimliyə yaxın şəxslər isə barışa çağıranı belə dərhal hədəfə götürüblər, A.Hacılının ünvanına olmazın fikirlər yazıb. Belə görünür ki, bu adamlar onların tərbiyəsizliyinə şərik olmayan, sülhə çağıran hər kəsi bir anın içində təhqir eləməyə hazırdırlar. Dayanmadan A.Hacılının facebook səhifəsinə yazır, onun barışa çağırış məzmunlu müraciətini pisləyir və mövqeyini dəyişməsini tələb edirlər. Eyni zamanda A.Hacılıdan öz partiyasının daxili işləri ilə məşğul olmağı tələb edirlər. Bu isə əslində R. Arifoğluya qarşı həyata keçirilən mənəvi terror kampaniyasının AXCP-nin daxili siyasəti olmasının etirafıdır. Onu da qeyd edək ki, bu cür kampaniya "Yeni Müsavat" qəzetinin dəstəyinə deyilmiş hər bir sözün müəlliflərinə qarşı aparılmaqdadır. Barış çağırışlarının isə təhqirlə cavablandırılması xüsusilə heyrət yaradır.

**Müsavat başqanı Arif Hacılı** ilə əlaqə saxlayıb müraciətinə cəbhəçilərin bu cür reaksiyasına münasibətini necə olduğunu soruşduq. A. Hacılı bildirdi ki, hər hansı reaksiyaya və basqılara baxmayaraq, barış mühiti yaranması istiqamətində fəaliyyətini davam etdirəcək: "Ölkədə elə vəziyyət yaradılıb ki, bu vəziyyət müxa-



Arif Hacılı

lifət qüvvələri arasında barış mühitini yaranmasını, qarşılıqlı ittihamların aradan qalxmasını zəruri edir. Barışıq mühiti yaranması vacibdir. Üzərimə olan basqılara baxmayaraq, bu istiqamətdə fəaliyyətimi davam etdirəcəyəm".

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu** isə musavat.com-a deyib ki, bir dəstə siyasi avara sosial şəbəkədə məskən qurub və burada 24 saatlıq rejimlə, növbə çəkirlər. Və onlar "Yeni Müsavat"la, onun baş redaktoru ilə bağlı aqressiv kampaniya aparırlar, qəzeti dəstəkləyən insanları abırdan salırlar: "Onlara baş qoşmağa vaxtımız yoxdur. Lakin hərdən cavab veririk. Bir dəstə AXCP üzvü onlar kimi düşünməyən və liderlərinə biət etməyən hər kəsi mənəvi terror edir. Biz təsbit etmişik ki, AXCP sədri özü də psevdonimlə, saxta profillə yazışmalarda fəal iştirak edir, söyüş söyür, aranı qızışdırır. Mən bütün bu işləri və sifətləri ona yaraşdırıram. Davam etsin, bu yolda onu böyük gələcək gözləyir".

❑ E.SEYİDAĞA

# Qubad İbadoğlu da Rauf Arifoğluya dəstək verdi

## Cəbhəçilər isə iqtisadçı alimə hücum etdilər

**Müsavat Partiyasının başqanlığına sabiq namizəd, iqtisadçı alim Qubad İbadoğlu sosial şəbəkədə "Yeni Müsavat" qəzetinin baş redaktoruna qarşı həyata keçirilən mənəvi terroru və tərbiyəsizliyi pisləyib. Belə ki, AXCP sədri Əli Kərimlinin əmisi oğlu İnqilab Kərimovun baş redaktorun özünü və valideynlərini təhqir etməsi ölkədə siyasətlə maraqlanan bütün vicdanlı kəsimi qəzəbləndirdiyi kimi, Qubad İbadoğlunu da hiddətləndirib. O, özünün fikirlərini facebook səhifəsində bu cür ifadə edib: "Rauf Arifoğluya qarşı sosial şəbəkələrdə yerləşdirilmiş iyrənc kollaj mənəvi-əxlaqı dəyərlərimizin hansı səviyyədə aşınmasının göstəricisidir. Bu vasitələrdən istifadə edərək opponentini gözdən salmağa hətta cəhd etmək belə tərbiyəsizlikdir. Odur ki, yalnız onu hazırlayıb sosial şəbəkələrdə yerləşdirəni deyil, ona rəvac verən, onu sifariş edənləri ciddi şəkildə qınayıram və onlara müraciət edərək belə çirkin vasitələrlə mübarizə aparmağı dayandırmağa çağırıram".**



Qubad İbadoğlu

Ölkənin tanınmış ictimai xadiminin tamamilə korrekt, ölçülü biçili, hətta ad çəkmədən yayınladığı bu status AXCP sədri Əli Kərimlinin ən yaxın adamlarını dəliyə döndərib. Onlar dayanmadan Qubad İbadoğlunun Facebook səhifəsinə yazır, onun hərəkətini pisləyir və mövqeyini dəyişməsini tələb edirlər.

**Bu cür kampaniya "Yeni Müsavat" qəzetinin dəstəyinə deyilmiş hər bir sözün müəlliflərinə qarşı aparılmaqdadır.**

❑ E.SEYİDAĞA

# Müsavatın növbəti mitinqi nə vaxt olacaq?

## Səxavət Soltanlı: "İş planımızda bu məsələni xüsusi diqqətdə saxlayırıq"

**Müsavat Partiyası 14 dekabrda "Siyasi məhbuslara azadlıq!" şüarı ilə mitinq keçirdi. Mitinqin gözdən salınması istiqamətində bəzi qüvvələrin təbliğatı dayanmır. Bəs belə bir vəziyyət Müsavat Partiyasının növbəti mitinq təyin etməsinə mane ola bilərmi? Müsavatın yaxın vaxtlarda növbəti mitinq keçirməsi gözlənilirmi? Partiyada mitinq müzakirəsi aparılırmı?**

Müsavat başqanının müavini, 14 dekabr mitinqinin aparıcısı Səxavət Soltanlı bildirdi ki, 2014-cü il başa çatmaq üzrədir və bu il mitinq gözlənilmir: "Gələn ilin əvvəlində isə ola bilər ki, mitinq keçirməyə zərurət yaransın. Mitinq və digər kütləvi tədbirlər mübarizənin bir elementi kimi hər zaman gündəmdədir, o üzdən də kütləvi tədbirlər məsələsini hər zaman müzakirə edirik. Biz fəaliyyətimizdə, müzakirələrimizdə kompleks olaraq görüləsi işləri müzakirə edirik, bunlardan biri də mitinq və kütləvi tədbirlərdir. İş planımızda bu məsələni xüsusi diqqətdə saxlayırıq.

Əslində ölkəmizdə olan problemlər mitinqdən başqa hansısa vasitələr üçün imkan saxlamayıb. Problem həddindən artıq çoxdur, hər gün mitinq keçirib etiraz ediləsi məsələlər var. Biz qarşıdan gələn ildə bu məsələni yenidən mü-



Səxavət Soltanlı

zakirə edib lazımi addımları atacağıq".

**S.Soltanlı Müsavatın 14 dekabr mitinqinin əhəmiyyətini aşağı salmaq cəhdlərinə də münasibət bildirdi: "Müsavat Partiyası Gənclər Təşkilatına seçki keçirir başqa təşkilatlar və insanlar müzakirə edirlər. Qurultay keçiririk, başqa təşkilatlar və insanlar müzakirə edirlər. Mitinq keçiririk başqa təşkilatlar və insanlar müzakirə edirlər. Narahat deyilik, davam etsinlər.**

**Bəlkə biriləri ona görə təşkilatdırlar ki, Müsavatı müzakirə etsinlər. Həqiqətənmi işləri-gücləri yoxdur beləlırinin? Həqiqətənmi bu ölkədə problem yoxdur, yoxsa problemləri görməzdən gəlirlər? Başqalarını müzakirə etmək əvəzinə çalışıb təmsil etdikləri təşkilatlarda elə işlər görsünlər ki, başqaları da onları müzakirə etsin. Məsələn, Gizli səsvermə tətbiq etsinlər, alternativ namizədlərlə partiya strukturlarına seçkilər keçirsinlər, daxili demokratiyanı bərpa etsinlər, bir şəxsin ardıcıl iki dəfədən çox namizəd olmasına qadağa qoysunlar. Namizədlərin iradəsi ilə seçki komissiyaları formalaşdırsınlar, insan haqları və demokratiyanı müdafiə etsinlər. Daha adlarını demokrat qoyub, insan haqlarını müdafiə məqsədilə atılan addımları aşağılamasınlar".**

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014

# Ümid Partiyası bələdiyyə seçkilərində iştirak edəcək namizədlərin daha bir qismini ictimaiyyətə təqdim edir



*Ümid Partiyasının Xətai Bələdiyyəsinə namizədi Əliyev Bəybala Əşrəf oğlu*

*Əliyev Bəybala Əşrəf oğlu 1964-cü ildə Cəlilabad rayonunda doğulub.*

*Ali təhsillidir. Yüngül Sənaye İnstitutunun Kimyaçı-Texnoloq fakültəsini bitirib.*

*1985-ci ildə H.Z. Tağıyev adına Toxucu-Tikiş İstehsalat Birliyində əmək fəaliyyətinə başlayıb.*

*1990-1995-ci illərdə Xəta rayonunun deputatı olub.*

*1991-1997-ci illərdə müxtəlif vaxtlarda H.Z. Tağıyev adına Kombinatda sex rəisi və növbə rəisi vəzifələrində işləyib.*

*1997-ci ildə H.Z. Tağıyev adına Toxucu-Tikiş İstehsalat Birliyinin Həmkarlar İttifaqı Komitəsinin sədri seçilib.*

*2006-cı ildən Ümid Partiyası Xətai rayon təşkilatının sədridir.*

*2007-ci ildə Ümid Partiyası sədrinin köməkçisi, 2009-cu ildən etibarən Azərbaycan Milli məclisin deputatı İqbal Ağazadənin köməkçisi vəzifəsində işləyir.*

*Ailəlidir, üç övladı var.*



*Ümid Partiyasının Səbail Bələdiyyəsinə namizədi Hüseynova Səidə Bahadur qızı*

*13 noyabr 1969-cu ildə Şəmkir şəhərində müəllim ailəsində anadan olub.*

*Ali təhsillidir. 1992-ci İldə Bakı Yerli Sənaye Texnoloji Texnikumunun "Kargüzarlığın təşkilatçısı və Arxivşünas" fakültəsini, 1999-cu ildə Dağıstan Beynəlxalq İdarəetmə Biznes və Hüquq İnstitutunun hüquq fakültəsini bitirib.*

*"Media və Təhsil İnnovasiyaları Mərkəzi" İctimai Birliyinin rəhbəridir.*

*Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Media və Təhsil İnnovasiyaları" jurnalının təsisçisi və redaktorudur. Uzun illər parlament müxbiri olub.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondunun, Azərbaycan Mətbuat Şurasının, müxtəlif dövlət qurumlarının keçirdiyi fərdi jurnalist yazı müsabiqələrinin qalibidir.*

*Hazırda Ümid Partiyası Qadınlar Təşkilatının sədridir.*



*Ümid Partiyasının Mehdiabad Bələdiyyəsinə namizədi Əliyeva İlhamə Əziz qızı*

*Əliyeva İlhamə Əziz qızı 1971-ci ildə Ağdam rayonunda anadan olub.*

*1988-ci ildə Ağdam 3 saylı orta məktəbin məzunu olub.*

*Ağdam Tibb Kollecini bitirib.*

*Uzun müddət Ağdam rayon Xəstəxanasında tibb bacısı işləyib.*

*Hazırda Xocasən Sağlamlıq Mərkəzində işləyir.*



*Ümid Partiyasının Xətai bələdiyyəsinə namizədi SULTANLI FİZULİ ƏBİLFƏZ oğlu*

*1959-cu ildə Saatlı rayonunda anadan olub.*

*1982-94-cü illərdə Bakı şəhər İcra hakimiyyətinin "Bərpaçı" Baş İdarəsində iş icraçısı, baş mühəndis, idarə rəisi və trest müdiri vəzifələrində işləyib.*

*1986-cı ildən 130 saylı Mənzil-Tikinti Kooperativinin sədridir.*

*Ailəlidir, iki övladı var.*

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**





## Ümid Partiyasında müşahidəçi olacaq gənclərlə görüş keçirilib

**Ümid Partiyasında bələdiyyə seçkilərində müşahidəçi qismində iştirak edəcək gənclərlə görüş keçirilib. Gender Bərabərliyi şöbəsinin müdiri Həcər Abbaslı görüşün gənclərin bələdiyyə seçkilərində aktiv iştiraklarının təmin olunması üçün keçirildiyini bildirib.**

H. Abbaslı deyib ki, tədbirdə Gənclərə Azərbaycan Respublikasında seçkilərin əsas prinsipləri, seçkilər haqqında qanunvericilik, Seçki Məcəlləsi, Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər və vətəndaşların hüquqları, səsvermə qaydaları, seçki komissiyaları, seçici siyahıları və səsvermə sənədləri, seçki məntəqəsində səslərin hesablanması, müşahidəçilik institutu, seçki qanunvericiliyini pozmağa görə məsuliyyət, seçkilərin nəticələri, protokolların tərtibatı haqqında qısa məlumat verilib.

Gənclərin seçki proseduru ilə bağlı maarifləndirilməsi, informasiya çatışmazlığının aradan qaldırılması, gənclərin seçkilərdə aktiv iştirakı, vətəndaş cəmiyyətinin, ümumilikdə demokratiyanın inkişafına töhfə verilməsi istiqamətində müvafiq tədbirlər davam etdiriləcək.



*Ümid Partiyasının Keşlə Bələdiyyəsinə namizədi İbadova Günel Mahmud qızı*

*İbadova Günel Mahmud qızı 9 iyun 1981-ci ildə Bakıda anadan olub. Nizami rayonu, Keşlə qəsəbəsində yerləşən 201 saylı orta məktəbin məzunudur.*

*2002-ci ildə "Odlar Yurdu" Universitetinin hüquq fakültəsini bitirib.*

*2010-cu ildən etibarən İbadovanın Günel Xəzəl təxəllüsü ilə dövri mətbuatda ədəbi və sosial mövzularda yazıları dərc olunur.*

*"Şakti - qadın dili" hekayələr toplusundan ibarət kitabın müəlliflərindəndir.*

*Ümid Partiyasının Sosial və humanitar məsələlər üzrə şöbə müdiri,*

*"125-lər" Siyasi Klubunun üzvüdür.*

*FactNews.az siyasi ictimai saytının rəhbəridir.*

YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014



# Bazel yalançısı

Zamin HACI
zaminhaci@gmail.com

**Yəqin hörmətli oxucuların yadında olar, hardasa 10 gün qabaq mən Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin İsveçrənin Bazel şəhərində görüşü haqda yazmışdım. Qeyd etmişdim ki, bu görüş bəşəriyyət tarixində ilk dəfədir. İlk dəfədir bizim nazirlər (nə fərqi, Ərmənistan da bizim torpaqdır) Bazeldə görüşürlər, indiyə qədər heç vaxt Bazeldə görüşməyiblər. Bunun özü Qarabağ münaqişəsinin həllində irəliyə doğru çox uzun bir addım idi. Hətta mən indiyə qədər nazirlərimizin görüşmədiyi şəhərlərin əlifba sırasını da çıxardıb yazdım, misal üçün, Məmmədyarov və Vartanyanın Kolumbiyanın Barrankabermexa şəhərində görüşmədiklərini göstərdim. Halbuki, bəlkə orda görüşsələr dava yatardı.**

İndi bunu niyə yada salıram? Araya bəzi jurnalistlərin həbsi, neftin qiymətinin tərsi, hökumətimizin doymayan nəfsi tipli mövzular düşdü, mən Bazel görüşünə diqqət yetirmədim. Sən demə, görüş heç olmayıbdır! Dəhşətdir. Düzü, mən bu halda ATƏT Minsk qrupunun amerikalı həmsədri Ceyms Uorlik müəllimin yalançısı oldum, çünki Məmmədyarovla Bostanyanın Bazeldə görüşəcəyini mənə Uorlik xəbər vermişdi. Deyən gərək, dəqiq məlumatın yoxdursa milləti niyə umsuq edirsən, ay Sem dayının belindən gələn filan-filan olmuşun balası? (Bu saat cənab prezident Amerikanı, amerikalıları söyənlərə qəşəng mükafatlar verir, dedim qabağa düşüm).

Beləcə, Uorlikin yalanına görə münaqişə tənzimlənmədi. Qaçqınlarımız isə çox qəzəbləndilər. Örnək üçün, kəlbəcərli qaçqınları göstərə bilərəm. Onlar Gəncə-Murov-Kəlbəcər avtomobil yolunun üstündə durub gözləyirdilər ki, Bazel görüşü bitsin, torpaqlarına dönsünlər. Ta görüş olmayanda kəlbəcərlilər hirsləndilər, tutub orda bir icra başçısını qapazaltı elədilər.

Mən də türk satiriki Əziz Nesinin bir hekayəsinin qəhrəmanına bənzədim. Həmin hekayə jurnalistin qəzeti bağlatdırmasından bəhs eləyirdi. Bir gün bu jurnalistə polis naziri ilə intervü tapşırılır, təsadüfən bu, həmin gün məşhur quldurdan da intervü alır. Müsahibələrin sual-cavablarını qarışdırır, nəticədə qəzetdə polis naziri ilə intervünün birinci sualı belə olur: "Siz ilk cinayəti törədəndə neçə yaşınız var idi?". Quldurla intervü isə belə başlayır: "Ölkəmizdə ictimai asayişi qorumaq üçün nə edirsiniz?" Ardını da bu yöndə təxmin eləməyə çalışın. İkinci dəfə isə jurnalistə tapşırıq verilir ki, getsin aeroporta, hansısa dövlətin xarici işlər naziri gəlir, ondan intervü alsın. Həmin gün bu qardaş qonorar alıbmış, gedir oturur kafedə, yeyir-içir, fikirləşir ki, əşşi, onsuz nazir nə deyəsidir, standart söhbətlər olur, hava limanına getməyin anlamı yoxdur. Elə kafedə nazirlə intervü uydurur: mən ona belə dedim, o mənə belə dedi və sairə... İntervünü gətirir redaksiyaya, yazı qəzetdə çıxır, amma məlum olur ki, nazirin səfəri ümumiyyətlə təxirə salınıb. Böyük ehtimalla o jurnalistin əməyini də hörmətdən Uorlik kimisi salıbdır.

Sözümün canı nədir? Açığı, jurnalistlərin hamısını tutub zindana salıblar, o vaxtdan bəri sözümüzün elə bir canı-cəsədi də qalmayıbdır. Hökumətə nə deyə bilərik? Heç nə: can sağlığı, uzun ömür, məhəbbət, keyf, eyş-işrət... "Hər kəs yüz il yaşamasa, Günah onun özündədir" tipli poeziyası, "El üçün ağlayan göz kor olar" kimi ata sözləri olan millətin qəzetçisi də özünə oxşamalıdır. Üstəlik, millət yaman çoxbilmiş olubdur, nə yazsan deyirlər: "Əşşi, onu bilirik, ayrı söhbət elə". Bəlkə də bu saat Obama və Putin planetin gələn ilki siyasi-ictimai durumunu proqnozlaşdırmaqda çətinlik çəkirlər, ancaq bizim çayxanada domino oynayan elə ağsaqqallar var 4-cü minilliyin axırlarında Nebula ulduzunun Saturnun halqalarına təsiri, o zaman Gəncənin icra başçısı kim olacaq - bu haqda mühazirə oxuyurlar.

Hələlik hava haqda məlumat verənləri tutmurlar, ona görə, uca xalqımız, bu aralar qalın geyinin, soyuqdur.

# Qərbdən İsrailə gözlənilməz zərbə

## Avropa Parlamenti Fələstinin müstəqilliyini tanıyan qətnamə qəbul etdi; yəhudi dövləti Avropanın və ABŞ-ın diplomatik həmləsi ilə üz-üzə qalıb

**Avropa Parlamentinin Fələstinin müstəqilliyini tanıması Yaxın Şərqdə yeni düzənin formalaşmasından xəbər verir. Bu qurumda keçirilmiş səsvermə üzv partiyalar arasındakı konsensus nəticəsində mümkün olub. 498 lehinə, 88 əleyhinə nisbətində qəbul olunmuş qətnamədə deyilir: "Biz prinsipcə Fələstin dövlətini və münaqişənin iki dövlətli həllini dəstəkləyirik".**

**Bundan bir qədər əvvəl sosial-demokratların, solçuların və yaşılların nümayəndələri parlament təşəbbüsü qaldıraraq Avropa İttifaqının bütün 28 üzvü tərəfindən Fələstinin qeyd-şərtsiz tanınması təklifi ilə çıxış etmişdilər (azadlıq.org).**

Oktyabrda İsveç Fələstin dövlətini rəsmən tanıyıb. Britaniya, Fransa və İrlandiya parlamentləri isə nəticəsi hökumət üçün məcburi sayılmayan səsvermələrdə Fələstin dövlətinin tanınmasına tərəfdar çıxıb. Nəhayət, çərşənbə günü Lüksemburq parlamentində oxşar qanun qəbul edilib.

Bununla belə, Avropa Parlamentindəki ən böyük qrupu təşkil edən, Liberallar və Demokratların Alyansında dördüncü böyük fraksiya olan mərkəz-sağçı Avropa Xalq Partiyası bildirib ki, Fələstin dövlətinin tanınması yalnız və yalnız İsraillə danışıqlar prosesində baş verə bilər.

Fələstin dövlətini Cənubi Amerika, keçmiş Sovet İttifaqı da daxil olmaqla Asiya və Afrikada demək olar, bütün ölkələr tanıyıblar. Cənubi Qafqazda Fələstini tanımayan yeganə ölkə Ermənistandır.

Bu arada BMT Təhlükəsizlik Şurası İsrailin 1967-ci ildə işğal edilmiş ərazilərdən çıxmasını tələb edən qətnaməni qəbul etməyə hazırlaşır.

Bu qətnamənin layihəsi fələstinlilərin adından İordaniya tərəfindən təqdim olunub. "The Guardian" qəzeti yazır ki, Fransa tərəfindən də qətnamə layihəsi təklif olunub və görünür bu iki sənəd arasında seçim ediləcək.

Qətnamə layihəsinə əsasən sonuncu İsrail əsgəri işğal olunmuş ərazilərdən 2016-cı ilin noyabrınadək çıxmalıdır.

Fələstinin xarici işlər naziri Riad Malki deyib ki, qətnaməyə ABŞ tərəfindən veto qoyulması mümkündür və buna görə də sənəd konsensus əldə olunmadan səsverməyə çıxarılmaya da bilər.

Beləliklə, İsrail bu həftə bütün Avropa boyunca bir neçə istiqamətdən diplomatik zərbələr alıb.

Elə çərşənbə günü fələstinlilərin xahişi və Cenevrə konvensiyalarına üzv ölkələrdən 126-nın iştirakı ilə keçirilən konfransda İsraili beynəlxalq qanunlara hörmətlə yanaşmağa çağıran 10 maddəlik bəyannamə qəbul olunub.

Bəyannamədə İsrailin işğal olunmuş əraziləri məskunlaşdırması qətiyyətlə pislənir.

Mətbuat bu bəyannamənin icrasının hökumətlər üçün icbari olduğunu bildirib.

İsrail Avropa ölkələrini bu konfransı boykot etməyə çağırsa da, onların tədbirdəki iştirakını əngəlləyə bilməyib.

Konfrans İsrail, Kanada və ABŞ tərəfindən boykot edilib.

İsrail iddia edir ki, Cenevrə konfransı insan haqları məsələsini siyasiləşdirib.

ABŞ dövlət katibi Conn Kerri bildirib ki, İsraildə mart ayına təyin olunmuş seçkilərin nəticələrinə hər hansı şəkildə təsir edə biləcək addımlardan çəkinmək lazımdır.

Fələstinlilər çərşənbə günü daha bir siyasi uğur qazana biliblər. Avropa İttifaqının ikinci ən yüksək məhkəməsi Haması terrorçu təşkilatların siyahısından çıxarıb.

Bununla belə, qərarda deyilir ki, təşkilatın əmlakı üç ay müddətində dondurulmuş halda qalmaqda davam edəcək.

İsrailin baş naziri Binyamin Netanyahu Avropanı "müdhiş riiyakarlıqda" ittiham edib. O, jurnalistlərin suallarına cavab verərkən deyib: "Cenevrədə onlar İsrailin hərbi cinayətlərini təhqiq etməyə çağırıblar, Lüksemburqda isə Avropa İttifaqının məhkəməsi Haması terror siyahısından çıxarıb. Belə görünür ki, 6 milyon yəhudinin qətliam edildiyi Avropada çoxları tarixdən heç nə öyrənməyiblər".

"Şərq Qərb" araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu "Yeni Müsavat"ın əməkdaşı ilə söhbətində bildirib ki, bu qərar gözlənilən idi. BMT qətnaməsinə görə, Fələstinin müstəqilliyinin tanınması qaçılmaz idi.

"Ərəblərin İsrailə müharibə elan etməsi və İsrailin döyüşlərdəki uğuru müstəqil Fələstinin yaradılmasına imkan vermədi və dünya bu reallıqla hesablaşmalı oldu. Digər tərəfdən, uzun müddət İsrail Qərbin, Fələstin isə SSRİ-nin maraqlarının ifadəçisinə çevrilmişdi. Bu amil müstəqil Fələstin ideyasının gerçəkləşməsinə mane oldu", - deyə politoloq vurğulayıb.

"SSRİ dağıldıqdan sonra bu balans pozuldu və Fələstinin bir dövlət kimi tanınması prosesi ləngidi", - deyən ekspert hesab edir ki, artıq dünya dəyişib və Fələstin məsələsindəki vacib anlaşmanı inkar etmək mümkün deyil. "Avropa ölkələrində ərəblərin sayı və siyasi proseslərə inteqrasiyası artmaqdadır. Digər tərəfdən, Netenyahu iqtidarı son zamanlar Rusiyaya meyllənir. Beynəlxalq çevrələrdə ABŞ prezidenti Barak Obama və İsrailin baş naziri Netanyahu arasındakı gərginlik açıq şəkildə müzakirə edilməkdədir. Düzdür, iki liderin münasibəti əsas amil deyil, Netanyahunun ruslara meyllənməsi isə kifayət qədər ciddi rol oynadı",- deyə ekspert qeyd edib.

Politoloq onu da vurğulayıb ki, Netanyahu İsrail barədə yeni konsepsiya yaratmışdı və o, bu ölkəni yəhudi dövləti kimi gördüyünü açıqlayırdı. "Belə gedişat İsrail siyasətindəki solçuların və mötədillərin etirazı ilə qarşılanırdı. Unutmaq olmaz ki, İsraildə qeyri-yəhudilər az deyil və ölkənin 20 faizi ərəb mənşəli İsrail vətəndaşlarıdır. Bu amil, eyni zamanda İsrailin Qəzzadakı əməliyyatları, uşaq və qadınların qətlə yetirilməsi Fələstinin tanınması prosesində Tel Avivin ziyanına işlədi.

"Avropa ölkələri ardıcıl olaraq Fələstinin müstəqilliyini tanımağa başladılar. Avropa Parlamentinin Fələstinin müstəqilliyini tanıması bu baxımdan gözlənilən idi. Görünən budur ki, İsrail parlamentinə növbəti seçkilərdə Netanyahu tərəfdarları uğur qazana bilməyəcəklər. İsrail cəmiyyəti kifayət qədər praqmatikdir. Yüksək təhsilli İsrail sakinləri terror və müharibələrdən artıq beziblər. Onları millətçi şüarlarla aldatmaq artıq mümkün deyil",- deyə Ə. Oruclu qeyd edib.



**Politoloq Ərəstun Oruclu:**
**"Netanyahunun ruslara meyllənməsi bu prosesdə kifayət qədər ciddi rol oynadı"**

"Fələstinin Avropa Parlamenti tərəfindən tanınması Dağlıq Qarabağ üçün president ola bilərmi" sualına cavab verərkən politoloq vurğulayıb ki, Fələstin və Qarabağ münaqişələri arasında paralellər axtarmaq yanlış olardı. Lakin burada təhlükəli məqam ondan ibarətdir ki, dünyada münaqişəli problemlərdən tezliklə azad olunmaq tendensiyası hökm sürür. Dünya münaqişələri həll etmək istəyir, bu məsələdə emosiyalara yer yoxdur və əsas amil maraqlardır. Qarabağın işğal olunmuş ərazilərinin nəzarətsiz bölgələrə çevrilməsi problem yaradır və dünya bu problemdən azad olmağı arzulayır.

Ə.Oruclu hesab edir ki, Azərbaycan hakimiyyətinin ABŞ və Avropa ölkələrinə qarşı neqativ mövqeyi onu deməyə əsas verir ki, Qarabağ münaqişəsi həll edilərkən, bizim maraqlarımız zərbə ala bilər.

"Avropa Parlamentinin adıçəkilən qərarı Yaxın Şərqdəki proseslərə hansı təsiri göstərə bilər" sualının cavabında Ə.Oruclu qeyd edib ki, yaxınlarda xüsusi bir gərginliyin yaşanacağını düşünmür.

**"Artıq lobbilər və onların gücü barədə deyilənlər ciddi qarşılanmır. ABŞ mətbuatı açıq şəkildə İsraili tənqid edir. Dünyada qloballaşma gedir. Bu prosesə qarşı çıxanlar problem yaşamalı olacaq. B.Obama dünyada gərginlik artmasın deyə, ruslarla əməkdaşlığa üstünlük verirdi. Lakin Putin Rusiyası Suriyada, Ukraynada, MDB məkanında özünü işğalçı kimi aparmağa başladı və nəticə Vaşinqton Moskvanı diz çökməyə vadar edə bildi",- deyə politoloq fikrini yekunlaşdırıb.**

❑ A.RƏŞİDOĞLU

YENİ MÜSAVAT
N 310 (6009) 20 dekabr 2014

# Avropa Birliyi inadından dönmür



**Avropa Komissiyası Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Yunanıstanın DESFA şirkətinin səhmlərinin üçdə ikisinin alınmasına dair bağladığı müqaviləyə baxılmasını yenə təxirə salıb. Bu haqda Qərb mənbələrinə istinadən virtualaz.org saytı məlumat yayıb.**

# Brüssel ilə rəsmi Bakının "qaz müharibəsi" qızışdı

## Avropa Komissiyası SOCAR-ın Yunanıstandakı yarım milyardlıq sövdələşməsinin təsdiqini yenə təxirə saldı; Müqavilənin təsdiqlənməsi Azərbaycan hakimiyyətinin xüsusilə insan haqları ilə bağlı tutduğu mövqedən asılı olacaq; Avropanın pul kisəsindən asılı olan rəsmi Afina çıxılmaz durumda...

Məlumata əsasən, Avropa Komissiyası SOCAR-ın DESFA şirkətinin səhmlərinin alınmasına dair Yunanıstan hökuməti ilə bağladığı ilkin razılaşmaya dekabrın 19-da baxmalı və ilkin qərarını elan etməli idi. Lakin göründüyü kimi bu dəfə də müqavilənin ratifikasiyası təxirə salınıb. Yunanıstan Avropa İttifaqının üzvü olduğuna görə bu sövdələşmə ancaq Avropa Komissiyası tərəfindən təsdiqləndikdən sonra qüvvəyə minə bilər.

SOCAR-ın DESFA-nın səhmlərini almasına dair razılaşma baxılmaq üçün oktyabrın 1-də Avropa Komissiyasına təqdim olunub. SOCAR-la Yunanıstan hökuməti arasında bu ilin yayında bağlanmış müqaviləyə görə Azərbaycan şirkəti DESFA-nın səhmlərinin 66 faizini 450 milyon dollara almağa razılaşıb. DESFA Yunanıstanın qaz kəmərləri sisteminin operatorudur və SOCAR-ın onun səhmlərini alması ona Avropaya qaz nəqli və satışında əlavə üstünlüklər vəd edirdi. Lakin noyabrın əvvəlində Avropa Komissiyası bəyan edib ki, sövdələşmənin Avropa İttifaqının antiinhisar normalarına zidd olduğuna dair ciddi şübhələr var. Çünki SOCAR DESFA-nı alsa, Yunanıstan qaz bazarında inhisarçıya çevrilə bilər. Bununla da şirkət Yunanıstana nəql etdiyi qazı DESFA üzərindən sataraq bazarda rəqabəti əngəlləmək imkanı əldə edəcək.

Avropa Komissiyasının bu bəyanatından sonra hökumət hərəkətə keçdi və SOCAR prezidenti Yunanıstana səfər edərək bu ölkənin baş naziri Antoni Samarasla danışıqlar apardı. Ardınca Yunanıstan hökuməti Avropa Komissiyasına müraciət edərək müqaviləyə baxılmasını sürətləndirməyə çağırdı. Prosedura görə Avropa Komissiyasının qərar vermək üçün gələn ilin fevral ayına qədər vaxtı var.

**Belə bir problem yaranmasını bəzi ekspertlər Azərbaycana qarşı sanksiya xəbərdarlığı kimi qiymətləndirmişdi.** İddia olunurdu ki, bu ləngimə Avropa Komissiyasının rəsmi Bakının siyasətindən narazı olmasına işarədir. O da vurğulanırdı ki, müqavilənin təsdiqlənməsi qarşıdakı aylarda Azərbaycan hakimiyyətinin xüsusilə insan haqları ilə bağlı tutduğu mövqedən də asılı olacaq. Avropa Komissiyası müqavilə ilə bağlı məsələdə ilk "taym-autu" noyabr ayında götürmüşdü. Azərbaycan siyasi məhbuslarla bağlı İşçi Qrupu yaradılsa da, siyasi məhbuslarla bağlı irəliləyiş nəzərə çarpmadı, üstəlik araşdırmaçı-jurnalist Xədicə İsmayılın həbsi ilə Avropa Komissiyası da daxil iqtidara yönəlik beynəlxalq qınaqlar artdı.

Doğrudur, bəzi ekspertlər bu ləngimə məsələsində siyasi motivlərin olmadığını iddia edirlər. SOCAR prezidenti Rövnəq Abdullayev də Avropa Komissiyasının iradları və təraddüdlərini şərh edərkən bildirmişdi ki, DESFA-nın səhmlərinin alınması daha çox Avropanın maraqlarına uyğun idi və əgər bu sövdələşmə təsdiqlənməsə Azərbaycan heç nə itirməyəcək.

Amma Qərbin sanksiyaları ilə üzləşən Rusiyanın külli-miqdarda vəsait xərcləməsinə baxmayaraq, Avropa Birliyinin təzyiqi ilə "Cənub axını" layihəsi dayandırıldı.

Rusiya prezidenti Vladimir Putin Türkiyəyə bu ayın əvvəlində etdiyi səfərdə açıq bildirdi ki, Avropa Birliyi kəmərin Bolqarıstandan keçən hissəsinin tikintisinə icazə vermir. Putin də etiraf etdi ki, məsələ siyasidir və Avropa Birliyi bu yolla Rusiyanı cəzalandırır. Kəmərin tikintisindən milyonlar qazanacaq Bolqarıstan(bundan əvvəl Avropa Birliyinin təzyiqlərindən sonra Serbiya da kəmərin tikintisindən imtinaya məcbur olmuşdu) layihədən kənarda qaldı.

Aydındır ki, Avropa Birliyinin kisəsindən asılı olan Yunanıstan da indilikdə bu ləngiməyə qarşı çıxmaq iqtidarında deyil. Unutmayaq ki, SOCAR Yunanıstanın DESFA şirkətinin səhmlərinin 2/3 hissəsinin 500 milyon dollara alınmasına dair razılaşmamanın rəsmiləşdirilməsi də bir neçə dəfə təxirə düşmüşdü. Rəsmi müqavilənin imzalanması ötən il dekabrın 17-də, "Şahdəniz - 2" layihəsinin işə salınması ilə bağlı Bakıda təşkil edilmiş mərasimdə nəzərdə tutulurdu. Bu məqsədlə Yunanıstanın baş naziri Antonis Samaras Azərbaycana səfər etməli idi. Lakin Bakıya səfər üçün Afinadan yola çıxan baş nazirin təyyarəsində "havada texniki nasazlıq yarandı" və A.Samarasın təyyarəsi Afina yaxınlığındakı hərbi aerodroma yerə endi. Yunanıstan tərəfi elan etdi ki, baş nazirin Bakıya səfəri üçün başqa təyyarə tapılmadığı üçün(?-red) səfər ləğv edilib.

Belə görünür ki, əgər növbəti aylarda da Avropa Komissiyası bu müqaviləni imzalamasa belə, rəsmi Afina susacaq.

**Yeri gəlmişkən, son aylar Azərbaycanın Avropa qaz bazarında da mövqeləri qismən zəifləyib.** Rusiya prezidenti Ankaraya səfərində həm də onu elan edib ki, "Cənub axını" qaz kəmərinin tikintisini dayandırsa da, əvəzində "Qazprom" Türkiyəyə eyni gücdə yeni qaz kəməri çəkməyi nəzərdə tutur. Həmin qaz kəməri Rusiya qazını Türkiyənin Yunanıstanla sərhədinə qədər nəql edəcək, "Qazprom" qazı sərhəddə topdan satacaq. Bu isə deməkdir ki, plan reallaşsa Rusiya qazı Azərbaycan qazı ilə eyni marşrut üzrə Yunanıstana nəql olunacaq, yəni SOCAR-ın Yunanıstan bazarında inhisarçıya çevrilməsi mümkün olmayacaq. Əksinə, SOCAR yunan bazarında "Qazprom"un qismində ciddi rəqiblə üzləşəcək.

**Azərbaycan hakimiyyəti məsələnin siyasi müstəviyə keçirilməsində hələ ki maraqlı deyil və belə görünür ki, rəsmi Bakı müqavilənin imzalanması üçün nəzərdə tutulan sürəcin sonunadək səbirlə gözləməyə qərar verib.** Azərbaycan hakimiyyətinin son aylar Qərb təsisatlar, o cümlədən Avropa Birliyi ilə münasibətləri çox gərgindir. Xüsusilə bu qurumun siyasi məhbuslarla bağlı bəyanatlarına qıcıqlı reaksiya verir. X. İsmayılın həbsindən sonra da Avropa Birliyinə üzv ölkələrin Bakıdakı nümayəndəliyi xüsusi etiraz bəyanatı yayıb. Bu qurumun rəhbərliyinə daxil olan şəxslər də ayrıca bəyanat verərək həbsi pisləyiblər. Avropa Birliyi məramına görə daha çox iqtisadi birlik olsa da, bu qurum insan haqları ilə bağlı məsələdə daima fəaldır, hətta bu siyasətini enerji maraqlarından belə önə çıxarır. Rəsmi Bakı isə bu cür tənqidləri qəbul etmir və bu tipli bəyanatların müəyyən dairələrin anti-Azərbaycan kampaniyasının tərkib hissəsi olduğunu bəyan edir. Avropa Komissiyasının bu qərarı barədə daha bir ehtimal isə hazırda Azərbaycan hakimiyyətinin Qərblə münasibətlərinin pisləşməsi fonunda Rusiya ilə daha da yaxınlaşmasıdır. Unutmayaq ki, Rusiyanın taleyi indi daha çox Moskvada deyil, Brüsseldə həll olunur...

❑ **Xəbər xidməti**

# Ədalətsizliklə barışmaq həqiqətən də çətindir...



Hüseynbala SƏLİMOV

**Bəs biz nə deyirdik? Otuz ildir sərasər elə bunu demirikmi? İnsan ədalətsizliklə barışmır və əslində barışmamalıdır da... Hərdən özümə qapılır, bir növ özümü imtahana çəkirəm. Özümdən soruşuram ki, sən həyatını nəyə sərf etdin? Sən olmasaydın bu "iş"ləri başqa bir adam görməyəcəkdimi?**

Bilmirəm. Ən çətin sualları adam özünə verir. Elə çətin sualları da adama elə onun özü verir...

Ona görə də bütün instansiyalardan qaçsan da bir instansiyadan qaça bilməyəcəksən-bu instansiya insanın özüdür. Bir neçə dəfə yazmışdıq ki, bizi siyasi proseslərə sürükləyən kəskin ədalət hissi oldu...

Tanrı sanki bizə qeyri-adi ədalət hissi verib buna biganə olan adamların arasına göndərdi və biz də bu çağırışı qəbul etdik. İllərlə addım-addım, gücümüz çatanı etdik və çalışdıq ki, heç bir əzildəni diqqətdən kənarda qoymayaq...

Düzdür, ədalət anlayışı, ədalət hissi də bəzən kinayə ilə qarşılanır. Deyirlər ki, təbiətdə ədalət anlayışı yoxdur, lazım bilsəydi, Tanrı ədalət anlayışını təbiətə də nazil edərdi. Nə demək olar?

Ona qalsa, təbiətdə şüur, idrak və təfəkkür də yoxdur. Məgər biz bununla bütün təbiətdən fərqlənmədikmi? Elə buna görə də bizə insan demədilərmi?..

Nə isə. Fəlsəfə ilə nə özümü, nə də sizi yormaq fikrində deyiləm. Məqsədim də bu deyildi. Sadəcə, bizə o təsir etdi ki, hətta hakimiyyətdəkilər də ədalətsizliklə barışmağın mümkün olmadığını etiraf edirlər.

Bəs onda onlar niyə bizi başa düşmür? Niyə bizə yad planetlilər kimi baxırlar? Bir jurnalist dostumun söhbətini xatırlayıram. Bu adam kreditlər, bəli, adi vətəndaşlara verilən kreditlər haqqında yazmaq istəyirdi.

Deyirdi ki, Gürcüstana, Belarusa milyonları bağışlayırlar, amma öz vətəndaşlarına gələndə, az qalırlar ki, adamın dərisini də soysunlar... Onunla razılaşmamaq qeyri-mümkün idi. Ona görə ki, çox arqumentli danışırdı. Həm də özümüz gündəlik həyatda bunun şahidi deyilikmi?

Mən bu hakimiyyətin vaxtında fiziki təzyiqə məruz qalmamışam. Bunu etiraf edirəm. Epizodik hallar olub, fəqət, unutmuşam onları.

Amma o qədər dostum, tanışım, həmfikirlim təzyiqə məruz qalıb ki!... Onların hər birinə edilən təzyiqi özümə edilən təzyiq kimi qəbul etmişəm.

Başqa cür ola bilərdimi? O vaxt ədalətdən danışa bilərdikmi? Elə vaxtlar olub ki, azadlıqda olmağımızdan utanmışıq.

Düşünmüşük ki, axı, dostların məhbəsdə olduğu vaxt bizim azadlıqda olmağımız düzgün deyil... Qeyri-adi qəbul etməyin, bu, adi həyat həqiqətləridir. Bəli, elə ölkələr var ki, orada adam məhbəsdə olmadığına görə utanır. Elə hakimiyyətlər olur ki, onların dövründə azad və ləyaqətli insan məhbəsdə olmalıdır...

Düzdür, bu, da həyatdır. Digər tərəfdən də, biz günahkar deyilik ki, kimisə həbs edirlər, bizsə azad-xürrəm gəzirik! Yox, bu da həyatdır. Bizdən nə tələb olunur? Məhbəsdə olanları unutmamaq, onların sözünü çatdırmaq, onlara dəstək olmaq. Min şükür, bu sarıdan başlarımız aşağı deyil...

Sadəcə, ədalətsizlik təkcə o deyil ki, yalnız sənə qarşı baş verir. Sənin ayağını tapdayırlarsa və sən də buna etiraz edirsənsə, burada nə var ki?!!

Əsas odur ki, sənin ayağını tapdamırlar, amma sən görürsən ki, başqasının və bəlkə də sənin heç tanımadığın bir adamın ayağını tapdayırlar, sən də etiraz edirsən və deyirsən ki, dostlar, belə olmaz axı!!! Bax, onda əsl şücaət və ləyaqət sübut olunur. Bax, onda deyə bilərsən ki, mən həqiqətən də insanam, ikiayaqlı deyiləm...

Ona qalsa, kenquru da iki ayağı üstündə gəzir... Həyat qəlizdir. Bəlkə də ideal ədalətli quruluş heç vaxt olmayacaq. Bəlkə də insanın anladığı ideal ədalət elə o şeydir ki, onu hamıdan əvvəl Mirzə Fətəli təsvir edib?!

Onun "Sərgüzəşti-vəziri-xani-Lənkəran..." pyesi yadınızdadırmı? Orada xan nə deyirdi? Sən də, deyir, götür, bir daş at və onun atının gözünü çıxart! Bəlkə insanın bu dünyada bərqərar edə biləcəyi "ədalət" elə budur?

Bəlkə biz insanın ədalət hissini lazım olandan çox qabardırıq? Bilmirəm. Onu bilirəm ki, bunu insan uydurmayıb. Hətta insan uydurubsa belə o, çox yaxşı nağıldır...

Həm də bir şeyi hətta hakimiyyət sahibləri də etiraf edirsə, deməli, burada nəsə var. Amma hakimiyyətin bir missiyası da ədalətin keşikçisi olmaqdır - istər bu, idmanda olsun, istər siyasətdə, istərsə də biznesdə...

YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014



# Söyüş qəhrəmanlarına "fyuçers təsiri"

Azər RƏŞİDOĞLU

**Hədəflərin bu qədər kiçilə biləcəyini çox az adam ehtimal edirdi. Müxalifətin hədəfləri artıq mikroskopla da görünmür. Cılızlıq o dərəcədə artıb ki, optik cihazla da hədəfi sezmək mümkün deyil.**

SSRİ dağılarkən ölkəni ən müxtəlif başıpozuq qruplar bürümüşdü. Vaxt keçdi, intellekti olmayanlar gəldikləri kimi də yoxa çıxdılar. Azərbaycan siyasi müstəvisi bu gün SSRİ-nin dağılması dövrünü xatırladır. Deyəsən, müstəvi və siyasi sistem dağılır.

Bu gün Azərbaycan siyasətində səmimiyyət çatışmır. Xalq səmimiyyət tələb edir. Səmimiyyət olmayan yerdə isə qurbanlıq keçi missiyasını həyata keçirtməyi planlaşdırmır. Buna baxmayaraq, inamsızlıq, biganəlik, ümidsizlik heç də son deyil. İnamsızlıq və ümidsizlikdən ümid doğur. İnkarın inkarı yeniliyə yol açır. "Xəyal qırıqlığı" isə daha artıq depressiyaya səbəb olur. Mikroskopik hədəfləri olan partiyaların inkarçılığı isə hər şeyi məhv edir.

Azərbaycan siyasətində təkfirçilik, rafizilik əsas elementə çevrilib. Azərbaycan siyasətinə söyüş və təhqiri gətirənlər gündəmə cılız hədəfləri ilə gəlirlər. Bir-birini təhqir edənlər, valideynləri söyüş hədəfinə gətirənlər düşünürlərmi ki, bütün bunları kənardan izləyən neytral müşahidəçi onları hansı sözlərlə yad edir?

Proseslər o qədər iyrənc çalar aldı ki, Hacı İlqar İbrahimoğlu obrazlı desək, əlində Quran vuruşan tərəflərin arasına girdi və "heç olmasa 48 saatlıq atəşkəs elan edin, emosiyalar soyusun" mesajını verdi.

Bütpərəst bir ölkədə belə çağırışlar qulaqardına vurulmalı idi. Kim haqlıdır? Kim birinci başladı? Savaşın kökündə nə dayanır? Bu kimi suallara cavab axtarmaq da mümkün deyil. Emosiyalar belə suallara cavab verməyə imkan yaratmır. İndi hər kəs özünü haqlı hesab edir. Əslində münaqişə tərəflərinin hər biri haqlı, eyni zamanda hər biri haqsızdır. Hərənin öz həqiqəti var. Başlıca olanı, Allahın yanında olmaqdır. Nə edirsənsə et, Allah üçün et, nəfsini və marağını qatma. Kim deyə bilər ki, bu münaqişədə Allahın yanındadır? Kin və həsəd, fitnə olan yerdən Allah da nəzərini kəsər.

Ateist cəmiyyətlərdə belə yanaşmalar da olmur. Lakin heç kəs unutmasın ki, bu savaşla cəhənnəm alovuna çubuq atırlar. Əsl sorğu-sual hələ qarşıdadır.

Hər kəs günahkardır. 20 ildə milyonlarla insanın ümidini doğrulda bilməyən hər kəs nə vaxtsa cavab verməli olacaq. Heç bir bəhanə də axtarmağa əl yeri qalmayacaq.

Cılız hədəfli qrupların, dərnəklərin hər şiddətli savaşı zamanı ölkədə ya gurultulu həbs həyata keçirilir, ya rəsmi Bakı böyük geosiyasi seçim edir, ya da sosial problemlərlə bağlı sarsıntılar yaşanır. Diqqətli müşahidəçi bütün bu proseslər zamanı arxa bağçadan boylanan kölgəni seçir.

20 ildir oxşar proseslər baş verir. Təhqirləri, söyüşləri "nuş edən"lər seçki ərəfəsində yenidən qucaqlaşırlar. Gələn il də eyni aqibət yaşana bilər. "Sem dayı" dalaşan nadinc balacalara "bəsdir, öpüşün, barışın, yoxsa küncdə duracaqsınız" mesajını verə bilər. Kimin həddidir ki, Qərbin çəkdiyi cızıqdan ayağını kənara qoysun?! Odur ki, körpüləri yandırmayın.

Günahsız kimdirsə, ilk daşı da o atsın. Madam ki, heç kəs məsum deyil, nədir bu qovğa? Nədir bu təhqirlər? Bircə dəfə addımlarınıza kənar baxışla baxmağa çalışın.

Baş verənlər cılızlıqdır. Əlbəttə ki, kimisə saxta profil ilə təhqir etmək asandır. Amma çətin suallara cavab axtarmaq hər sosial şəbəkə qəhrəmanının işi deyil.

Məsələn, hər kəs Rusiya rublunun aşağı düşməsindən danışır və bunu demokratik hakimiyyət dəyişikliyinə siqnal kimi qələmə verir. Heç kəs aydın izah vermir.

Biri-birlərinin alt paltarında eşələnənlərə belə bir sual verirəm: Qərbin "Rosoboroneksport" və "Qazprom"a qarşı sanksiyaların ilin sonuna qədər neft üzrə fyuçerslərə təsirini hansı preventiv yollarla sabitləşdirmək mümkündür? Yaxud, deyirlər ki, sanksiyalar nəticəsində Rusiyanın xarici borcu artacaq və onu çökdürəcək. Maraqlıdır ki, dünyada ən böyük xarici borcu olan dövlət ABŞ-dır. Onun çökməsinin qarşısını alan faktorlar hansılardır?

**Əlbəttə ki, kiminsə ölüsünün qəbrini sosial şəbəkədə təhqir etmək olar. Bu suallara cavab tapmaq isə çətindir. Kitab oxuyun, cənablar. Bu, təhqir yazmaqdan daha maraqlı məşğuliyyətdir...**



# Türkiyə qaynayır - AKP-Camaat davası pik nöqtədə

## "Zaman" qəzeti "azad", "Samanyolu" "həbs" edildi; Bilal Ərdoğan Soner Yalçını məhkəməyə verdi; 17 dekabr əməliyyatında müsadirə edilən pullar üzərinə faiz əlavə edilməklə sahiblərinə qaytarılacaq; CHP-nin "Rüşvətə yox" həftəsi polis basqınları ilə sonuclandı

**"Zaman" qəzetinin baş redaktoru Ekrem Dumanlı haqqında həbs qəti imkan tədbiri dəyişdirilib. Dekabrın 19-da İstanbul məhkəməsi baş redaktoru ölkədən xaricə çıxmamaq şərtilə həbsdən azad edib. "Samanyolu" Yayın Qrupunun başqanı Hidayət Karaca isə həbsdə qalıb. Məhkəmə onun haqqında terror hörgütü qurmaq və idarə etmək ilə bağlı ciddi dəlillər olduğu səbəbi ilə həbs-qətimkan tədbirini dəyişməyib.**

**Məhkəmə saxlanılan 12 nəfərdən daha 8-ni həbsdən azad edib. Ekrem Dumanlı ilə digər 3 nəfər qanunsuz silahlı dəstə yaratmaqda şübhəli şəxs olaraq istintaq müddətini təcridxanada keçirəcək.**

İddianamədə İstanbul Terrorla Mübarizə İdarəsinin keçmiş müdiri Tufan Ergüder, Asayiş şöbəsinin müdiri Ertan Erçıklı, həmin şöbənin əməkdaşı Mustafa Kılıçarslanın Hideyet Karacanın qurduğu qanunsuz silahlı dəstənin üzvləri olduğu bildirilir.

Proses davam edən saatlarda minlərlə camaat üzvü dəstək ifadə etmək üçün İstanbul məhkəməsinin qarşısına toplaşıb. Qələbəlik Ekrem Dumanlının həbsdən azad edilməsi xəbərini böyük coşqu ilə qarşılayıb.

Dekabrın 14-də saxlanan 12 nəfərlə bağlı istintaqı İstanbul Prokurorluğu aparır. Saxlanan şəxslərə qarşı dövlətin təməllərini ələ keçirmə, şantaj, basqı, təhdid yolu ilə çoxsaylı şəxslərin azadlığını məhdudlaşdırma, eləcə də dövlət əhəmiyyətli sənədlərin saxtalaşdırılması maddələri üzrə ittiham irəli sürülüb.

Prezident Ərdoğanın oğlu Bilal Ərdoğan isə Türkiyənin ünlü qəzetçilərindən olan Soner Yalçının həbs edilməsi tələbi ilə məhkəməyə iddiası qaldırılıb. Bilal Ərdoğan iddia edir ki, "İtkin sicilləmə - Ərdoğanın oğurlanan dosyesi" adlı kitabında Soner Yalçın ona həqarət edib. Bilal Ərdoğanla bərabər prokuror Emin Aydınç da qəzetçi haqqında eyni iddianı qaldırıb. Şikayət üzrə ilk məhkəmə prosesi 2015-ci martın 3-də İstanbulda keçiriləcək.

İddiaçılar Soner Yalçının kitabındakı bu parçanın Bilal Ərdoğana həqarət olduğunu düşünür: "Bu ölkədə əxlaq iqtidar olsun. Kirliliyə bulaşmamış təmiz insanlar qalib gəlsin... Gəzi direnişində öldürülən Əli İsmayıl Qorxmazlar, Berkin Elvanlar qalib olsun. Bu gün Türkiyədə iki simvol var. Biri Berkin, biri Bilal. Bu, bizə, hamımıza iki Türkiyəni göstərir. Berkin böyük bir yaxşılığın adıdır, Bilal sıradan zalım bir pisliyin adı. Berkin məsumiyyətin, cəsarətin, gözəlliyin təmsilçisidir, Bilal gücün, harınlığın, yalançılığın təmsilçisi. Bilal zülmün adı, Bilal kirli Türkiyənin simvolu, Bilal hiyləgərliyin adı, Bilal etibarsızlığın adı, Bilal zülmün adıdır".

Tərəfdarlarının həbsinə etiraz edən Fətullah Gülən


Hideyet Karaca


Soner Yalçın

camaatı baş verənləri AKP iqtidarının və şəxsən prezident Rəcəb Tayyib Ərdoğanın onlara qarşı kampaniyası hesab edir. Ötən gecə camaatın xeyli tərəfdarı İstanbul küçələrində həbslərə etirazlarını bildirib, hakimiyyəti rəqibləri ilə zor yox, qanun dili ilə danışmağa çağırıb. Camaata yaxın media yazır ki, kampaniyanın başlanması ilə bağlı qərarı prezident Ərdoğan Milli Təhlükəsizlik Şurasının 30 oktyabr toplantısında verib. Prezident bildirib ki, leqal görünən bütün illeqal qurumlar ləğv edilməlidir. Bundan sonra son aylarda camaata yaxınlığı ilə tanınan bütün qurumların toplantıları videonəzarətə götürülüb. Ancaq hədəfdə yalnız Gülən camaatı deyil. Dekabrın 14-də İstanbulda İsmailağa Camaatına yaxın Mevlana Ahmet Ziyaüddin Gümüşhanevi Derneğinin toplantısında şəxsiyyəti toplantı təşkilatçılarına və iştirakçılara bəlli olmayan 2 şəxs video-çəkiliş aparıb. Yığıncağa gələn 400 nəfər bu şəxslərin kimliyi ilə dəfələrlə maraqlansa da konkret cavab ala bilməyiblər. Onların Milli İstihbarat Təşkilatının görəvliləri olduğu ehtimal edilir. Toplantıda gərginlik yaşanmaması üçün camaat liderləri çəkilişə mane olmamaq göstərişi verib.

Camaat liderləri rəsmi Ankaraya da seminarın hansı məqsədlə çəkilməsi haqqında sorğu göndərib. Hələlik bu sorğu da cavabsızdır. Müstəqil araşdırmalar zamanı isə bəlli olub ki, noyabrın ilk günlərində bütün dini qurumlar xüsusi nəzarət altındadır.

Türkiyə mediası AKP-Camaat davasının ilk açıq toqquşmasının - 17 dekabr Böyük Rüşvət Əməliyyatının bir illiyi ilə bağlı yazıların dərcini davam etdirir. "Radikal" qəzeti yazır ki, 17 dekabrda həbs edilən bütün şəxslər azad edildikdən, açılan cinayət işləri bağlandıqdan sonra hökumət "zərərçəkənlərin" hüquqlarının müdafiəsi mərhələsinə başlayıb. Məhkəmənin qərarı ilə 17 dekabr əməliyyatından sonra vəzifəsindən getmək məcburiyyətində qalan keçmiş daxili işlər naziri Müəmmər Gülərin oğlu Barış Gülərlə Xalq Bankın baş direktoru Süleyman Aslanın evindən tapılan pullar faizləri ilə bir yerdə sahiblərinə qaytarılacaq.

İndiyə qədər Barış Gülərin evində tapılan 400 min türk lirəsi, 300 min avro, 100 min dollar, Süleyman Aslanın evində olan 2,5 milyon dollar, 1.5 milyon avro əmanət olaraq saxlanırdı. Məhkəmənin qərarı ilə pul Türkiyənin bank sektorundakı əmanətlərinin ortalama faizi ilə bir yerdə Barış Gülər və Süleyman Aslana qaytarılacaq. Süleyman Aslan 17 dekabr əməliyyatı zamanı evindəki ayaqqabı qutularından tapılan pulların ianə olduğunu, Makedoniyada Balkan Universitetinin, Osmancıkda İmam Hatip məktəbinin tikintisinə xərclənəcəyini demişdi. Türkiyə qanunlarına görə, bank ianə toplanması ilə məşğul ola bilməz. S.Aslana qarşı Cinayət Məcəlləsinin uyğun maddəsi ilə cinayət işi qaldırılsa da bir neçə ay sonra işə xitam verilib.

**Türkiyə mediasının yaydığı xəbərlərdən o da bəlli olur ki, AKP-nin hədəfində müxalif siyasi partiyalar da var. Ötən 2 gündə ana müxalifət Cümhuriyyət Xalq Partiyasının bir neçə şəhərdəki qərargahına polis basqını olub. Polislər CHP binalarına 17 dekabr Böyük Rüşvət Əməliyyatı ilə bağlı asılan posterlərin çıxarılmasını tələb edib. Posterlərin üzərində adı rüşvət iddialarında hallanan prezident Ərdoğanın oğlu Bilal Ərdoğanın, eləcə də rüşvət iddialarına görə vəzifədən gedən 4 keçmiş nazirin şəkilləri var. 17 dekabrın ildönümündə CHP "Rüşvətə yox" kampaniyası çərçivəsində adı qara pulların yuyulmasında çəkilən keçmiş hökumət üzvlərinin və Bilal Ərdoğanın şəkillərindən ibarət kollaj posterlər hazırlatmışdı. Posterlər Türkiyə Böyük Millət Məclisinin 17 dekabrda keçirilən toplantısında da göstərilmiş və AKP təmsilçilərinin sərt etirazlarına səbəb olmuşdu. Bir neçə AKP-li millət vəkili partiyanın nüfuzunu ləkələməsi iddiası ilə CHP üvlərindən məhkəməyə şikayət edib.**

❑ Aygün MURADXANLI

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014

# Ermənilərin mülki şəxslərə qarşı beynəlxalq cinayəti

## Separatçıların saxta məhkəmə şousunda Kəlbəcər girovlarına ömürlük və 22 il cəza istənildi

**Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülən azərbaycanlıların növbəti "məhkəməsi" dekabrın 19-da baş tutub. Məhkəmə şousunda çıxış edən "dövlət ittihamçısı" girov Dilqəm Əsgərovun ömürlük, Şahbaz Quliyevin isə 22 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.**

Bu barədə məlumatı qondarma "Dağlıq Qarabağ Respublikası"nın baş nazirinin mətbuat katibi Artak Beglaryan özünün tvitter hesabında yazıb. Ermənilərin təkcə rəsmi Bakının deyil, hətta Rusiya XİN başçısı Sergey Lavrovun da çağırışlarına məhəl qoymayaraq girovları azad etməkdən yayınması düşmənin Qarabağ məsələsinin tənzimlənməsində də konstruktiv mövqedən çıxış etməyəcəyini göstərir. Ermənistan hakimiyyəti girovlar faktından maksimum yararlanmağa, bununla həm ölkə daxilində diqqəti yayındırmağa, həm də rəsmi Bakıya təsir etməyə çalışır.

**Qeyd edək ki, Azərbaycan Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin kəlbəcərli girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı ümidverici açıqlama verməyib.** Onun sözlərinə görə, Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxinin girovlarla bağlı bu ölkənin Ermənistandakı səfiri İvan Volınkinlə danışığı olub. Rusiyanın Ermənistandakı səfiri İvan Volınkin isə ölkəsinin Azərbaycandakı səfirinə kəlbəcərli girovların məsələsilə maraqlandıqlarını və onların azad olunmasına vasitəçi olmağa çalışdıqlarını deyib. Bu haqda Azərbaycan Milli Məclisinin deputatına Rusiyanın Azərbaycandakı səfirliyindən məlumat verilib. (modern.az)

**Qeyd edək ki, əslən Kəlbəcər rayonundan olan Dilqəm Əsgərov Rusiya vətəndaşıdır, Şahbaz Quliyevin həyat yoldaşı isə milliyyətcə rusdur.** Onların azad edilməsi üçün indiyədək bir neçə dəfə Azərbaycandan Rusiya tərəfinə müraciət ünvanlanıb. Dilqəm Əsgərov və Şahbaz Quliyev 2014-cü ilin iyul ayında Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş bölgəsinə - öz doğma torpaqlarına səfər edərkən Kəlbəcər rayonu ərazisində Ermənistan hərbçiləri tərəfindən girov götürülüblər. Onlarla birgə getmiş digər azərbaycanlı Həsən Həsənov isə qətlə yetirildikdən sonra meyiti Azərbaycana qaytarılıb.

**Oktyabrın 27-dən başlayaraq işğal altındakı Xankəndi şəhərində azərbaycanlı girovlara qondarma məhkəmə qurulub. Ermənilər onları diversant olmaqda günahlandırırlar.**



12 noyabrda Ağdam səmasında hərbi helikopterinin 3 pilotu ilə birgə məhv edilməsindən sonra çıxılmaz duruma düşən təcavüzkar ölkə öz dədə-baba yurduna, hətta keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aidiyyəti olmayan Kəlbəcər rayonuna gedən soydaşlarımıza məhkəmə qurmaqla azərbaycanlıların gözünü qorxutmaq, eyni zamanda Qarağda məskunlaşdırılan erməniləri xofdan xilas etmək istəyir. Hansı ki, Azərbaycan bu günlərdə xoş məram nümayiş etdirərək 5 ilə yaxındır qaçıb Azərbaycana sığınan və Bakıda yaşayan erməni ailəsini heç bir şərt qoymadan İrəvana təhvil verdi. Ermənilər isə bunun qarşılığında nəinki azərbaycanlı girovları azad etmək fikrinə düşdü, hətta girovlara ən ağır cəza istənildi, üstəlik erməni ailəsindən Azərbaycanın əleyhinə saxta ifadələr alındı.

**Şübhəsiz ki, Ermənistanın və Qarabağ separatçılarının beynəlxalq konvensiyaları tapdamasının ən birinci səbəbi onların Amerika və Avropadan adekvat münasibət görməməsidir.** ABŞ Konqresinin Azərbaycanın başının üzərində 907-ci düzəlişi Domokl qılıncı kimi asdığı halda, işğalçı Ermənistana, Qarabağ separatçılarına son 20 il ərzində 2 milyard dollardan artıq yardım göstərməsi düşmənin əl-qolunu açır. Elə ötən həftə ABŞ Konqresi Azərbaycana 13 milyon dollar, Ermənistana isə 25 milyon dollar yardım ayırdı. Hesab olunur ki, Avropa İttifaqı və ABŞ Ermənistanı yardımdan məhrum etsə, işğalçının ağlı başına gələr və mülki şəxslərə işgəncələr yaşatmaqdan vaz keçər, üstəlik torpaqları da azad edər. Ancaq ABŞ Dövlət Departamenti ermənilərə görə başsağlığı verdiyi halda, azərbaycanlı girovların taleyindən xəbərsiz olduğunu bəyan etməklə əslində ikili standartlardan çıxış etdiyini təsdiqlədi. Bu mənada ermənilərin D.Əsgərov və Ş.Quliyevə ağır cəza istəməsi təsadüfi deyil. Üstəlik, ABŞ və Avropa Ukraynadan qoparılan Krıma qarşı da sanksiyalrın tətbiqinə başladığı halda, Qarabağ separatçılarının lideri Bako Saakyanın həmsədr dövlətlər olan Fransa və ABŞ-da terrorçular üçün yardım toplanılmasında şəxsən iştirak edir.

**Hələ ki, Xankəndindəki sonuncu saxta proseslə bağlı rəsmi Bakının mövqeyi bəlli deyil.** Amma ilk gündən Azərbaycan XİN girovlarla bağlı məhkəməni sadəcə şou adlandırmışdı və onun qərarını tanımayacağını bəyan etmişdi.

**Sülh danışıqlarının dalana dirəndiyi bu arada ayrı-ayrı diplomatlar, həmçinin həmsədrlər növbəti mənasız cəhdlər göstərirlər.** "ATƏT-in Minsk qrupunun həmsədrləri alternativ, kreativ yollar tapmağa çalışır ki, Qarabağ münaqişəsinin tərəfləri əlaqədə olsun". Modern.az saytının news.am-a istinadən verdiyi məlumata görə bunu ABŞ-ın Ermənistandakı səfiri Con Heffern bu ölkədə diplomatik missiyasının bitməsi ilə bağlı keçirdiyi mətbuat konfransında deyib. Onun sözlərinə görə ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Qarabağ danışıqları üzrə yeni səviyyəyə keçməyin vacibliyini bildirib. Con Heffern qeyd edib ki, Minsk Qrupunun həmsədrlərinin əsas rolu tərəflərin danışıqlar masası ətrafında oturmasıdır: "Aydındır ki, əsas qərarlar prezidentlər səviyyəsində qəbul edilməlidir. İkitərəfli qarşılıqlı əlaqələr üçün başqa formatlar da var. Vasitəçilər prezidentlər səviyyəsində görüşlərə əlavə ediləcək bu formatları tapmağa çalışırlar".

# İrəvan qarışdı; ermənilər Sərkisyan rejiminə 3 gün vaxt verdi



## Bu ölkədə qiymətlər durmadan artır

**Qazaxıstanın ardınca Belarus parlamentinin aşağı palatası - Nümayəndələr Palatası dekabrın 19-da Ermənistanın Avrasiya İqtisadi İttifaqına qoşulması ilə bağlı müqaviləni təsdiqləyib. ("Media forum") Avrasiya İqtisadi İttifaqını bu il mayın 29-da Rusiya, Qazaxıstan, Belarus yaradıblar. Ermənistanın bu ittifaqa qoşulması haqqında müqavilə Ali Avrasiya İqtisadi Şurasının oktyabrın 10-u Minskdə keçirilən sammitində imzalanıb. Rusiya, Qazaxıstan, Belarus, Ermənistan prezidentlərinin imzaladığı müqavilə dörd ölkənin parlamentində təsdiqlənməli və 2015-ci il yanvarın 1-dən qüvvəyə minməlidir. Ermənistan parlamentində bu proses yekunlaşıb, Rusiyada müqaviləni Dövlət Duması ratifikasiya edib, Qazaxıstan parlamentinin isə hər iki palatası təsdiqləyib.**

"Ermənistan Avrasiya İqtisadi İttifaqına (AİI) qoşulduqdan sonra Dağlıq Qarabağ (Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazisi - red.) bu ittifaqa qoşulmayacaq". "Trend"in BELTA-ya istinadən verdiyi məlumata görə, bunu Belarus xarici işlər nazirinin birinci müavini Aleksandr Mixneviç dünən Ermənistanın AİI-yə qoşulması haqqında müqavilənin paraflanmasına dair qanun layihəsini təqdim edərkən bildirib. Nazir müavini izah edib ki, Ermənistan tərəfi bu məqama şərt qoyan nota hazırlayıb: "Bizim Ermənistanın tərkibinə daxil olmayan ərazilərin Gömrük İttifaqının tərkibində ola biləcəyi ilə bağlı narahatlığımız var idi. Ermənistan tərəfi bu tələbi anlayışla qəbul etdi. Dağlıq Qarabağın Ermənistan ərazisi olmaması ilə bağlı nota müqaviləyə əlavə edildi. Ermənistan tərəfinin rəsmi şifahi bəyanatı verildi".

O, qeyd edib ki, Ermənistanı Gömrük İttifaqının de-fakto iştirakçısı və AİI-nin gələcək üzvü etmək üçün hər hansı maneə yoxdur.

Ancaq Rusiyanın sanksiyalar içərisində boğulduğu şəraitdə onun üçün əslində yükə çevrilən Ermənistanın Gömrük İttifaqına qoşulması İrəvanda gərginliklərlə müşahidə olunur. Belə ki, rublla parallel şəkildə Ermənistanda milli pul vahidi dramın dəyərsizləşməsi və bahalaşmaya qarşı İrəvanda etiraz aksiyaları başlayıb. APA-nın news.am saytına istinadən verdiyi xəbərə görə, dünən xeyli insan paytaxtda hökumət binasının qarşısına toplaşıb. Narazı insanlar 6 tələb irəli sürərək hökumətin ayın 23-nə qədər bu tələbləri yerinə yetirməsini istəyiblər və əks halda, oliqarxların super marketlərindən alış-veriş etməyəcəklərini bildiriblər. Aksiya iştirakçıları zəruri istehlak mallarının və xidmətlərin qiymətlərinin böhrandan əvvəlki həddə endirilməsini, qazdoldurma stansiyalarında qazın qiymətinin aşağı salınmasını, vətəndaşların dollarla olan kredit borclarının yenidən hesablanmasını, bütün inhisarların aradan qaldırılaraq bazarın liberallaşdırılmasını tələb ediblər. Aksiyanın təşəbbüskarları bəyan ediblər ki, bu tələblər yerinə yetirilməsə, ölkədə sosial partlayış baş verəcək.

Ermənistanda qazın qiymətinin artmasına etiraz edən taksi sürücüləri isə planlaşdırılmış aksiyalarını yanvarın 15-dək təxirə salıblar. Bu barədə AzVision.az erməni mətbuatına istinadən məlumat verib. Hökumətə 27 gün möhlət verən taksi sürücüləri tələbləri yerinə yetirilməyəcəyi təqdirdə bütün yolları bağlayacaqlarını bəyan ediblər.

Qeyd edək ki, qaz tariflərinin artması ilə əlaqədar olaraq, Ermənistanda ictimai nəqliyyat vasitələrində gediş haqqının da artacağı gözlənilir. Odur ki, digər sürücülər də etiraz aksiyası keçirəcəklərini bildiriblər: "Tariflərin artması heç kimə sərf etmir. Bizim də ailə üzvlərimiz nəqliyyatdan istifadə edirlər. Buna görə də qazın qiymətinin düşməsini istəyirik. Əks halda, gediş haqqı da artacaq".

Xatırladaq ki, Ermənistan hökuməti mitinqlərin qarşısını almaq məqsədilə qaz tarifləprinin artırılmayacağına söz versə də, bu elə söz olaraq qalır.

Ermənistanda ərzaq məhsulları sürətlə bahalaşmağa başlayıb. APA-nın Ermənistan mətbuatına istinadən verdiyi məlumata görə, bunu Ermənistanın baş naziri Ovik Abramyan Nazirlər Kabinetinin dünənki iclasında bildirib.

**O, iqtisadi rəqabətin qorunması üzrə komissiyasının sədri Artak Şabonyana tapşırıb ki, onu kütləvi istehlak mallarının qiymətlərinə dair gündəlik məlumatlarla təmin etsin.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014

# İsmayıl Ömərova şok ittihamlar

## İTV-nin sabiq sədri və yaxınları şəriklərinə böyük pullar "atıb"; keçmiş iş ortaqları prezidentdən kömək istəyir


İsmayıl Ömərov

**İctimai Televiziyanın keçmiş sədri İsmayıl Ömərov, onun qardaşları və digər yaxınlarından prezidentə, əksər dövlət orqanlarına şikayət olunub. Şikayətçilər Elçin Zülfüqar oğlu Babayev, Ədalət Dövlət oğlu Mikayılov və Mehdi Vaqif oğlu Həsənov yazırlar ki, Ömərovlarla 2005-ci ildə şərikli tikinti işləri aparmaq qərarına gəliblər.**

"Ələsgər Ömərov tikinti biznesinə girdiyini və bizə də bu işdə onunla şərik olmağı təklif etdi. O, hətta böyük qardaşı İsmayıl Ömərovun da onunla birgə bu işdə şərik olduğunu bildirdi. İsmayıl Ömərov həmin dövrdə İctimai Televiziyanın baş direktoru vəzifəsində çalışırdı. Ələsgər gördükləri iri həcmli işlərdən, qardaşı İsmayılın dövlət qulluğunda olduğu üçün bu işlərə yalnız kənardan şəriklik etdiyini və nəzarət etməklə bərabər, hər cür köməklik göstərdiyini, maliyyə işlərinə isə birbaşa rəhbərlik etdiyini bildirib bizi birgə işləməyə, birlikdə sərmayə qoymaqla işləri daha da genişləndirməyə dəvət etdi. Bu işdə qardaşı İsmayılın da şəxsi razılığı olduğunu bildirdi" - deyə, məktub müəllifləri yazırlar.

Şikayətçilər r qeyd edirlər ki, Ə.İsmayılov bundan sonra onları Tiflis prospekti, Diaqnostika Mərkəzi ilə "Qaçqınkom"un arxa hissəsində yerləşən və 2 hektara yaxın olan sahədə apardıqları tikinti işinə şərik edəcəklərini söyləyib: "Ələsgər həmin ərazidə 45 ədəd villa tikiləcəyini, burada şəriklər olduğunu, lakin həmin şəriklərin hamısını bir növ eyni ailənin üzvləri olduğunu bildirdi. Belə ki, tikinti şirkətinin əmisi oğlu Alim Ömərovun adına olması haqda və tikintinin sənədlərini göstərdi. Dedi ki, tikinti bir neçə il davam edəcək və buna görə də biz pulları hissə-hissə də verə bilərik. Bu isə bizi ürəkləndirdi. Hətta Ələsgər 45 ədəd villanın necə bölündüyünü də açıqlamışdı. Bölgüyə görə İsmayıl Ömərov, Ələsgər Ömərov, Alim Ömərov, Akifə Ömərov və İsmayılın yaxın dostu olmaqla hər birinə 9 villa düşürdü. Bizi isə İsmayıl və Əlsəgər Ömərovlara məxsus olan 18 villadan 4 ədədinə şərik ediləcəkdik. 4 ədəd villaya görə biz 950 min manat pul ödəməli idik. O, hətta digər şəriklərin də sənədsiz bu işə şərik olduğunu, hamının bir-birinə böyük inamının olduğunu deməklə sözlərinin səmimiliyini sübut etmək üçün atası Abbasın goruna, həyat yoldaşı və 2 qızının namusuna, İsmayılın və oğlunun canına and içib bizi İsmayılla da görüşdürəcəyini bildirdi. Bir insan kimi belə anda inanmaya bilməzdim".

**Məktub müəllifləri yazırlar ki, bir villa bütün izafi xərclərlə birgə 230-235 min manata başa gəlib və buna görə də Ə.Ömərova 500 min manat 2005-ci ildə, 450 min manat 2007-ci ildə veriblər:** "Ələsgər bir müddət sonra bizə bildirdi ki, İsmayıl tapşırıq verib ki, həmin pulların yerinə bizə təzə tikdikləri digər obyektlərdən pulları 100 faiz ödəməklə müqavilələr verilsin. Hətta 500 min manatın 275 min manatına da təzə tikililərdən olan "Fateh" MMC-nin adından 1100 kvadrat metr mənzillərin müqavilələri təqdim edildi. 500 min manat vəsait notarius vasitəsi ilə qeydə alındı, 450 min manat üçün isə 2 ədəd müqavilə - qeyri-yaşayış sahəsinin sənədləri bizə təqdim edildi.

Ələsgərə etirazımı bildirən zaman o, Alimin oğlu ilə öz qızı arasındakı nişan məsələsinin pozulduğu üçün 2 qardaş və əmi oğlu arasında müvəqqəti səriklik olduğunu dedi. Ona görə də müqavilə təqdim etməklə bizi bir qədər səbr etməyi, hətta İsmayılın da çox xahiş etdiyini bildirdi. Aramızda olan münasibətə görə biz bu işə çox da əhəmiyyət vermədik. Hətta bir müddətdən sonra Ələsgər İsmayıl tərəfdən 1 ədəd villanın 600 min manata satıldığını bizə bildirdi. Bizə 300 min manat pul çatacağı halda o, 2 il müddətinə bizə 200 min manat verib, qalan pulları tikintinin sürətləndirilməsinə yönəltdiklərini bildirdi. Beləliklə bizim verdiyimiz pulun məbləği 750 min manat və şərik olduğumuz villaların sayı 3-ə düşdü. Biz villaları adımıza keçirməyi xahiş etdik. Ələsgər yenə də özünün və İsmayılın adından xahiş edib bir qədər də dözməyi, hətta bəyəndiyim 3 villanı nişanlamağı belə təklif etdi. 2009-cu ildə qardaşlar Hüseyn Cavid prospektində 8 binadan ibarət böyük bir kompleksin tikintisinə başladılar. Hətta Ələsgər məndən bu işə də şərik olmağı təklif etdi. Lakin mən etiraz etdim. Amma ona kömək etmək məqsədi ilə 2011-ci ildə 260 min manat verib 2 ədəd 3 və 4 otaqlı mənzil aldım. 3 otaqlı mənzil olan bina artıq tamamlanırdı. 4 otaqlı isə tikilmək üçün hazır vəziyyətdə idi. Əlavə olaraq mən Ələsgərə tikintiyə kömək məqsədi ilə 100 min manat da verdim. Aldığım hər 2 mənzilin müqavilələrinin pulu 100 faiz ödənilməklə mənə təqdim edildi. Lakin villaların adımıza keçirilməməsi sonda aramızda böyük mübahisənin başlanmasına səbəb oldu".

**Məktub müəllifləri yazırlar ki, 2012-ci ildə Ömərovlarla aralarındakı söhbəti birdəfəlik həll etməyə çalışıblar:** "Ələsgərə dedim ki, əks halda bütün münasibətlərimiz pozulacaq. 3 ay müddətində bu məsələni 100 faiz həll edəcəyini, hətta İsmayılın da çox narahat olduğunu bildirdi. Söz verdi ki, bu müddətdə Alimlə mütləq barışacaq və 3 müqaviləni bizə təqdim edəcək. Lakin Ələsgər qəflətən rəhmətə getdi. Hüzr məclisində eşitdiyim bəzi sözlər məni narahat etməyə başladı. İsmayılın xahişinə görə aramızda olan münasibətlər barədə həmin vaxta qədər hətta Alimlə belə söhbət etmirdim. Lakin Ələsgərin ölümündən sonra məcburiyyət qarşısında Alimdən məni İsmayılla görüşdürməyi xahiş etdim. İsmayılla 2014-cü ildə görüşə bildim və mənə aydın oldu ki, qardaşlar tərəfindən aldanmışam. Onlar mənə sənədlə verdikləri mənzil və qeyri-yaşayış obyektlərini 2-ci şəxslərə sataraq dələduzluqla məşğul olublar. Pulların verildiyi tarixlə indiki zaman müddətində indeksasiya aparılmasını və bizim nə qədər məbləğ itirdiyimizi araşdırmağı və bərpa etməyi xahiş edirik.

İsmayıl mənimlə bir dəfə görüşdükdən sonra düz olduğumu, bütün sənədlərimin yerində olduğunu görüb məndən qaçmağa başladı. Budur Ömərov qardaşlarının bizim başımıza açdığı oyunlar. Mən artıq hər şeyimi itirmişəm, maddi və mənəvi cəhətdən məhv edilmiş bir insan kimi son ümid yerim sizləri bilərək müraciət edirəm. Məni və yaxınlarımı aldadaraq əlimizdən aldıqlarını qaytarmaq üçün Ələsgər və İsmayılın kifayət qədər əmlakı vardır. Hazırda Ələsgərin yerinə onun biznesinə İsmayıl rəhbərlik edir, kim güclüdürsə, arxasında dayağı varsa onların bütün tələblərini yerinə yetirir. Bizim kimi dayağı olmayan insanları saymır, şəxsən mənim telefon zənginə belə cavab vermir. Xahiş edirəm, bizim aldadılaraq əlimizdən alınmış maddi vəsaitlərimizi bərpa edin. Bizi bürokratik qurumların əllərinə salmayın".

❑ **E.HÜSEYNOV**

P.S Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.

# Nikah mətni dəyişdirilsinmi?

## Mehriban Vəzir: "İndiki mətndə dilimizin zərifliyi, incəliyi, ruhdan gələn heç bir şeyi yoxdur"

**Artıq Sovet dövründən bu günə kimi illərdir ailə quran gənclərin nikah mərasimi eyni mətnlə həyata keçirilir. Nikah mətninin dəyişdirilməsi məsələsi müxtəlif vaxtlarda gündəmə gətirilsə də, heç bir nəticəsi olmayıb. Dünya ölkələri ilə müqayisədə Azərbaycanın nikah mətni olduqca uzun və qurudur. Həmçinin mətnin sözlərində dilimizin incəlikləri qorunub saxlanılmayıb.**

Nikah mətni rus dilindən tərcümə olduğu üçün düzgün məna ifadə etmədiyini düşünənlər də az deyil. Əvvəlcə nikah mətnini olduğu kimi təqdim edək: "Əziz dostlar, bu gün sizin, qohumlarınızın və dostlarınızın həyatında ən təntənəli bir gündür. Siz müqəddəs ailə, məhəbbət və dostluq ittifaqına daxil olursunuz. Qoy bu gündən etibarən həmin tarix yeni və xoşbəxt bir ailənin yaranması kimi bayram edilsin. Sizi bura gətirən gözəl hisslər qoy daim qəlbinizdə yaşasın. Sizə bu həyat yolunda böyük uğurlar arzulayırıq. Bu gün sizin üçün toylu düyünlü həm də məsuliyyətli gündür. Siz öz üzərinizə böyük öhdəliklər götürür, həyatdakı ən məsuliyyətli addımlarınızı atırsınız. İcazə verin təntənəli nikah mərasimi qarşısında sizə bir sual verim: Nikaha daxil olmaq barədə ətraflı düşünmüsünüzmü? (cavab verilir). Azərbaycan Respublikasının Ailə Məcəlləsinə müvafiq olaraq hər ikinizin qarşılıqlı razılığına əsasən sizin nikahınız qeyd olunur. Xahiş edirəm öz ittifaqınızı imzalarınızla təsdiq edəsiniz. Nikahın qeyd olunması şərəfinə məhəbbət və sədaqət rəmzi olan nişan üzüklərinizi dəyişdirin. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən sizin nikahınız qanuni hesab edilir".

Bir müddət əvvəl **Filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə** nikah mətninin dini inamımızı və milli mentalitetimizi əks etdirmədiyini deyərək yeni bir nikah mətni təklif etsə də, bu, qəbul edilmədi. Qonşu ölkələrin nikah mətninə nəzər salsaq görərik ki, onlar olduqca sadə və incə bir dildədir. Müqayisə üçün qonşu Türkiyənin nikah mətninə nəzər salsaq, bunu açıq şəkildə görərik. Burada öncə gəlinin, bəyin və şahidlərin ad soyadları soruşulur. "Gənclər evlənmək üçün bələdiyyəmizə müraciət ediblər. Sənədlərində aparılan incələmələr zamanı evlənmələri üçün maneə yaradacaq bir hal olmadığı məlum olub. Şahid və dəvətlilərin qarşısında özlərindən bir daha soruşuram. Heç bir təsir altında olmadan, öz rizanızla, xəstəlikdə və sağlıqda bir yerdə olmağı, (ad soyad) evlənməyi qəbul edirsinizmi?(cavablar alınır) Şahidlər, siz gənclərin cavablarına şahidlik edirsinizmi? Bələdiyyənin mənə verdiyi səlahiyyətə əsaslanaraq sizləri evli elan edirəm".

Müqayisəyə diqqət etsək, Azərbaycan və Türkiyənin nikah mətnindəki fərqi açıqca görərik.

**Yazıçı, publisist Mehriban Vəzir** də nikah mətnimizin olduqca quru bir dildə yazıldığını və bunun dəyişdirilməsinin vacibliyini vurğuladı: "Nikah zamanı oxunan mətn rus dilindən tərcümədir və çox naşı tərcümə edilib. O mətndə dilimizin zərifliyi, incəliyi, ruhdan gələn heç bir şeyi yoxdur. Diqqət etmisinizsə mətndəki bir yer xüsusilə gülüş doğurur. Orada deyilir ki, üzüklərinizi dəyişdirin. Bu rus dilində elə də pis səslənmir. Ancaq dilimizə çevirəndə bu söz mənasız bir ifadəyə çevrilir. Bu sözü üzüklərinizi taxın və ya buna uyğun sözlərlə əvəz etmək olardı. Bu xırda məslə olsa da, insanın həyatındakı mühüm bir günü əks etdirir. Bu hadisə demək olar ki, disklərə yazılır və hər bir evdə qalır. Bəlkə də gələcəkdə bu mətn daha da təkmilləşib mükəmməl olacaq və bu disklərdə həmin mətnlərə qulaq asan gələcək nəsil bizə güləcək. Bu məsləyə diqqət yetirmək lazımdır. Dilimizin gözəl, lakonik, yığcam sözlərindən istifadə edərək mətni dəyişdirmək lazımdır".


Mehriban Vəzir

Qeyd edək ki, ölkəmizdə nikah məmurunun yeni evlənənlərin nikahını toy keçirilən şadlıq evinə gəlib qıyması ilə nikah evində qıymasının məbləği də fərqlidir. Belə ki, evlənmək istəyən gənclər "Asan Xidmət"ə müraciət edib bir ay müddətinə həmin qurumda 5 manat dövlət rüsumu ödəməklə nikaha daxil ola bilərlər. Ancaq nikahın elə toy zalında həyata keçməsini istəyən gənclər nikah məmurunun toy zalına gəlməsi üçün 170 manat ödəməlidir.

**Xatırladaq ki, elə bu günlərdə Prezident İlham Əliyev Ailə Məcəlləsinə dəyişikliklər edilməsi barədə qanunu təsdiqləyib.** Dəyişikliyə əsasən, nikah müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlana bilər. Nikaha daxil olmaq istəyən şəxslər siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəliklər üzrə tibbi müayinədən keçirlər. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi, habelə həmin şəxslərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların müraciəti ilə yaşayış yeri üzrə dövlət və (və ya) bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış onların müvafiq icra hakimiyyəti orqanına nikaha daxil olmaq barədə verdikləri ərizəyə əlavə olunur. Nikaha daxil olmaq barədə ərizəyə nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilir. Bu qanun 2015-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

❑ **Günel MANAFLI**

**"Birinci onu deyim ki, diplomatik korpusdakı görüşdə bizimlə bununla bağlı söhbət olmayıb. Başqaları ilə olub-olmadığını deyə bilmərəm. Amma onlar desə də, deməsə də birlik həmişə yaxşı bir işdir. Birlik qüvvələri toparlamağa xidmət edir. Biz proseslərin necə olmasından və ya bir-biri ilə hansı məsafədə dayanmasından asılı olmayaraq, siyasi təşkilatların proseslərə bir yerdə getməsinin tərəfdarıyıq. Yetər ki, bunun üçün istək olsun".**


Zəfər Quliyev

# Qərb müxalifətin yeni koalisiyasını yaratmaq istəyir?

## Zəfər Quliyev: "Zəifləmiş müxalifətin başqa çıxış yolu da yoxdur"

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə** bu fikirləri ABŞ-ın Azərbaycandakı diplomatının AXCP, Müsavat və Ümid rəhbərliyi ilə görüşünün rəsmi Vaşinqtonun 2015-ci ildə parlament seçkilərinə daha həssas yanaşacağının əlaməti kimi şərh olunmasına münasibət bildirərkən söylədi. Qeyd edək ki, Qərbin seçkilər öncəsi müxalifətin yeni koalisiyasının yaradılmasında maraqlı olduğu da gələn xəbərlər sırasındadır. İ.Ağazadəyə görə, heç kəs fikirləşməsin ki, birlik olanda kimsə kiminsə əvəzinə işləyəcək və ya proses aparacaq: "Bu məsələlərdə hər kəsin məsuliyyəti fərdidir. Çünki 125 dairə üzrə bölünən namizədlər təbii ki, ümumi xeyir götürəcəklər, amma sonda yenə də fərdi işləniləcək. Buna görə də istəyir namizədliyini tək, istəyir koalisiya ilə ver, bu yük namizədin və partiyanın üzərinə düşəcək. Birlikdə daha çox iş görmək mümkündürsə, nədən o birliyə gedilməsin ki? Aradakı problemləri kənara qoyub da nədən insanlar seçki üzərində fokslaşdırılmasın. Ona görə də biz birlikdə problem görmürük, amma təbii ki, konturlarını danışmaq, müzakirə etmək olar". **Hər hansı bir partiyanı qəbulolunmaz hesab etmədiklərini vurğulayan Ümid sədri deyir ki, təkcə 3 partiyadan ibarət yox, daha geniş koalisiya yaratmaq, geniş spektrlə bir yerdə olmaq mümkündür:** "Buna hamının həvəsi olar və yeni bir proses başlayar. Bizə münasibətlərindən asılı olmayaraq bizim üçün qəbulolunmaz partiya anlayışı yoxdur".

**Qeyd edək ki, İ.Ağazadə hələ bir neçə il öncə 125 dairə üzrə vahid namizədlərin müəyyənləşdirilməsi, bu istiqamətdə iş aparılmasını təklif etmişdi. Hazırkı situasiyada bu ideyanın müxalifət cəbhəsində gerçəkləşdirilməsi real görünürmü?** **İ.Ağazadə:** "Biz bu gün o prosesi aparırıq. Mən də "125-lər"də təmsil olunuram, amma "125-lər"-in sözçüsü deyiləm, bu qurumun başqanı, İdarə Heyəti, onun müavinləri var. Mən o prosesdə fərdlərdən biriyəm. Biz o prosesi onsuz da aparacağıq, nə qədər uğurlu aparacağıq, yaxud qalib gələcəyik, hələlik bunu demək mümkün deyil. Əgər bu proses gedəcəksə, təbii ki, "125-lər" də cəmiyyətin ictimai-siyasi statusuna və tanınmasına görə heç bir partiya funksionerindən geridə deyil, hətta əksəriyyəti irəlidədir. Müxalifətin koalisiyası alınarsa, mahiyyət 125 olacaq, söhbət demokratikləşmədən gedir. Amma "125-lər"də təmsil olunanlar da orda təmsil oluna bilər".

**Maraqlıdır, keçirdiyi görüşlərdən sonra partiya sədrlərində hansı qənaət yaranıb, Qərb Azərbaycan müxalifətinin parçalanmış durumda olmasından narahatdırmı və demokratik qüvvələrin birləşməsini istəyirmi? İ.Ağazadə protokola zidd olaraq detalları açıqlamaq istəmədi və qısaca cavab verdi:** "Qərb təbii ki, demokratikləşmə istəyir. Amma bununla bağlı özlərinin resepti yoxdur".

**Siyasi şərhçi Zəfər Quliyev** istisna etmir ki, ABŞ Azərbaycandakı parlament seçkiləri ərəfəsində Azərbaycandakı proseslərə xüsusi diqqət yetirə bilər: "Seçkilərin şəffaflığı, müxalifətin fəal iştirakı və parlamentdə yer qazanması uğrunda Vaşinqtonun səy göstərəcəyini də istisna etmək olmaz. Lakin hesab etmirəm ki, bu, iqtidara təzyiq siyasəti nəticəsində həyata keçirilə bilər. Güman edirəm ki, bu, əvvəlki illərdəki kimi bir istək kimi iqtidarla danışıqlarda nümayiş olunacaq. Aydındır ki, Amerika rəqabət atmosferini gücləndirməyə, şəffaflığa çalışacaq. Ancaq seçim Vaşinqtonun deyil, rəsmi Bakının olacaq".

Z.Quliyev deyir ki, Azərbaycan iqtidarı parlament seçkiləri ilə bağlı nəyi nəzərdə tutubsa, ilk növbədə həmin ssenari həyata keçiriləcək: "Eyni zamanda güman etmirəm ki, Vaşinqton üçün indiki mərhələdə Azərbaycandakı parlament seçkiləri ən önəmli məsələdir. Müxalifətin seçkilərdə iştirakı, neçə yer qazanması təbii ki, önəmlidir. Ancaq nə qədər önəmli olsa da, indiki mərhələdə Azərbaycan iqtidarı ilə münasibətləri normallaşdırmaq və rəsmi Bakını Qərblə sıx əməkdaşlığa dəvət etməsinə nail olmaq ABŞ üçün daha prioritet məsələdir. Nəzərə alsaq ki, Rusiyadakı böhranı Vaşinqton və Bakı geosiyasi məsələlərində, əməkdaşlığın yenidən intensivləşməsində dil tapa biləcəklər. Bu mənada indiki gərginlik müvəqqəti xarakter daşıyır".

**Z.Quliyev hesab edir ki, indi hələlik yeni siyasi koalisiyanın yaranması real görünmür:** "Müxalifətin bu qədər dağınıq vəziyyətini nəzərə alsaq, hətta bir sıra partiyaların və liderlərin bir-biri ilə daim aqressiv rəqabətini nəzərə alsaq, yeni koalisiyanı hələlik proqnozlaşdıra bilmirəm. Lakin bu variantı istisna da etmək olmaz. Zəifləmiş müxalifətin başqa çıxış yolu da yoxdur, bütün güclər bir yerə toplamalıdırlar. Lakin hətta bu koalisiya alınacaqsa da, koalisiyanın seçkilərdə ciddi uğur qazanacağına, elektorat tərəfindən ciddi dəstəyə nail olmazına şübhə ilə yanaşıram. Müxalifət müstəqillik dövründə özünün bəlkə də ən zəif mərhələsini yaşayır. Hakimiyyət seçkilərdə zəifləmiş müxalifət üçün bir qədər əlverişli şərait yaratmasa, inandırıcı görünmür ki, müxalifət öz gücünün hesabına ciddi uğur qazana bilər. Yeni seçkilərin taleyi hakimiyyətdən asılıdır. Düzdür, Qərbin təsiri var. Amma ilk növbədə hakimiyyətin niyyətindən, onun ssenari və planlarından asılı olacaq".

❑ **Cavid TURAN**

# "Rusiyanın sanksiyalardan qurtuluşu Ukrayna siyasətində yumşalmadan asılıdır"

## Rasim Musabəyov Putinin verdiyi son mesajları şərh etdi

**Rusiya prezidenti Vladimir Putin keçirdiyi son mətbuat konfransında bir çox mətləblərə aydınlıq gətirdi, siyasi mesajlar verdi. Putin qeyd etdi ki, cəmi 2 xarici hərbi bazası var, Tacikistanda və Qırğızıstanda, onların da hər ikisi terror mərkəzlərinin yaxınlığındadır. ABŞ-ın isə Avropadakılar da daxil olmaqla, çoxlu hərbi bazaları var: "Belə olan halda kimdir özünü aqressiv aparan, biz, yoxsa ABŞ? Raketdən Müdafiə Sistemləri haqda razılaşmanı kim pozub? - ABŞ".**


Rasim Musabəyov

Rusiyadakı böhrandan danışan V.Putin deyib ki, krizisin səbəbinin yalnız 30 faizi Qərbin sanksiyalarıdır: "Biz ya müstəqil iqtisadiyyat yaratmalıyıq, ya da məhv olmalıyıq. Rusiyadakı böhran Krıma görə intiqamın nəticəsi deyil.

Bu, Berlin divarından sonra Rusiyaya qarşı davam edən məkrli planlardır. Berlin divarı söküləndən sonra Qərb dayanmadı, divarı Rusiyaya tərəf gətirməyə başladı. PRO sistemləri belə divardır. Uzağı 2 ilə Rusiyadakı böhran aradan qalxacaq. Amma bundan əvvəl də baş verə bilər. Mərkəzi Bankın və dövlətin ehtiyatları var".

**Deputat, politoloq Rasim Musabəyov** hesab edir ki, Rusiya toplanan ehtiyatlara arxalanır. Politoloqun fikrincə, Putinin çıxışı ölkənin belə situasiyalara hazır olmadığını sübut etdi: "Putin iki ilə böhranın aradan qalxacağına ümid edir.

Neftin qiyməti qalxacaq, enerjiyə tələbat artacaq və Rusiya vəziyyətdən çıxacaq. Bu, passiv yanaşmadır. Azərbaycan kimi balaca ölkə belə bir çıxış etsəydi başa düşmək olardı. Ancaq fövqəlgücə çevrilmək istəyən dövlətin başçısı belə yanaşma ortaya qoymamalıdır. Bu, müəyyən zəifliyin aşkar olunmasıdır. Çünki Rusiya dünya iqtisadiyyatından asılıdır".

**R.Musabəyov Rusiya-Çin-Türkiyənin birgə anti-ABŞ koalisiyası yaradacağını güman etmir:** "Çin və Türkiyə Rusiyaya qarşı sanksiyalara qoşulmur. Ancaq bu iki ölkənin Rusiya ilə anti-ABŞ koalisiyasına qoşulacağı mümkün deyil. Nə Çin, nə Türkiyə Amerikaya qarşı çıxır. Ancaq Rusiyanın Çin və Türkiyə ilə yaxınlaşması ölkəni sanksiyalardan qoruya bilməyəcək. Bu ölkələrin dünya maliyyə sisteminin idarəçiliyində iştirakı yoxdur.

Ona görə onlar Rusiyaya kömək edə bilməz. Əvvəla, Rusiya texnoloji cəhətdən Qərbdən asılıdır. Ümumiyyətlə, bu ölkənin modernləşməsi Qərbdən asılıdır. Rusiya müasir texnikanın satışına qadağa qoyur, ABŞ texnologiyasının satışına icazə vermirsə, bu ölkəni inkişafdan saxlayacaq. Rusiyanın sərt şəraitdə neft istehsalını həyata keçirən müasir qurğulara ehtiyacı var. Ona Türkiyə və Çin bu mənada kömək edə bilməz".

**Politoloq bununla belə, Rusiyanın çökəcəyinə də inanmır:** "Mən demirəm ki, Rusiya dağılacaq, çökəcək. Rus xalqı dözümlü xalqdır. Ancaq müəyyən sahələrdə geriləmə olacaq. Rusiyanın sanksiyalardan qurtuluşu Ukrayna siyasətində yumşalmadan asılıdır. Putin də ən uzunmüddətli hesab olaraq 2 ili götürüb ki, ölkə bu vaxt ərzində böhrandan çıxacaq. İndiki siyasəti isə öz ehtiyatlarına arxalanıb yürüdür".

❑ **E.SALAMOĞLU**

# ABŞ-dan hakimiyyətə yeni mesajlar

## Tom Malinovski: "Azərbaycanda baş verənləri başa düşmək Amerikaya çox çətindir"


Tom Malinovski

**ABŞ dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə yardımçısı Tom Malinovski "Azadlıq" radiosunun rusdilli "Nastoyaşeye Vremya" televiziya proqramına müsahibəsində Azərbaycandakı repressiv vəziyyət, o cümlədən jurnalist Xədicə İsmayılın həbsi barədə də suallara cavab verib. Müsahibənin həmin hissəsini təqdim edirik.**

***- Gəlin Ukraynadan insan haqları məsələsində təşviş yaradan regionun digər ölkələrinə keçək. Belə ölkələrdən biri də Azərbaycandır. Yəqin ki, sualımı təxmin edirsiniz - Xədicə İsmayıl. Bir müddətdir ki, onu həbs ediblər, amma Azərbaycanda jurnalistlər, vətəndaş cəmiyyəti fəallarına qarşı repressiyalara son qoymaq istiqamətində ABŞ-dan hansısa addım görmürük.***

- Biz bunu çox aydın demişik, müsaidənizlə bir daha vurğulayım: hər hansı bir yerdə olduğu kimi Azərbaycanda da heç kim öz fikirlərini dinc yolla ifadə etdiyinə və jurnalist fəaliyyətinə görə həbs olunmamalıdır. Biz Azərbaycan hakimiyyətinə birmənalı şəkildə çatdırmışıq ki, "Azadliq" radiosunun jurnalisti də daxil olmaqla, bu adamların azad olunmasını görmək istəyirik.

***- Deklarasiya kimi səslənir. Adamların həbsdən çıxarılması üçün belə bəyanatlardan əlavə Azərbaycan hakimiyyətinə qarşı hansısa başqa təsirli addımlar atılırmı?***

- Hazırda biz Azərbaycanın yüksək rəhbərliyi səviyyəsində ciddi müzakirələr aparırıq. Onlar başa düşürlər ki, vətəndaş cəmiyyətini boğmaqla müstəqillik qazanandan bəri mövcud olan ABŞ-Azərbaycan münasibətlərini təhlükə altında qoyurlar.

***- Azərbaycan hakimiyyətini bu məsələdə nəsə görməyə söv edəcək imkanınız varmı? Ümumiyyətlə, "böyük narahatlıq", "dərin narahatlıq" bəyanatlarından başqa hakimiyyətə hansısa başqa təsir vasitələriniz varmı? Daha nə baş verməlidir ki, bu narahatlıq bəyanatları konkret əməllərə çevrilsin?***

- Baxarıq. Hələlik ancaq onu deyə bilərəm ki, 20 ildən artıqdır, Azərbaycan ABŞ-la kifayət qədər yaxşı münasibətlərdə olub. Bəzən aramızda insan haqları məsələri də daxil olmaqla müəyyən mövzularda fikir ayrılığı yaranlıb. Amma həmişə münasibətlərin ABŞ-ın və xüsusilə Azərbaycanın xeyrinə olan vəziyyətdə qalmasına nail olmuşuq.

Son aylarda Azərbaycanda baş verənləri başa düşmək ABŞ-a çox çətindir. Bu addımlar bizim münasibətləri sual altına salır. Hazırda biz Azərbaycan hakimiyyəti ilə müzakirələrdə onlara bunu imkan daxilində aydın çatdırmağa çalışırıq.

***- Gözləntiləriniz nədir? Yaxın vaxtlarda bu adamların azad ediləcəyinə ümid bəsləməyə dəyərmi?***

- Nəyin nə vaxt baş verəcəyini deyə bilmərəm. Mənim işim tərəqqinin proqnozu yox, onun həyata keçririlməsidir. Növbəti addımın necə olacağı Azərbaycan hakimiyyətinin əlindədir.

YENİ MÜSAVAT
N 310 (6019) 20 dekabr 2014

# Diplomatın məmur oğluna müdhiş ittiham

**«Azərbaycanın Avropa Şurası yanında keçmiş daimi nümayəndəsi, Azərbaycanın Kubadakı keçmiş səfiri, Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı yanında daimi nümayəndəsi Aqşin Mehdiyevin oğlu Samir Mehdiyev etibarımdan sui-istifadə edərək 7000 manat pulumu mənimsəyib». Bu sözləri musavat.com saytına şikayətçi Araz Yusifov deyib.**

Araz Yusifovun sözlərinə görə, Ədliyyə Nazirliyində çalışan Samir Mehdiyev onun üçün ABŞ-a viza düzəldəcəyi barədə vəd verib. Bu vədin əsasında ondan 7000 manat pul alıb. Amma sözünə əməl etməyib: «Mən təhsilimi davam etdirmək üçün ABŞ-a getmək istəyirdim. Bunun üçün də viza lazımdır. Vizanı almaq üçün isə müəyyən tələblər var. Hansı ki, o tələbləri mən qarşılaya bilmirəm. Buna görə də, başqa bir yol axtarmağa başladım. Fırıldaqçı olduğunu sonradan anladığım bir nəfər məni Samir Mehdiyevlə tanış etdi. Öyrəndim ki, Samir Mehdiyev Penitensiar Xidmət də mayor vəzifəsində çalışır. Atası da Azərbaycanın Avropa Şurası yanında keçmiş daimi nümayəndəsi, Azərbaycanın Kubadakı keçmiş səfiri, Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı yanında daimi nümayəndəsi Aqşin Mehdiyevdir. Buna görə də ona inandım».

**A.Yusifovun dediklərinə görə, Samir Mehdiyev onun viza ala bilməsi üçün bir neçə saxta sənəd də düzəldib:** «S.Mehdiyev mənə dedi ki, bəs, məni atasının köməkliyi ilə ABŞ-a göndərəcək. Mənim üçün xüsusi dəvətnamə göndəriləcək və viza məsələm həll ediləcək. Bütün bunlar üçün isə məndən 7000 manat istədi. Mən də onun atasının nüfuzuna inanaraq, istədiyi məbləği ona verdim. Həmin məbləği 23 avqust 2014-cü il tarixində Binəqədi rayonunda fəaliyyət göstərən 11 saylı notariat kontorunda Samir Mehdiyevə vermişəm. Viza sentyabrın 18-də verilməli idi. Amma sonradan aydın oldu ki, o, məni aldadır. Müxtəlif bəhanələrlə pulumu vermir. Həmçinin bəlli oldu ki, o, saxta sənədlərlə vətəndaşları aldadıb onlara külli miqdarda ziyan vurub. Samir mənim üçün də saxta sənədlər hazırlayıb».

**A.Yusifov deyir ki, S.Mehdiyevin atasının vəzifədə olmasına görə, şikayətini heç bir qurum baxmır:** «Əlimdə bütün dəlillər var. Bu dələduzla bağlı Ədliyyə Nazirliyinə, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə, ombudsmana və digər dövlət orqanlarına müraciət etmişəm. Amma baxan yoxdur. Onun atasının nüfuzuna görə, hamısı məsələni işıqlandırmaqdan, araşdırmaqdan çəkinir. Heç kim bu saxtakarı həbs etmir. Axı bu adam həm mənə pul latıb», həm də saxta sənədlər düzəldib. Bu 7000 manat təkcə ona çatmayıb. Çünki viza üçün bəzi tələblər var. Misal üçün daimi iş yerim, yaxşı evim olmalıdır. Bunlar isə məndə yoxdur. Kasıb adamam. Rayondakı evimi satıb, Samirə 7000 manat pul vermişəm. O isə vəzifəli adamların əli ilə mənim üçün saxta sənədlər hazırlayıb. Guya Xətai rayonunda obyektim var, Binəqədi rayonunda da evim. Bu sənədləri hazırlayanlara da bu pullardan pay çatıb. Ona görə də, mənim məsələm işıqlanmır.

S.Mehdiyev mənə ödəməli olduğu 7000 manatın cəmisi 3000 manatını qaytarıb. Amma ANS Tv-ə verdiyi açıqlamada deyib ki, guya 4000 manatı qaytarıb və aramızda sadəcə borc məsələsi olub. Yalan deyir... O, hələ də mənə 4000 manat borcludur. Mən milyonçu deyiləm. Dörd min manat mənim üçün çox böyük məbləğdir».

Şikayətçi həmçinin əlavə edib ki, problemi həll olunmayacağı təqdirdə Azərbaycan vətəndaşlığından imtina etmək məcburiyyətində qalacaq.


Aqşin Mehdiyev


Samir Mehdiyev

Dələduzluqda ittiham olunan Samir Mehdiyevlə əlaqə saxlamağa çalışdıq. Amma telefon zənglərimizə cavab vermədi. İstənilən zaman adıçəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq!

❑ Məhəmməd TÜRKMƏN

# Şabran kənd bələdiyyəsində görünməmiş özbaşınalıq

**Şabran rayonu Zeyvə kənd sakini Elxan Məmmədov redaksiyamıza müraciət edərək kömək istəyib. Şikayətçi yaşadığı kəndin bələdiyyə sədri, 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində yenidən namizəd olan Cəmaləddin Nuryevin ona məxsus qanuni torpaq sahəsini rüşvət müqabilində başqasının adına keçirdiyini bildirib.**

Şikayətçi bələdiyyə sədrinin fərari olduğunu və buna görə cinayət məsuliyyətinə cəlb edildiyini deyib: "Nuriyev Cəmaləddin 10 ildir ki, bələdiyyə sədri vəzifəsindədir. 23 dekabrda yenidən bu vəzifəyə seçilmək niyyətindədir. O fəraridir. Hərbi Prokurorluğun apardığı araşdırma nəticəsində bu təsdiq olunub. Onun özü də ərizə əsasında fərari olduğunu etiraf edib. Bütün kənd sakinləri onun fərari olduğunu bilir. Onun yenidən bələdiyyə sədri seçilmək niyyəti etiraz doğurub. Təəssüf ki, Şabran rayonunun rəhbərliyi bu biabırçılığa birbaşa dəstək verir. Müdafiə naziri Milli Məclisdə məsələ qaldırmışdı ki, hərbi xidmət keçməyən vətəndaş rəhbər vəzifəyə təyin oluna və seçilə bilməz. Təəssüf ki, qanunlarımıza əməl edən yoxdur".

**Şikayətçi qanuni torpaq sahəsinin zəbt olunduğundan danışıb:** "Cəmaləddin Nuriyev Zeyvə kəndi ərazisində yerləşən, uzun illər istifadəmdə olan və bələdiyyəyə məxsus olmayan torpaq sahəsini zorla əlimdən alaraq, DSK-nın sədri Nizami Baloğlanovun zəbt etməsinə şərait yaradıb. Çünki DSK sədri ona bələdiyyə sədri seçilməkdə köməklik göstərəcəyini bildirib. Məlumatlara görə, bələdiyyə sədri seçilmək üçün 70 min manat rüşvət verib. Biz indi nəyə inanaq? Belə çıxır ki, kimsə cəbhədə qanını tökməli, şəhid olmalıdır? Fərarilər isə torpaqlarımızda bələdiyyə sədri olmalıdırlar?"

**Şikayətçi kömək üçün müraciət etmədiyi aidiyyəti orqanın qalmadığını söylədi:** "Artıq səbrim tükənib. Hara şikayət edirəmsə, məhəl qoyan yoxdur. İndiyə qədər cənab prezident İlham Əliyevə, Mehriban Əliyeva, Oqtay Əsədov, Əli Əhmədov, Əli Həsənov Məzahir Pənahov, Fikrət Məmmədov, Heydər Əsədov, Şabran Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov, rayon Prokurorluğuna müraciət etmişəm. Amma nəticəsi olmayıb. Qəzetiniz vasitəsilə prezidentimizə müraciət edirəm ki, bələdiyyə sədrinin qanunsuz əməllərinin qarşısını almaqda bizə mənə kömək edəsiniz".

❑ Cavanşir ABBASLI

# 8-ci sinif şagirdi intihar etdi

**Paytaxtda intihar hadisəsi qeydə alınıb.Bakı Şəhər Prokurorluğundan verilən məlumata görə, srağagün Pirallahı rayonu, Gürgən qəsəbə sakini, 2000-ci il təvüllüdlü Nicat Əlibala oğlu Rzayev özünü yaşadığı evdə asıb.**

Hadisədən dərhal sonra Pirallahı rayon Polis Şöbəsinin əməkdaşları hadisə yerinə gediblər. Bakı Şəhər Prokurorluğundan verilən məlumata görə, faktla bağlı Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə cinayət işi açılıb: «Hələlik intiharın səbəbləri bəlli deyil. Bununla bağlı müvafiq araşdırmalar aparılır».

Qeyd edək ki, intihar etmiş yeniyetmə Pirallahı rayonunda yerləşən 231 saylı orta məktəbdə 8-ci sinifdə təhsil alırdı. Baş vermiş olayla bağlı publika.az-a danışan məktəbin direktoru Mehparə Mansurova mərhumun sakit, tərbiyəli şagird olduğunu bildirdi: «O, kifayət qədər qabiliyyətli şagird olub. Düzdür, o qədər də savadlı olmasa da, mümkün qədər yaxşı oxumağa çalışırdı. Hadisə baş verən kimi biz Nicatın yaşadığı evə yollandıq. Onun atası Lənkəran rayonunda qalır. Özləri əslən lənkəranlıdırlar. Lakin Nicatın anası və qardaşı Pirallahı rayonu, Gürgən qəsəbəsində yaşayır».

Nicat Rzayevin idmanla məşğul olduğunu, fiziki cəhətdən hazırlıqlı olduğunu qeyd edən direktorun sözlərinə görə, hadisə baş verdiyi gün mərhum qardaşı ilə mübahisə edib: «Nicatgildə öyrəndim ki, o, evdə qardaşı ilə mübahisə edib. Onun qardaşı Nicatdan yaşca kiçikdir. Anası onları sakitləşdirməyə çalışsa da, onlar buna əhəmiyyət verməyiblər. Sonra da Nicat özünə qəsd edib. İstənilən halda intiharın dəqiq səbəblərini hüquq-mühafizə orqanları araşdırma apardıqdan sonra müəyyən edə bilərlər».


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


Azercell

# «Azercell»in dəstəyi ilə "Uşaq qaynar xətt" xidmətinin Gəncə bürosu fəaliyyətə başladı



**Yarandığı gündən etibarən uşaqlara qarşı özəl diqqət göstərən, uşaq problemlərini cəmiyyətin diqqətində saxlamaq üçün ictimai məlumatlandırma kampaniyası hayata keçirən, habelə uşaqların rifahına sərmayə yatıran «Azercell Telekom» bu gün də bu yöndə sosial layihələrini davam etdirir. Dekabrın 19-da «Azercell» şirkətinin dəstəyi və "Ümidli Gələcək" Gənclər Təşkilatının təşəbbüsü ilə "Uşaq Qaynar Xətt" xidmətinin Gəncə bürosu fəaliyyətə başladı. 2010-ci ildə «Azercell»-in dəstəyi ilə Bakıda yaradılan "Uşaq Qaynar Xətt"-nin əsas məqsədi uşaqlara ilkin psixoloji yardım, emosional dəstəyin göstərilməsi, müxtəlif problemlərin həllinə dair məsləhətlərin verilməsi, habelə reabilitasiya mərkəzlərinə və digər xidmətlərə yönləndirmə və təxirəsalınmaz köməyin göstərilməsi idi. Azərbaycan "Uşaq Qaynar Xətt" xidmətindən dövlət uşaq müəssisələrində olan, küçədə yaşayan və işləyən, istismara və zorakılığa məruz qalan, psixoloji və emosional problemlərlə üzləşən, kobud rəftara məruz qalmış, fiziki və əqli cəhətdən əlilliyi olan, qaçqın və məcburi köçkün olan uşaqlar istifadə edirlər. Eyni zamanda,qaynar xəttinə uşaq məsələləri ilə bağlı böyüklər də zəng edib dəstək və məsləhət əldə edə bilər. Yaradılan qaynar xəttin daha üstün bir cəhəti sözügedən xidmətə müraciət edən uşaqların anonimliyinin qorunmasıdır ki, bu da onların daha səmimi olmasına şərait yaradır. Digər bir tərəfdən, fasiləsiz olaraq 24 saat fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinə həm şəhərdaxili, həm də «Azercell» nömrələrindən edilən zənglər ödənişsizdir.**

**"Gəncə regional Uşaq Qaynar Xətt"i də təcrübəli sosial işçilər, psixoloq və hüquqşünasları özündə birləşdirərək Gəncə şəhəri və ətraf rayonlarda yaşayan uşaq və gənclərə, eləcə də, onların problemləri ilə bağlı müraciət edən böyüklərə müvafiq psixoloji, hüquqi, sosial və digər xidmətlərə çıxışı təmin edəcəkdir.**

**Fəaliyyət göstərdiyi dörd il ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə müxtəlif problemlərlə bağlı ölkənin bir çox şəhər və rayonlarından uşaqlar və gənclər, habelə valideynlər tərəfindən 11 000-dən çox müraciət daxil olub. Qaynar xətt xidmətinə edilən zənglərin sayı hər rüb artmaqdadır. Buna səbəb qaynar xəttə olan etimad, uşaqlar tərəfindən bir-birilərinə ötürülən müsbət təcrübə, habelə Bakı və digər şəhər və rayonlarda aparılan məlumatlandırma kampaniyalarının təşkilidir.**

**Onu da bildirək ki, "Azərbaycan Uşaq Qaynar Xətti" 2010-cu ildən Beynəlxalq Uşaq Qaynar Xətləri Təşkilatının qlobal şəbəkəsinin tam hüquqlu üzvüdür. Bu şəbəkəyə 143 ölkədən 178 uşaq qaynar xətt xidmətləri daxildir. Beynəlxalq Uşaq Qaynar Xətləri təşkilatının hesabatına əsasən, qaynar xətlərə edilən zənglərin sayı hər il orta hesabla 5% artır.**

**Ölkənin lider mobil rabitə operatoru «Azercell» Telekom öz öhdəliyinə sadiq qalaraq bundan sonra da sosial məsuliyyət sahəsində cəmiyyətə öz dəstəyini göstərməkdə davam edəcək.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.**

## Elan

**Rəhimli Murad Yaşar oğlunun adına olan Bakı şəhər, M.X.Şərifli küçəsi, ev 25, mənzil 270 saylı evin kupçası itdiyi üçün etibarsız sayılır.**

**Dekabrın 14-də nəqliyyat naziri Ziya Məmmədovun qohumu Mansur Məmmədovun Göyçaya icra başçısı təyinatının 7 ili tamam oldu. M.Məmmədov rayona başçılıq etdiyi bu 7 ildə yalnız torpaqları qarış-qarış satmaqla, sahibkarlardan xərac yığmaqla, özünə və ətrafına mal-mülk əldə etməsi ilə yadda qalıb.**

# Ziya Məmmədov Göyçayda özünə vertolyot meydançası tikdirir

## Rayon Məmmədovların əsarətində çabalayır; Göyçayda Rəsul Rzanın evi olan küçənin yolları Suriyanı xatırladır, nazirin qohumu olan Mənsur Məmmədov rayona başçılıq etməsinin 7-ci ildönümündə camaatı problemlərlə baş-başa qoyub













Əvəzində yerli əhali problemlərlə üz-üzə qoyulub. İcra başçısının başı alqı - satqı işlərinə elə qarışıb ki, rayon camaatını narahat edən məsələlər yadına düşmür. Hətta iş o yerə çatıb ki, yazıçı Anarın ata evi yerləşən küçəyə belə bir maşın asfalt tökmürlər. Göyçayın Nigar Rəfibəyli küçəsində yaşayan sakinlər bərbad yol problemindən artıq cana doyublar. Yerli sakinlərin sözlərinə görə, M.Məmmədovun Göyçayda obyekt satmaqdan başı ayılsa, camaatın dərdi ilə maraqlanar. İndi bu küçədən nə piyadalar, nə nəqliyyat hərəkət edə bilir.

Rayonda yolların çala-çuxur, darmadağın vəziyyətdə olmasına biganəlik əhalini hər gün eyni məşəqqəti yaşamağa məhkum edib. Sakinlər bizimlə söhbətində qeyd edirlər ki, küçə başdan-başa palçıq içindədir, gölməçələr yaranıb və cavabdeh qurumlar bir maşın asfalt tökmək istəmirlər. Onların sözlərinə görə, yazıçı Anarın anası Nigar Rəfibəylinin adını daşıyan küçədə, atası, Xalq şairi Rəsul Rzanın öz evi yerləşir. Şairin bu evinin qarşısında böyük bir gölməçə yaranıb.

"Yaxşı, bizi fikirləşmirlər, başa düşdük, icra başçısını xalqdan çox, öz cibi maraqlandırır. Heç olmasa biri kimsə icra hakiminə izah etsin ki, böyük şairə qarşı belə hörmətsizlik olmaz. Ola bilsin ki, Anar müəllim bura gəlib-getmir, başı qarışıqdır, yoxsa atasının evinin qabağında yolun bərbad vəziyyətdə olduğunu görərdi. Ancaq biz dəvət edirik ki, bir dəfə gəlib maraqlansın və məsələni yuxarılara çatdırsın. Bizdən çox, onu narahat etməlidir. Anar müəllimin ata evinin qabağı gölməçəyə çevrilib, addım atmaq olmur. Biz hər yay-qış əziyyət çəkirik. Qışda yağış yerə dəyən kimi ümumiyyətlə, yol keçilməz olur. Nigar Rəfibəylinin adını daşıyan küçədə yol belə olmamalıdır, Rəsul Rzanın evinin qarşısı bu günə düşməməlidir, " - deyə şikayətçilər qeyd edirlər: "Onların sözlərinə görə, Yazıçılar Birliyinin sədri rayon icra hakimiyyətinə rəsmi məktub göndərə bilər: "Məktubla yazıb xahiş etsin ki, bu küçənin yollarına əl gəzdirsinlər. Bura Göyçayın kənarı deyil ki. Hamı bu yoldan keçib gedir. Bəs, prezidentin ayırdığı pullar nəyə sərf olunur ki, ara yollar hələ də bərbad vəziyyətdədir? Amma bu dəqiqə əlimdə 20 min manat götürüb gedim icra hakimiyyətinə, deyim filan yerdə obyekt tikmək istəyirəm, o saat düzələr. Biz çox xahiş edirik ki, qəzet vasitəsi ilə Anar müəllim bu məsələdən xəbər tutub nüfuzundan istifadə edərək köməklik göstərsin. Hər halda biz nə pul istəmirik, nə iş, nə şəxsi mənfəət üçün bir şey... Sadəcə, yollarımız düzəlsin".

Rayonda torpaqların qarış-qarış satılmasından danışan göyçaylılar deyirlər ki, Statistika İdarəsinin yeri satılıb və şərab evi açılıb, internat məktəbinin ərazisinin bir hissəsi peşkəş olunub, massivdə yeni evlər tikilib, keçmiş prezident Heydər Əliyevin portreti götürülüb, ərazi satılaraq ticarət mərkəzi fəaliyyətə başlayıb.

Göyçaylılar gileylənirlər ki, artıq rayonda boş yer qoymayıblar. Əlavə olaraq, Heydər Əliyev mərkəzini söküb Tarixi Diyarşünaslıq Muzeyi tikilib, H.Əliyev üçün yeni mərkəz inşa olunub, gənclər mərkəzinin binasının tikintisi isə uzun müddətdir davam edir.

**Bu işlərin həyata keçirilməsində külli-miqdarda vəsaitin mənimsənildiyini iddia edən sakinlər qeyd edirlər ki, icra başçısı bu vəsaitləri ara yolların bərpasına, iş yerlərinin açılışına xərcləsəydi pis olmazdı. Sakinlər onu da bildirirlər ki, obyektlərdən qeyri-rəsmi pul yığılması açıq şəkildə həyata keçirilir.**

Sahibkarların gününü "göy əskiyə bükən" rayon rəhbərliyi bu gəlirlər hesabına özünə imarətlər tikdirir. Təkcə, özü yox, Göyçayın kuratoru Ziya Məmmədov, deputat Elton Məmmədov və başqaları malikanələr saldırır. Məmmədovların uzun illərdir ki, sahibləndiyi bu bölgə onların şəxsi "respublikasına" çevrilib. Məsələn, hazırda Potu-Hüngütlü ərazisində Z.Məmmədov hektarlarla ərazini hasarlayıb. Ucu-bucağı görünməyən sahə getdikcə qurtarmır. Geniş bir massivi çəpərləyən nəqliyyat naziri burada özünə vertolyot meydançası tikdirir, villalar inşa edir. Əraziyə giriş qeyri-mümkündür. Hündür hasarlarla əhatələnmiş böyük sahə nəzarətdədir. Və bütün bunlardan xəbərdar olan Göyçay camaatı danışır ki, Məmmədovlar ailəsi öz biznesini inkişaf etdirir, problemlər isə aşıb-daşır.

**Sakinlərin sözlərinə görə, icra başçısı təkcə 7 ili geridə qoymayıb, bu 7 ildə problemləri də qabağa çəkib...**

Ziya Məmmədovun villa inşa etdirdiyi ərazidə - Potuda həyata keçirdiyi ağlasığmaz bir iş isə bir neçə kəndin su altında qalmasına səbəb ola bilər. Belə ki, Şirvan kanalının Potu kəndindən keçən ərazisində axın istiqaməti dəyişdirilib. Buna səbəb odur ki, rayon camaatı Ziya Məmmədovun evinin qarşısından keçib, oradan 500 metr qarşıda "kanalın döngəsi" deyilən yerdə balıq tutmasının qarşısını almaq istəyib. Bura istirahətə, balıq tutmağa gələn olmasın deyə, kanalın axın istiqamətini dəyişdirib. Bu üzdən kanalın hər an daşması və Hüngütlü, Mallı-Şıxlı, Şəhadət kəndləri tamamilə su altında qalıb məhv ola bilər.

❑ **"Yeni Müsavat"ın Reportyor Qrupu**
**Göyçay-Bakı**

# Qızıl bazarında "qızıl dövr" başlayır

## Toy mövsümünün başlaması ilə əlaqədar qızılın qiyməti artacaq

**Azərbaycanda ənənəvi olaraq Məhərrəmlik ayı başa çatan kimi toy mövsümü start götürür. Toy mövsümündən ən çox qazananlar isə restoranlar, müğənnilər və qızıl tacirləri olur.**





Bu dəfə qızıl bazarındakı durumu və dünya bazarında gedən iqtisadi proseslərin qızılın qiymətinə necə təsir etməsini araşdırdıq. Neftin ucuzlaşması, dolların dəyərinin gündən-günə artması, Rusiya rublunun çətin günləri və ən əsası toy mövsümünün başlaması qızıl bazarına necə təsir edir? Bu suallara aydınlıq gətirmək üçün öncə "Laçın" Ticarət Mərkəzinin zərgərlik məmulatları satılan şöbəsinə baş çəkdik. Bazarda alıcı seyrəkliyi nəzərə çarpırdı. Piştaxtaların qarşısında 3-4 alıcı görmək mümkün idi.

Satıcılara yaxınlaşıb alverin necə getdiyini soruşduq. Bəziləri "rəhbərlik icazə vermir" deyərək danışmaqdan imtina etsə də, bəzi satıcılar bazardakı vəziyyət haqqında danışdılar.

**3 ildir qızıl satışı ilə məşğul olduğunu deyən Şahnaz Babayeva bildirdi ki, toy mövsümünün başlamasına az qalması ilə əlaqədar artıq qızılın qiymətində 2 manata qədər bahalaşma var:** "Hər il Məhərrəmlik ayında bazarda demək olar ki, müştəri görmək olmur. Ancaq məhərrəmliyin sonuna yaxın nisbətən canlanma olur. Əgər əvvəllər gün ərzində 50 nəfər alıcı yaxınlaşırdısa, Məhərrəmlik zamanı 4-5 nəfər alıcı gəlir. Təbii ki, bu da qiymətlərə təsir edir. Son iki ayda qızıl kəskin ucuzlaşmışdı. Ancaq bir neçə gündən sonra 5 manata qədər bahalaşma olacaq. Çünki tələbat artır və bu da qiymətlərə təsir edir".

**Satıcının sözlərinə görə, hazırda onun piştaxtasında olan 583 əyarlı Rusiya qızılının bir qramı 25 manat, 585 əyarlı Türkiyə qızılının qramı 28 manat, 750 əyarlı İtaliya qızılının qramı isə 33-34 manatdır.** Satıcının sözlərinə görə, qarşıdakı günlərdə qızıl qiymətlər artan xətt üzrə gedəcək.

Digər satıcı, 10 ildən artıqdır qızıl ticarəti ilə məşğul olan Səbuhi Məmmədov bildirdi ki, Məhərrəmliyin sona çatmasına az qalması ilə əlaqədar artıq ötən həftədən başlayaraq bazarda canlanma var və bu qiymətlərə də təsir edib: "Demək olar ki, alıcılıq 20-30 faiz artıb. İki aydı durğunluq idi. Artıq qızıl almağa gələnlərin sayı artır".

Müsahibimin sözlərinə görə, təkcə toy mövsümünün yaxınlaşması yox, dünya bazarında gedən iqtisadi proseslər də qızılın qiymətinə və satışına təsir edir: "Dünyada neft ucuzlaşır, dollar isə bahalaşır. Rusiyada pulun dəyəri ölüb. Bu Azərbaycanda da ticarətə təsir edir. Bu bazarın alıcılarının bəlkə də 40-50faizinin gəliri Rusiyadan idi. İndi rubl dəyərdən düşdüyünə görə insanlarda pul yoxdur. Artıq Rusiyadan pul gəlmir. Millət gündəlik çörəkpulunu fikirləşir".

Satıcı onu da qeyd etdi ki, firmasından və dizaynından asılı olaraq Rusiya qızılının qramını 23-28 manatdan, Türkiyə qızılını 26-30 manatdan, İtaliya qızılının qramını isə 32-40 manatdan satır.

**Digər satıcı Zahid Əliyev** isə qızılın qiymətinin insanlara psixoloji təsirindən danışdı. Qeyd etdi ki, bazarda durğunluq olanda insanlarda bir rahatlıq yaranır ki, onsuz da qızıl ucuzdur, istədikləri zaman ala bilərlər. Ancaq qızıl ən pik həddə bahalaşanda alıcılıq da artır. İnsanlar qorxur ki, bundan da baha ola bilər və tez almaq lazımdır.

**Söhbətləşdiyimiz satıcılar yaxın günlərdə ticarətin əvvəlki tempinə qayıdacağına ümidli olduqlarını bildirdilər.**

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 310 (6019) 20 dekabr 2014



## Öncə ürəktutması, sonra oğurluq...

Amerikanın Florida ştatındakı Leyk Uels şəhərində maraqlı oğurluq hadisəsi baş verib. 30 yaşlı Tarus Skot və 27 yaşlı Jenard Düpre maraqlı bir oğurluq edib. Belə ki, onlardan biri supermarketdə guya ki, ürəyinin tutması ilə bağlı rola girərək, yerə yıxılıb. Bundan öncə isə onlar marketin uşaq oyuncaqları hissəsindən Barbi evi, avtomobili, eləcə də planşet oğurlayıblar. Girişə çatanda Tarus özünü yerə atıb, əli ilə ürəyini tutub. Mağazadakı bir neçə müştəri ona yardım etmək istəyib. Başın qarışmasından istifadə edən digər dostu ilə oğurladıqları ilə birgə mağazadan çıxıb. Bundan bir neçə dəqiqə sonra Düpre sanki əhvalı birdən yaxşılaşmış kimi yerdən ayağa durub və mağazanı tərk edib. Hər iki oğru marketin parkinqindən birgə çıxıblar. Baş vermiş hadisəni videomüşahidə aparatı qeydə alıb və oğruların kimliyini müəyyənləşdirib. Hər iki oğru həbs edilib. Onların oğurladığı əşyaların ümumi məbləği isə 369 dollar olub. Hüquq-mühafizə orqanlarından isə bildiriblər ki, bu, cütlüyün ilk belə oğurluq hadisəsi deyil. Onlar bir neçə dəfə bənzər oğurluq hekayələrinə görə polis orqanlarında olublar. Statistikaya görə, sözügedən cütlük düz 32 dəfə həbs edilib. Skott qısa müddət bundan öncə həbsdən azad edilib. Onun son həbs müddəti 10 il olub.

# İlin ilk ayında insanlar iki yerə axışır

**Amerikada aparılan bir araşdırmaya görə, yanvar ayı insanların ən çox idman zallarına, fitnes klublara axışdığı aydır. Buna səbəb isə Yeni ildə insanların ən çox arıqlamaq, sağlam həyat tərzi ilə bağlı qarşısına qoyduğu məqsəddir. Amma ən maraqlısı odur ki, ayın sonlarına yaxın idman zalları ənənəvi sayda ziyarətçinin ümidinə qalır. Alimlər onu da müəyyənləşdirib ki, hazırda insanların ən böyük problemi çəki ilə bağlıdır. Yaşı 35-i adlamış insanların əksəriyyəti artıq çəkidən əziyyət çəkir. İnsanlar isə dəyişikliyə ilk növbədə xarici görünüşlərindən başlamaq istəyir. Hər halda bu, ən asan olanıdır.**




Dil öyrənmək isə insanın öz intellektual bazasına etmək istədiyi ən mühüm əlavədir. Bu səbəbdən də yeni bir əcnəbi dil öyrənmək karyera, daha çox maddi gəlir üçün əvəzsiz çıxış yolu sayılır. İnsanların dil kurslarına axın etməsinin arxasında məhz bu amil dayanır. Amma maraqlıdır ki, dil kurslarına axın edənlər də məqsədlərini çox vaxt sona qədər çatdıra bilmirlər. Dil kursları daha çox konkret hədəfi (yeni iş, hansısa layihə) olan insanların axıra qədər ziyarət etdiyi məkandır. Burda da hisslər yox, məntiq ön plana çıxır. Elə buna görə də güclü məntiqi olmayan Yeni il hədəfləri məhvə məhkumdur.

# Protezlər şüurla idarə olunur



**Dünyada ilk dəfə olaraq şüurla, fikirlə idarə olunan protezlər sınanıb. Həkimlər və texnoloqlar əzələlərin hərəkətini idarə edən sinirləri təkrarlayan metod hazırlayaraq protezlər yaradıblar.**

İki qolu çiyindən kəsilmiş pasiyent bu protezlər vasitəsilə illər sonra ilk dəfə masanın üstündəki stəkanı götürə bilib.

Alimlərin dediklərinə görə, "sensasiya" kəlməsini sevməsələr də, nail olduqları çox önəmli və əhəmiyyətlidir.

Milli.az "Daily Mail"ə istinadən bildirir ki, ABŞ-ın Kolorado ştatının sakini Les Bo 40 il əvvəl elektrik qəzasında qollarını itirmişdi.

Və 40 il sonra o, ilk dəfə masa üzərindəki su stəkanını götürməklə yanaşı, qollarını və əllərini istədiyi kimi hərəkət etdirib.

Onun üçün hazırlanmış protez fikirlə, emosiyalarla idarə olunur.

Con Hopkins Universitetinin tətbiqi fizika laboratoriyasında (Johns Hopkins University Applied Physics Laboratory, APL) hazırlanmış yeni protez çiyin səviyyəsində kəsilmiş qolları əvəzləyən amputantlardır. Bu modul protezlərin ikisini də eyni vaxtda hərəkət etdirmək mümkündür. Protez " theRevolutionizing Prosthetics Program" çərçivəsində hazırlanıb.

Universitetin əməkdaşı, cərrah-travmatoloq Albert Çinin dediyinə görə, yeni proses kəsilmiş qollardakı əzələləri idarə etmiş sinirlərin iş prinsipindən qaynaqlanır.

"Qolu çiyindən kəsilərək amputasiya olunmuş adama belə protez vasitəsilə yardım edə bilərik. Həmin adam, sadəcə, hansı hərəkəti etmək istədiyini düşünəndən sonra qollarını tərpədə bilər", - Çi söyləyib.




**QOÇ** - Maliyyə problemlərinə görə sıxıntı çəkməyin. Ən azı ona görə ki, bu gündən etibarən şəxsi büdcənizdə kifayət qədər artım olacaq. Özünüzə qapılmaqdansa, əzmkarlığınızı artırın.

**BUĞA** - Daxili tərəddüdlərinizi dəf etmək üçün mütləq ətrafınızda təcrübəli adamlar olmalıdır. Saat 15-ə qədər uğurlu məqamlar yaşasanız da, sonrakı ərəfədə mübahisələr mümkündür.

**ƏKİZLƏR** - Ümumi sıxıntılarınız olsa da bu, yalnız nahara qədər davam edəcək. Sonrakı müddətdə bəzi planları həyata keçirə biləcəksiniz. Axşama yaxın vacib şəxslərlə görüşəcəyiniz mümkündür.

**XƏRÇƏNG** - İlin sonuna qədər görəcəyiniz işləri indidən götür-qoy edin. Ulduzlar səfərə çıxmağınızı labüd saymır. Amma nahardan sonra xoş təsadüflə rastlaşacaqsınız. Kiminsə əleyhinə danışmayın.

**ŞİR** - Belə bir gündə evdə oturmağa lüzum yoxdur. Əksinə, aktivliyinizi artırmalısınız. Ulduzlar bəyan edir ki, bəxtinizdə dekabr ayının ən uğurlu təqvimlərindən biri durub.

**QIZ** - Bu təravətli günü qeyri-işgüzar görüşlərə həsr etməyiniz məsləhətdir. Soyuq münasibətdə olduğunuz yaxınlarınızla davranışlarınızı mülayimləşdirməyə çalışın. Uzaq yola çıxmayın.

**TƏRƏZİ** - Bu təqvimi romantik bir günə çevirmək öz əlinizdədir. Çünki əyləncələrə və səfərə də gedə, əməli fəaliyyətlə də məşğul ola bilərsiniz. Qısası, bu gün hər şey özünüzdən asılı olacaq.

**ƏQRƏB** - Ailə-sevgi münasibətlərində qarşınıza problemlər çıxa bilər. Amma belə anlaşılmazlıqları dəf etmək üçün təmkin göstərməyiniz kifayətdir. Günün ikinci yarısını istirahətə həsr edin.

**OXATAN** - Özünüzə daha çox etibar edin. Çünki ətrafınızda olanlar iştirakçısı olduğunuz situasiyaları sizin qədər təhlil edə bilmir. Ay bürcünüzdə olduğundan pul sövdələşmələrindən uzaq olun.

**OĞLAQ** - O qədər də uğurlu vaxt deyil. Öhdəliklərinizin reallaşması istiqamətində yorulacağınız gözlənilir. Bir sözlə, bu təqvimdə yalnız aktiv fəaliyyətlə məşğul olmalısınız. Qidanıza fikir verin.

**SUTÖKƏN** - Yüksək əhval-ruhiyyədən uzaq olmayın. İş haqqında nə qədər düşünmək olar? Ruhdan düşməyə də lüzum yoxdur. Çünki qarşıda sizi uğurlu məqamlar gözləyir. Uzaq səfərə çıxmayın.

**BALIQLAR** - Ulduzların düzümü bu təqvimin sizə düşəcəyindən, o cümlədən perspektivli görüşlərdə iştirakınızdan xəbər verir. Bu səbəbdən də boş dayanmağa dəyməz. Axşama yaxın sürprizlə qarşılaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kofenin içindən kokain çıxdı



Almaniyada Braziliyadan gətirilən kofenin tərkibində 33 kiloqram kokain aşkarlanıb. Narkotiklə dolu torbanı kofe biznesi ilə məşğul olan kampaniya əməkdaşları aşkarlayıblar. Narkotikləri tapandan sonra kompaniya polislə əlaqə saxlayıb. Qeyd edilir ki, narkotik maddə Bremerhafen şəhərinin sahilindən qoyulub. Kim tərəfindən, nə zaman qoyulması isə hələlik bilinmir. Narkodillerlər isə tez-tez kontrabanda üçün bu cür üsullardan istifadə edirlər. Dekabrın əvvəlində Peru polisi iki itinin qarnında 3 kiloqrama yaxın kokain aparmağa cəhd göstərən bir kişini həbs etmişdi.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

Lisenziya N: B 114
SAYI: 5.400

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.